

Nə alim doğuldum, nə də ki, dahi;
Peşman da deyiləm gələn günümə.
Hələ aparma məni İlahi;
Doğulan günümdən ölən günümə.

Əlimxan
Yaqub

ZƏLİMXAN
YAQUB

# ƏSƏRLƏRİ

ON ÜÇ CİLDDƏ

II
CİLD

"Şərq-Qərb"
Bakı – 2011

Tərtib edəni və
redaktoru: **Musa NƏBİOĞLU**

**Zəlimxan Yaqub. Əsərləri, 13 cilddə, II cild.**
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 416 səh.

Zəlimxan Yaqubun on üç cildlik əsərləri külliyyatının
2-ci cildində müxtəlif mövzularda yazdığı şeirlər toplanmışdır.

**ISBN 978-9952-34-703-6**

© Zəlimxan Yaqub, 2011
© "Şərq-Qərb" Nəşriyyat evi, 2011

## ÜRƏYİMDƏ

Azərbaycan bir nəğmədir,
Sözü mənim ürəyimdə.
Eşqi uca zirvələrdə,
Özü mənim ürəyimdə.

Nə qorxusu qışın, qarın,
Nə vaxt olsa seyrə varın.
O çağlayan bulaqların
Gözü mənim ürəyimdə.

Döyüşdədir hər gün, hər ay,
Düşmən üstə, çəkir haray –
Qafur, Mehdi, Cəmil, Gəray,
Həzi – mənim ürəyimdə.

Gözüm qaynar gözə baxdı,
Alov əmdim körpə vaxtı.
Ana Vətən bir ocaqdı,
Közü mənim ürəyimdə.

## ANA TORPAQ

Ana torpaq, açılanda baharın,
Bürünürsən yaşıla sən, göyə sən.
Ucalırıq dağlarına baxanda
Könlümüzü qaldırırsan göyə sən.
Tütək səsi daşları da dindirir,
Qarışırsan nəğməyə sən, neyə sən.
Payız gəldi bir qaydadı, sən gərək
Ağacların budağını əyəsən.
Bağ-bostanın mürgüləyə, sozala,
Yetişəsən, qızarasan, dəyəsən.
Səxavət də, məhəbbət də səndədir,
Hər fəsildə bir sərvətə yiyəsən.
Baharda da, payızda da, qışda da,
Səni görüm toy paltarı geyəsən!

## DAŞALTI

Uçqun gördüm, heyrətimdən uçundum,
Məzar saydım uçurumu bu yerdə.
Lovğalanıb heç saymırdım dağları,
Yaman açdı puçurumu bu yerdə.

Boz dumanlar oyur-oyur oynadı,
Qara yellər gülmək güldü, nə güldü.
Sel apardı ayağımın altını,
Başım üstə şimşək güldü, nə güldü.

Daş əlimi dilim-dilim eylədi,
Yıxılanda sıldırımdan yapışdım.
Sağ əlimi dayaq verdim dağlara,
Sol əlimlə ildırımdan yapışdım.

Çınqıllarda parçalandı heyrətim,
Gözlərimi dərə çəkdi bu yerdə.
Elə bildim dağ tərpəndi yerindən,
Daşaltı bir nərə çəkdi bu yerdə.

Baxıb dedi: inad sənsən, yoxsa mən,
Sərt qayalar inadımı saymadı.
Havalanıb qartal olmaq istədim,
Qarlı zirvə qanadımı saymadı.

İndi bildim nə deməkdir ucalmaq,
Nələr çəkib zirvələrə çıxanlar.
Neçə dəfə yıxılarmış, durarmış,
Şöhrətiylə dağ şöhrəti yıxanlar!

## ÜÇTELLİ DURNA

*Sevimli şairimiz Osman Sarıvəlli öz sazını məşhur*
*İraq şairi Əbdüllətif Bəndəroğluna hədiyyə vermişdir*

Dostluğun nəğməsi baldan şirindir,
Tellər bu eşq ilə ötür, ay sazım.
Sən varsan, həyatda mən varam demək,
Səsimi hər yana yetir, ay sazım.
Göstər qüdrətini sən dost ellərə,
Dünyanı yurduma gətir, ay sazım.
Bu uzaq səfərdə uğurlar sənə,
Həsrəti dünyadan itir, ay sazım.
Orda nəğməkarım, şairim yatır,
Müqəddəs məzarı ziyarət üçün
Bir ovuc torpaq da götür, ay sazım.
Mənim salamımı, mənim sözümü,
Leylini Məcnuna yetirən kimi
Babam Füzuliyə yetir, ay sazım.
Arazdan deyənə Xasa çayına,
Köksünü dərindən ötür, ay sazım.
Qarşına çıxacaq qardaşım, bacım,
Bilirəm üzündən öpəcək sənin.
Qorqudun ruhunu səcdəyə gəlib,
Telinə gül-çiçək səpəcək sənin.
Sən də həzin-həzin dillənəcəksən,
Çalıb laylasını yaşıl düzlərin,
Neçə yol xallanıb güllənəcəksən.
Dolan addım-addım, gəz qarış-qarış
Eyvaz durna teli yığan yerləri,
Yağış əvəzinə torpaq üstünə
Xurmanın yarpağı yağan yerləri.
Ovçular ovdadı, ehtiyat eylə,
Səni durna bilib vuran olmasın.

Bir telin qırılsa bağlamaq olar,
Könül tellərini qıran olmasın.
Yetir, nəğmə yetir, nişanə yetir,
“Vidadi xəstədən Bağdad elinə”.
Dindir bulaqları, dindir çayları,
Qarışsın nəfəsin səhər yelinə.
Nəğməsiz keçməsin həyatın sənin,
Axsın ürəklərə bayatın sənin.
Saz köynəkdən çıxsa, el yasdan çıxar,
Danış, telli sazım, özümdən danış.
Aləmi yandırıb, özü yanmayıb,
Quru taxtadakı dözümdən danış.
Qurbani ömürlü, Şəmşir nəfəsli,
Ələsgər kamallı sözümdən danış.
İgid oğulların sözü düşəndə,
Hayla “Gəraylı”nı, hayla “Cəngi”ni.
“Misri”də nəfəs ver Misri qılınca,
El, mahal dinləsin qoy ahəngini.
Sən dilə gələndə tək insan deyil,
Göy də qulaq asar, yer də dinləyər.
Həzin havalardan doymaz ürəyi,
Min dəfə dinləyən bir də dinləyər.
Bugünkü sevginin başqadır dadı,
Ağ günlər eşqinə dastan deyərsən.

Çoxdan yola salıb ağır illəri,
Yurdumuz çıxıbdır yasdan deyərsən.
Öpər, əzizləyər qardaş qardaşı,
Anadan, bacıdan, dostdan deyərsən.

Eləmi göynətdi eşqi telləri,
Kərəmin ahından dağ dada gəldi.
Əslinin nəfəsi dəydi güllərə,
Bülbül nalə çəkdi, bağ dada gəldi.

Aşiqin üstünü aldı duman, çən,
Tez düşdü sevənin saçlarına dən.
Dünyanı yandıran dərdin əlindən,
Əridi qəlbində yağ, dada gəldi.

Gün belə keçmədi, açıldı yazım,
Güldü çiçək kimi eşqim, avazım.
Atadan oğula pay oldu sazım,
Bakıdan baş aldı Bağdada gəldi.

## PALIDLAR OLUR

Küləklər qopanda qaraldı qanı,
Bulud göy üzündə buluda dəydi.
Şimşək meşələrə saldı tufanı,
Xatası yenə də palıda dəydi.

Məğrur bir ağaca vurulan zədə,
Budaqdan-budağa gəzir car olur.
Günəşin nurunu hamı içsə də,
Şimşəklə döyüşən palıdlar olur.

## OCAQ

Harda od görəndə, ocaq görəndə,
Odlu könülləri salıram yada.
Əməli nur verib şəhərə, kəndə,
Yananlar yaşayıb yalnız dünyada.

Adını hörmətlə gətirib yada,
Ocağı həmişə öyüb babalar.
Suyu diş göynədən bulaqlara da
"Şəfa ocağıdır" deyib babalar!

Burda soyumaq nə, qaralmaq nədir,
Sönməz bu torpağın gur ocaqları.
Yaxşı kişilərin ürəyindədir,
Şəfa qaynaqları, nur ocaqları!

Seçdi vədəsində əyrini, düzü,
Odlu nəfəsini aləmə yaydı.
Kimi yandırardı atəşi, közü,
Sabir yana-yana yaratmasaydı!

Qəlbi zaman-zaman vurdu, döyündü.
Sönmədi alovu müqəddəslərin.
Öləndə qəbri də ocağa döndü,
Ürəyi el üçün yanan kəslərin!

## SƏNDƏ VARMI?

Mənə geniş çöllərin,
Çəkili sünbüllərin
Bərəkəti gərəkdi,
Bərəkət səndə varmı?

Mənə zərif güllərin,
Al-yaşıl fəsillərin
Təravəti gərəkdi,
Təravət səndə varmı?

Mənə çətin anların,
Ağır imtahanların
Dəyanəti gərəkdi,
Dəyanət səndə varmı?

Mənə barlı bağların,
Əyilən budaqların
Səxavəti gərəkdi,
Səxavət səndə varmı?

Bu dəyanət, bu sərvət,
Bu bərəkət, bu nemət
Saf məhəbbət deməkdi,
Məhəbbət səndə varmı?

## AD

Göstərib "gücünü, istedadını",
Gəl yazma ağaca "ölməz" adını.
Əl saxla, təbiət bizdən inciyər,
Pis baxsaq baxışdan, gözdən inciyər.
Ağac gövdəsinə yazılan adı,
Ocaq kül elədi, el yaşatmadı!

## DÜŞÜBDÜ

Dünən bulaq üstə qızın, gəlinin,
Toy-nişan barədə sözü düşübdü.
Deyirlər təzə bəy olmaq istəyir,
Aranın yaylağa gözü düşübdü.

Çəmənlər torpağa döşəyib xalı,
Nişana  hazırdır kərəsi, balı.
Əlləri həsrətdən qalıb uzalı,
Elçi dərələrin özü düşübdü.

Sığmayıb bu sevgi misraya, bəndə,
Yayılıb sədası şəhərə, kəndə.
Vətən torpağını toylu görəndə,
Sinəmə sənətin közü düşübdü.

## VURĞUNUM

Şeirimizə səhər vaxtı, dan yeri,
Gözümüzə çıraq olub Vurğunum.
Dəniz ömrü damla-damla paylanıb,
Hər sinədə bulaq olub Vurğunum.

Söhbət şirin, ülfət şirin, dəm şirin,
Telli sazda zil gözəldi, bəm şirin.
Söhbətini eşidəndə Şəmşirin,
Dəlidağda bir dağ olub Vurğunum.

Ellər deyib, süfrəsini bol açıb,
Ürəklərə səxavətdən yol açıb.
Hər köpəyə ata kimi qol açıb,
Hər anaya uşaq olub Vurğunum.

Pirə dönüb ömrün oğlan yaşında,
Loğmanıydı torpağın da, daşın da.
Elə yanıb hər kəlmənin başında,
Ən müqəddəs ocaq olub Vurğunum!

## NƏNƏ

Nənəm mənə nağıl dedi gecələr,
Yuxularda nələr gördüm, eh, nələr!
Xalça uçur, ağız açıb əjdaha,
Pələng kimi nərildəyir hər kaha.
Ordu, qoşun batammayan divlərə,
Bir qəhrəman qalib gəlir ağılla,
Sanki mən də ağıllandım nağılla.
Div quyuda, onun canı şüşədə,
Balıq suda, aslan olur meşədə.
Öyrəndim ki, kim hardadı, nə nədə,
Nənəm də öz nənəsindən öyrənib,
Sünbülə də mahnı qoşub, dənə də.
Bayatısı mürgülədib dağları,
Günəşə də nəğmə deyib, çənə də.
Yaxşı gündə qazan asıb ocağa,
Yaman gündə əli qalıb çənədə.
Bel yumağa, saçlar qara dönübdü,
Atama da layla çalıb, mənə də.
Deyir ölləm nəticəmi görməsəm.
Hazırlaşır nəvəsinin toyuna,
Arzuya bax, qüdrətə bax nənədə!

## GÖRÜM

Çayla axar, sellə yarış eylərəm,
Təki səni bir çağlayan bulaq görüm.
Yer üzünü qarış-qarış eləyərəm,
İstəmərəm yaxınları uzaq görüm.

Meydan oxu min çəmənin çiçəyinə,
Yerin, göyün ətri dolsun ürəyinə.
Dağ küləyi qanad versin diləyinə,
Varlığında aran görüm, yaylaq görüm.

Dodağında bircə soyuq söz olmasın,
Ürəyində xəyanətdən iz olmasın.
Elə qayna, baxışların buz olmasın,
Hər baxanda gözlərinə, ocaq görüm.

Qartal olsam, hər gün qoru sardan məni,
Özün çıxart hər sınaqdan, dardan məni.
Özün saxla qasırğadan, qardan məni,
Hər sözündə yollarıma çıraq görüm.

Nə yetirsən yaxşı yetir, əsil yetir,
Gözlərimdə rəngi solmaz fəsil yetir.
Dünya üçün ən vüqarlı nəsil yetir,
Bir kök üstə min bəhrəli budaq görüm!

## SƏN ŞEİR OXUYANDA

***Ağdam ölkəşünaslıq muzeyinin***
***əməkdaşı Xatirə xanıma həsr edirəm***

Gur ocaqdan götürüb,
Köz baxışı, köz əli.
Səni nurdan yaradıb
Təbiətin öz əli.
Gözəlliyə qovuşdum
Ay Qarabağ gözəli,
Sən şeir oxuyanda.

Titrəyən dodaqların,
Od içində yanırdı.
Nəfəsini duyanlar
Yaz mehini anırdı.
Könlümüz işıqlanır,
Ömrümüz uzanırdı
Sən şeir oxuyanda.

Qəlbimizin havası
Gah zil, gah da bəm oldu.
Sevinc qanad açanda,
Qəmin ömrü kəm oldu.
Məryəm Əsliyə döndü,
Mahmudum Kərəm oldu,
Sən şeir oxuyanda.

Hər tərəfdən Cabbarın,
Seyidin səsi gəldi.
Qəlbimə dəniz eşqi,

Bulaq həvəsi gəldi.
Məclisə çəmən ətri,
Çiçək nəfəsi gəldi,
Sən şeir oxuyanda.

Buz olsa əriyərdi,
Daş olsa dil açardı.
Bütün yallar, yamaclar,
Qış olsa, gül açardı.
Dinməz qayalar belə
Sənə könül açardı,
Sən şeir oxuyanda.

Nəğməyə döndərərdin
Bu torpağı, bu yurdu.
Daş ürəklilər belə
Sənət nədir, duyurdu.
Bir ahəngə can verib,
Yerlə göy oxuyurdu,
Sən şeir oxuyanda.

Kimdi belə alışan,
Fikri kim, meyli kimdir.
Bu dili bayatılı,
Dodağı neyli kimdir.
Məcnun gəlsin bu yerə
Görsün ki, Leyli kimdir,
Sən şeir oxuyanda!

## XEYRİ NƏDİR?

Ətəyində çiçək dərib
Zirvəsinə vurulmasan,
Sularından içən zaman
Çeşmə kimi durulmasan,
Enişində asta enib,
Yoxuşunda yorulmasan,
Nə bilərsən bu dağların
Nəğməsi nə, şeiri nədir?

Qayaların sinəsində
Şimşəklərin möhrünə bax.
Gündə yeddi rəngə düşən,
Buludların sehrinə bax.
Şah palıdın torpaq ilə
Ülfətinə, mehrinə bax.
Ürək duyar, ilham bilər,
Təbiətin seyri nədir!

Bağlamasan öz könlünü,
Ən müqəddəs diləklərə.
İşıq olub, nura dönüb
Süzülməsən ürəklərə,
Ötən ömrü, keçən günü
Yem eləsən küləklərə,
Min il yaşa bu dünyada,
Dünya üçün xeyri nədir?!

## QARAYAZIM

Geri dönməz ötən günlər,
Yüz yol can at, yeri, yüyür.
Şair, yoxdur, gözə dəymir,
Bəlkə küsüb ceyran, cüyür.
Bir talada ocaq çatdım,
Gördüm yenə can üşüyür.
Kimə deyim, göynəməsin,
Mən dərdimi hara yazım.
Bu yerlərə şeir deyən
Vurğun hanı, Qarayazım!

Yurd yerini küskün gördüm,
Boğdu məni qubar, qəhər.
El köçünü hara çəkib,
Kişnəmədi bircə kəhər!
Gecə yaman ağır keçdi,
Gec açıldı bu gün səhər.
Bu nə uzun həsrət oldu,
Ara vermir qar, a yazım.
Bu yerlərə şeir deyən,
Vurğun hanı, Qarayazım!

Ay qoca Kür, niyə susdun,
Axan təbin durğundumu?
Nəğməkarsız keçən ömrün,
İntizardan yorğundumu?
Tüstülənən bu od, ocaq,
Qəlyan çəkən Vurğundumu?
Kövrək vaxtı qoy sözümü
Göz yaşımla qara yazım.

Bu yerlərə şeir deyən,
Vurğun hanı, Qarayazım!

İzlərini nişan versən,
Ləpirindən öpəsiyəm.
Sevincimi çiçək kimi
Bu düzlərə səpəsiyəm.
O işığın pərvanəsi,
O dənizin ləpəsiyəm.
Şair gəlsin bu yerlərə
Qoy sovuşsun qar, a yazım,
Bir də sual olmasın ki,
Vurğun hanı, Qarayazım!

## VAR

Mənim gecəm necə keçir,
Səhərin nə xəbəri var.
Yuxum qaçdı qəhərimdən,
Qəhərin nə xəbəri var!

Önə cumur, yana çəkir,
Dizləriylə torpaq əkir,
Yoxuşda köhlən nə çəkir,
Yəhərin nə xəbəri var.

Dağı daşıdım arana,
Yollarda düşdüm borana.
Eh kim ölə, kim yarana,
Xəbərin nə xəbəri var!

# BAKI HAQQINDA DÜŞÜNCƏLƏR

Bu şəhərdə dünya qəmi gəlmir eynimə,
Könlüm elə fərəhlənib, gülmək istəyir.
Bir nəğməkar dövlət quşu qonur çiynimə,
Bu şəhərin nəğməsini demək istəyir!

Qız qalası dodağımdan düşməz sözümdü,
Eşqi böyük, adı əziz, şöhrəti baha.
Qoşa qala qapıları iki gözümdü,
Dünənimdən boylanıram gələn sabaha!

Bəlkə elə "şəhər olmaz qalasız" deyən –
Bir ananın laylasından yaranıb Bakı!?
Sübh yelitək xoş xəbərlə qapımı döyən
Azadlığın havasından yaranıb Bakı!

Dünya özü gözəl bilir müqəddəs şəhər,
Əzəl gündən işıqlıdır eşqin, niyyətin.
Ulduzların sayı qədər, hesabı qədər,
Gözlərinə nur vermisən bəşəriyyətin!

Boğazımdan yapışanda cəlladın əli,
Zülmətləri nur içinə boğan sən oldun!
Qurd ürəkli, şir biləkli, pələng pəncəli
Mehdi kimi oğulları doğan sən oldun!

Atdığı daş öz nəslinin başını əzdi,
Səni əzmək istəsə də, əzə bilmədi.
Alçaqların fikri gəzdi, xəyalı gəzdi,
Özü gəlib bu yerlərdə gəzə bilmədi.

Oğulların dodağında Bakı söhbəti,
Yer üzünü qarış-qarış gəzər yorulmaz.
Əziz saxlar ürəyində bu məhəbbəti,
Nəğməsini oxumaqdan Xəzər yorulmaz!

Qonaq qardaş, bir heykəl var, önündə dayan,
Yaxşı düşün hər sualı, sorğunu burda.
Yerə vurğun, yurda bağlı, ellərə həyan,
Özün dinlə Bakı haqda Vurğunu burda!

O "Bakının dastanı"nı varaqlayanda,
Gör nə yazıb, nə düşünüb, nələr deyəcək.
Bu yerlərin tarixini soraqlayanda
Neçə ilin əvvəlindən xəbər deyəcək.

Bülbül qonub budaq üstə ötəndə dil-dil,
Söhbətindən biləcəksən haradır Bakı!
Divarları adi daşdan, kərpicdən deyil,
Sarayları məhəbbətdən yaradır Bakı!

Yaz mehiylə sığallanar bağçası, bağı,
Bu şəhərdə ömrümüzün bahar çağı var.
Ataların oğul kimi cavanlaşmağı,
Oğulların Qoşqar boyda ucalmağı var!

Olanda da Bakı kimi şəhərin ola,
Sahilə bax, elə bil ki, ay parasıdır.
Dağlar boyda dərdin ola, kədərin ola,
Bu dalğalar, bu küləklər aparasıdır!

## SƏADƏTİM

Eşqim torpaq, andım Vətən,
Vurulmuşam hüsnünə mən.
Bir gülünü bir göy çəmən
Sanmaq – mənim səadətim.

Çağlayaram bulaq kimi,
Sevinərəm uşaq kimi.
Bar altında budaq kimi
Sınmaq – mənim səadətim.

Bir ürəkdə gülsə bahar,
Orda elin nəfəsi var.
Qışın töksə üstümə qar,
Donmaq – mənim səadətim.

Gül olaram torpağına,
Göz olaram ocağına.
Nəğmə olub dodağına
Qonmaq – mənim səadətim.

Alov saçıb aya, ilə,
Əriyərəm gilə-gilə.
Azərbaycan, sevgin ilə
Yanmaq – mənim səadətim.

## YAŞAYIR

*Ana torpaq, hər daşına üz qoyum,*
*Hər dərəndə çaldığım saz yaşayır.*
**Məmməd Araz**

Öz taleyi, öz səsi var hər ömrün,
Qanad açan diləyində yaşayır.
Neçə-neçə açılmamış arzu var,
Körpələrin bələyində yaşayır.

Tez saraldıb xəzəl demə yarpağa,
Sığal gərək hər bağçaya, hər bağa.
Kim can deyib can verirsə torpağa,
Elin gücü biləyində yaşayır.

Aylı gecə qardaşıdı gündüzün,
Gəlişinə çiçək səpin, gül düzün.
Dağ qartalın, daş kəkliyin, gül düzün,
Yol yolçunun ürəyində yaşayır!

## SEVGİM

İçəndə ürəkdən oxay dedim mən,
Bulağın gözünü, suyunu sevdim.
Qarlı zirvəsindən baxdım düzlərə
Dağların vüqarlı boyunu sevdim.
Analar evinə gəlin gətirdi,
Payızda qızların toyunu sevdim.
Vuruldum torpağa vurğun göylərə,
Axarlı göylərə, durğun göylərə.
Vətənə can dedim, anamı sevdim,
Atamı, qeyrəti, inamı sevdim.
Ellərin qəlbində məskən eyləyən,
Dənizi, dəryanı, ilhamı sevdim.
Sevirəm sözünü tutarmı dilim,
Bu qədər sevgini kim yaşadır, kim?
Sevincim, fərəhim dönməzmi yasa,
Bu torpaq, bu Vətən, bu yer olmasa!

**DODAQDƏYMƏZ**
**TƏCNİS**

Şair-aşıq, aylar qaldı arxada,
Yenə səni yar istədi, yar andı.
Canı candan ayırsa da ayrılıq,
Dedin çətin yaddan çıxar yar andı.

Yaralansa, qanlar axsa yaradan,
Sızlasa da yara səhər, yara dan.
Qayalarda Şirin əksi yaradan,
Eşqin səsi dağı-daşı yarandı.

Dilin yandı hər deyəndə yar, aşıq,
Sənətinə ellər aşıq, yar aşıq.
Sinən saza, sazın xalqa yaraşıq,
Adın-sanın elə həyan yarandı.

## OLUR

Ömür cavandırsa dünya şirindi,
Çiçəkdə həmişə təravət olur.
Günəşdən od alır gülüşlərimiz
Sevib-sevilirik məhəbbət olur.

Olsa da dünyanın yüz gözəlliyi,
Gözəldir hər şeyin öz gözəlliyi.
Ötərgi nemətdir üz gözəlliyi,
Könül gözəlliyi qiyamət olur.

## BABA HƏSRƏTİ

Qayası qartallı məğrur dağ oldun,
Şimşəkdən qoruya bilmədim səni.
Budaqdan asılan son yarpaq oldun,
Küləkdən qoruya bilmədim səni.

Xəbərin qəlbimi vurdu qanatdı,
Kədəri çiynimdən ata bilmədim.
Könlüm görüşünə yaman can atdı,
Heyif, sağlığına çata bilmədim.

Baxsan duruşuma, görməzsən daha
Bir zaman gördüyün şəvə saçları.
Sən köçüb gedəli yaman oxşayıb
Baba saçlarına nəvə saçları.

Həyatda yadigar qoyub getdiyin,
İzəm, nişanəyəm, ləpirəm, baba.
Həmişə əlindən öpərdim sənin,
İndi torpağından öpürəm, baba!

## MEYLİMİZ

Uçdu bir gün yuvasından quş kimi,
Sevdasına təzə düşdü meylimiz.
Qar görəndə zirvələri səslədi,
Gül görəndə düzə düşdü meylimiz.

Yaz havası layla kimi həzindi,
Əsən yeli saçımızda gəzindi.
Həvəs dedi, oylağında gəz indi,
Cığır tapdı, izə düşdü meylimiz.

Qüvvət aldı yüz sığaldan, naxışdan,
Endi dağdan, çıxdı neçə yoxuşdan.
Havalandı hər alovlu baxışdan,
Süzdü getdi, gözə düşdü meylimiz.

Əs, ey külək, nə durmusan, əs, dedi,
Həyatımdır hər duyduğum səs, dedi.
Nə göz doydu, nə də ürək bəs dedi,
Ocaq yandı, közə düşdü meylimiz.

İllər keçib, itirsək də çox sanı,
Arzuların yox hesabı, yox sanı.
Ömür gəlib haqlayanda doxsanı,
Dayanmadı, yüzə düşdü meylimiz.

## ƏLLƏRİN NƏĞMƏSİ

Sizə gülmü deyim, çiçəkmi deyim,
Gül yığan, gül açan, gül dərən əllər.
Qüdrəti insanı qanadlandırıb,
Əməli insanı güldürən əllər!

Sizə dilmi deyim, ürəkmi deyim,
Danışan, oynayan, oxuyan əllər!
İlmələr atanda nəğməyə dönüb,
Gəbələr, kilimlər toxuyan əllər!

Sizə tülmü deyim, ipəkmi deyim,
Qışda zərifləşən, incələn əllər!
Doqquz ay çöllərə meydan oxuyub,
Üç ay otaqlarda dincələn əllər!

Sizə əlmi deyim, ətəkmi deyim,
Tez-tez dolan əllər, boşalan əllər!
Dolusu hər yerdə bərəkət tapar,
Başı ucaldarmı boş olan əllər!

Sizə çölmü deyim, çörəkmi deyim,
Sünbülün saçını darayan əllər!
Ömrümün şöhrəti, gözümün nuru,
Elimə, günümə yarayan əllər!

## BİR İÇİM DEDİ

Çəmənlə, çiçəklə, çayla görüşdüm,
Biri gəz, biri dər, biri çim dedi.
Dağlar dilə gəldi, biz görüşməsək
Yüz çölü yandırar, bir içim, dedi.

Qaynadı, qarışdı aranım, dağım,
Dolaşdı düzləri səsim, sorağım.
Laləni öpəndə yandı dodağım,
Sərniyim, sulardan bir içim, dedi.

Nə dumanı gördüm, nə çənə düşdüm,
Yaşamaq eşqinə düşdüm, nə düşdüm.
Qaynar bulaqların sehrinə düşdüm,
Nemətdi bir qurtum, bir içim, dedi.

## VAR

Dağda da, düzdə də isinmək olar,
Demə, zirvələrdə buz nəfəsi var.
Yuvasız yurd, nəğməsiz diyar,
Hər yerin, hər yurdun öz nəfəsi var.

Rəngi oda çalar düşən yarpağın,
Kökündə atəş var saralan tağın.
Qarlı qışına bax qara torpağın,
Canında od eşqi, köz nəfəsi var.

Naxışdır hər ömrə daşı, qayası,
Təbiət özüdür şeirin mayası.
Yaşıl çəmənində gəlin həyası,
Zərif çiçəyində qız nəfəsi var.

## SAXLAYAR

Təbiətə bağlı qəlbi,
Dağ yaşadar, saxlayar.
Yer itirməz cığırları,
Sinəsində iz saxlayar.

Mətinliyi çatar dada,
Mərdliyini verməz bada.
Qoca palıd yıxılsa da,
Qamətini düz saxlayar.

Üşüyənə açar qucaq,
Alışar üz, gülər dodaq.
Qar da yağsa, əsil ocaq,
Kül altında köz saxlayar.

## HƏLƏ BU HARASIDIR

Versə ömrü zəhmətə,
İnsan qocalmaz dedim.
Yüz yol əkdim, becərdim,
Yenə azdır, az, dedim.
Payızına bərəkət,
Qışına da yaz dedim.
Bu qüdrəti vəsf elə,
Kökdən düşmə saz, dedim.
Torpağa məhəbbətim
Yerlə-göy arasıdır,
Hələ bu harasıdır.

Nəğmələrə dönəsi
Min kəndim, şəhərim var.
Zəfərlər tarixində,
9 may səhərim var.
Xoş arzular dalınca,
Nə qədər səfərim var.
Dünyanın işlərindən,
Mənim də xəbərim var.
Söz külüngüm dağ çapıb
Qayalar yarasıdır,
Hələ bu harasıdır.

Yurdumun hər parçası,
Varlığım, nəfəsimdir.
Çaylar gücüm, qüdrətim,
Bulaqlar həvəsimdir.
Uçan bulud xəyalım,
Çaxan şimşək səsimdir.

Günəşdən uca dursam,
Demərəm ki, bəsimdir.
Baxışım od yuvası,
Qəlbim od parasıdır,
Hələ bu harasıdır.

Desə, quş olmalısan,
Dağlarına qonaram.
Desə, daş olmalısan,
Yerimdəcə donaram.
Desə, köz olmalısan,
Mən köz olub yanaram.
Mən bu sədaqətimlə,
Ömrü ömür sanaram.
Vətən ki gözlərimin,
Ağıdır, qarasıdır,
Hələ bu harasıdır.

## VƏTƏN

Mən sənə – illər boyu
Eşqi ilə dindiyim,
Nurunda işıqlanıb
Oduna isindiyim,
Qarşısında diz çöküb
Səcdəsinə endiyim,
Ocaq kimi baxıram!

Mən sənə – yer, yatağı
Dağ-aranlı, binəli,
Başı ağır yığnaqlı,
Özü qaynar sinəli,
Şirin-şəkər nəğməli,
Tükənməz xəzinəli
Bulaq kimi baxıram!

Mən sənə – ağırlaşıb,
Yavaş-yavaş gərilən,
Çiçəyiylə, gülüylə,
Qədəmlərə sərilən,
Bol əlli, bol ətəkli,
Dərildikcə dərilən,
Budaq kimi baxıram!

Mən sənə içdiyim su,
Çəkdiyim nəfəs kimi.
Varlığımı yaşadan,
Ruh kimi, həvəs kimi,
Zirvələrə səsləyən,
Uğurlu bir səs kimi,
Soraq kimi baxıram!

Mən sənə – fəsil-fəsil
Gül açan, bar yetirən,
Qarlı qışın içində,
Nurlu bahar yetirən,
Hamıdan çox yaradan,
Hamıya var yetirən,
Torpaq kimi baxıram!

Mən sənə – döyüş günü
Düşündüyüm, andığım,
Başdan uca tutduğum,
Dağdan uca sandığım,
Şöhrətini, rəngini,
Qanımla qazandığım,
Bayraq kimi baxıram!

## OLMAZ

Azərbaycan torpağına heyranam,
Ondan ayrı bir sevincim beş olmaz.
Öz elini, obasını duyanda,
Hansı ürək havalanıb quş olmaz?

Üzə gülər düzü, dağı, meşəsi,
Qaynar bulaq ömrün, günün nəşəsi.
Havalanıb uçmaq olar peşəsi,
Belə yerdə könül dərdə tuş olmaz.

Qoy yandırsın gözlərində gur çıraq,
Könül, Vətən dağlarına yaxşı bax.
Belə yerdə kilidlənən dil, dodaq,
Belə yerdə düyünlənən qaş olmaz.

Dəniz gördüm, gəl qoynumda üz, dedi,
Zirvə gördüm, sal sinəmdə iz, dedi.
İnsan gördüm, yaşım olub yüz, dedi,
Bundan gözəl dövran olmaz, yaş olmaz.

Yaz gülünü, qış qarını sevməyən,
Kəpəzini, Qoşqarını sevməyən,
Bu torpağın vüqarını sevməyən,
El içində uca olmaz, baş olmaz.

Uzaq-uzaq mənzilləri haqladım,
Təmiz eşqi başdan uca saxladım.
Min el gəzdim, min bir çiçək qoxladım,
Burdan əziz torpaq olmaz, daş olmaz.

## ÜZÜMÜZÜ AĞ EYLƏDİN, QARA TORPAQ

Övladını ana belə sevindirər,
Aydan-aya, ildən-ilə sevindirər.
Salxımları dolu gilə sevindirər,
Oynayar əl, açılar qol, dolar qucaq,
Üzümüzü ağ eylədin, qara torpaq.

Zəfər dedik, durmağımız tezdən oldu,
Söhbətimiz dağdan oldu, düzdən oldu.
Bəhər verdi, bir sünbüldə yüz dən oldu,
Qanadlandı zəmilərdən gələn soraq,
Üzümüzü ağ eylədin, qara torpaq.

Oğulları coşqun gördü, zirək gördü,
Sinəmizdə Qoşqar boyda ürək gördü.
Süfrəmizdə tükənməyən çörək gördü,
Nemətinə heyran oldu gələn qonaq,
Üzümüzü ağ eylədin, qara torpaq.

Ulu Şirvan, geniş Muğan, qədim Bərdə,
Nəğmələrdə qalxıb endi pərdə-pərdə.
Bəxtəvərdi belə yurdda, belə yerdə,
Kəsilməz su, qurumaz çay, susmaz bulaq,
Üzümüzü ağ eylədin, qara torpaq.

Üzə gülən heyvadımı, ya nardımı?
Sənsiz belə şölə çəkib yanardımı?
Məhəbbəti olmasaydı, sınardımı –
Ağırlıqdan bar altında sındı budaq,
Üzümüzü ağ eylədin qara torpaq.
Bu yollarda yağış oldu, quraq oldu,

Hər qələbə gözdə yanan çıraq oldu.
Ağ qızılın ucalığı bir dağ oldu –
Qızıl əlin mükafatı qızıl bayraq!
Üzümüzü ağ eylədin, qara torpaq!

## OLAN YERDƏ

Dar cığırlar yola döndü,
İzimiz bir olan yerdə.
Əməlimiz çiçək açdı
Sözümüz bir olan yerdə.

Dəniz olduq, çay ummadıq,
Sanbal gəzdik, say ummadıq.
Özgələrdən pay ummadıq,
Özümüz bir olan yerdə.

Haya çatdı harayımız,
Uçulmadı sarayımız.
Qafurumuz, Gərayımız,
Həzimiz bir olan yerdə.

Xəyal göydən enməz oldu,
İnam yoldan dönməz oldu.
Ocağımız sönməz oldu,
Közümüz bir olan yerdə.

Qəlbimizi köz eylədik,
Neylədiksə düz eylədik.
Azmı, biri yüz eylədik,
Yüzümüz bir olan yerdə?

## ƏLİM QƏLƏM TANIMAZDI

Bu torpağın övladıyam,
Bu torpağa qurban olum.
Yaşıl düzə könül verim,
Qarlı dağa qurban olum.
Bir Vətənin eşqi ilə,
Min bir dəfə Vətən üçün
Oda düşsə canım, azdı.
Azərbaycan deyən zaman
Qətrə-qətrə alovlanım,
Gilə-gilə yanım, azdı.
Bu arzular olmasaydı,
Dilim kəlmə, gözüm işıq,
Əlim qələm tanımazdı.

# QARABAĞ ŞİKƏSTƏSİ

Bahar fəsli, yaz ayı,
Ömrün oğlan çağıdır.
Bu nəğmənin vətəni
Şahinlər oylağıdır.
Qəhqəhəsi tükənməz,
Qaynar səs bulağıdır.
Zirvələrə səsləyir,
Duya bilən hər kəsi, –
Qarabağ şikəstəsi.

Qələbəm, zəfərimdi,
Qəhrəmanlıq rəngidir.
Arxalanıb dağlara,
Çayların ahəngidir.
Mahnıların başında,
Bir şöhrət çələngidir.
Xalqımızın gur səsi,
Qarabağ şikəstəsi.

Bu avazda yurdumun
Söhbəti var, dəmi var.
Bircə şirin xalında
Min sevinci, qəmi var.
Döyüşə cəsarəti,
Yaraya məlhəmi var.
Yatmaz, ayağa qalxar,
Ayın, ilin xəstəsi.
Oxunanda yanında
Qarabağ şikəstəsi.

Titrəyən bir ürəkdir,
Teli yara bağlıdır.
Zirvələrdi məskəni,
Meyli qara bağlıdır.
Bir diyarın eşqidir,
Min diyara bağlıdır.
Göydə qanad saxlayar,
Durnaların dəstəsi,
Çatanda qulağına
Qarabağ şikəstəsi.

## DÖNƏSİYƏM

Mən ki belə vurğunuydum bu torpağın,
Dağlarında yaz mehinə dönəsiyəm.
Nə zamansa damlalara qarışası,
Gül ətrinə, gül mehinə dönəsiyəm.

Doğma olan bir nəfəsə qovuşanda,
Könül eşqə, can həvəsə qovuşanda,
Coşa gəlib səsim səsə qovuşanda
Bir bülbülün cəh-cəhinə dönəsiyəm.

Yağış olub yer üzünə yağa bilsəm,
Torpaq olub Günəş nuru saça bilsəm,
Ulduz olub dan yerindən doğa bilsəm,
Yerin-göyün fərəhinə dönəsiyəm.

## İKİ SÖZÜN DÜŞMƏNİ

Babam vardı, kişilərin naxışı,
Gur ocaqdan od almışdı baxışı.
Yordu neçə sıldırımı, yoxuşu,
Nə yoruldum, nə də doydum demədi.

Can verərdi bulağa can, arxa can,
Sevinərdi dolu gəlsə arx haçan.
Külüng çalan, daş qaldıran, arx açan,
Nə yoruldum, nə də doydum demədi.

Deyərdin ki, qızılquşdan zirəkdi,
Çəkinmədi qardı, yoxsa küləkdi.
Bağça saldı, bağ becərdi, gül əkdi,
Nə yoruldum, nə də doydum demədi.

Əl günəşdən, ayaq yerdən isindi,
Sifət nurdan, alın tərdən isindi.
Göz işıqdan, can hünərdən isindi,
Nə yoruldum, nə də doydum demədi.

Torpaq saray, o sarayın bənnası,
Torpaq oldu istəklisi, anası.
Torpaq oldu həyatının mənası,
Nə yoruldum, nə də doydum demədi.

Övlad bildi hər ağacı bağında,
Qonaq etdi toxu, acı bağında.
Qurdu qızıl taxtı, tacı bağında,
Nə yoruldum, nə də doydum demədi.

Yüzü keçdi, azalmadı həvəsi,
Zəhmət ilə getdi-gəldi nəfəsi.
Yorulsa da oğlu, qızı, nəvəsi,
Nə yoruldum, nə də doydum demədi.

Saf əməldən qüvvət aldı, güc aldı,
Gözlərimdə ucaldıqca ucaldı.
Yaşa doldu, xəstələndi, qocaldı,
Nə yoruldum, nə də doydum demədi.

İllər gəldi, yavaş-yavaş sovuşdu,
Ovçusuna könül verdi, ov uçdu.
Torpaq dedi, anasına  qovuşdu,
Nə yoruldum, nə də doydum demədi!

## UCALIQ HEYKƏLİ

*(Hacımurad dayımın dediklərindən)*

Uçmaq istəyirsən, arzuya alqış,
Güc ver güvəndiyin qanadına sən.
Yaxın buraxmasa qoynuna səni,
Baxma zirvələrin inadına sən.
Bisütuna dönsə hər duman qatı,
Çevril əqidənin Fərhadına sən!
Eşqinlə ucalıq heykəli yarat
Xalqına, elinə, övladına sən!

## ONDA ÖLMÜŞ BİL MƏNİ

Axar çaya dönməsə
Məhəbbətim, həvəsim.
Zirvələrin qarını
Əritməsə nəfəsim,
Özünə tay bilməsə
Ocaq məni, kül məni,
Onda ölmüş bil məni.

Dodaqlarda gül açıb,
Dillərdə oxunmasa,
Sözüm ürəkdən gəlib,
Xalıtək toxunmasa,
Yersiz işləmiş olsam
Bir naxışı, ilməni,
Onda ölmüş bil məni.

Hava üstə köklənib,
Saz eşqinə ötməsəm,
İstəyimə qovuşub,
Diləyimə yetməsəm,
Özündən ayrı salsa
Mizrab məni, tel məni,
Onda ölmüş bil məni.

Vətən, könül sərvətin,
Könül varın olmasam,
Nəğmələrə çevrilən
Nəğməkarın olmasam,
Dəftərindən qarala,
Yaddaşından sil məni, –
Onda ölmüş bil məni,
Onda ölmüş bil məni.

## ƏSGƏR QARDAŞIM

*Çingizə məktub*

Dünən sinə gərdi atan düşmənə,
Bu günə sinəni sən gər, qardaşım!
Vurulan yaralar heç sağalmayıb,
Qanlı-qadalıdı səngər, qardaşım!

Mən qardaş demərəm sənə ürəkdən,
Hər gün ayıq gəzib, sayıq olmasan.
Cavanşir elinə, Babək yurduna,
Həzi torpağına layiq olmasan!

Uzaq sahillərdə keçsə də ömrü,
Mehdi xəyalından uzaq olmasın.
Cəmili xatırla, Mərdanı düşün,
Kök varsa, mümkünmü budaq olmasın?!

Analar cəbhəyə məktub yazanda,
"Susdurun, durmasın yağılar!" – dedi.
"Zalımın sarayı, zülmün binası
Haqqın əlləriylə dağılar", – dedi.

Oğullar and içdi al bayraqlara,
Fürsəti yağıya, yada vermədi.
Milyonlar ömrünü bada versə də,
Qeyrəti, şərəfi bada vermədi.

Vətən o vətəndi, torpaq o torpaq,
Bir sözün mənası sənə bəs olsun!
Onun hər qarışı qoy səndən ötrü,
Daha da müqəddəs, müqəddəs olsun!

Sülhün keşiyində dayanan əsgər,
Önə bax, çəkilmə bir addım geri.
Qoru gözün kimi, bəbəyin kimi,
Baxdığın səmanı, gəzdiyin yeri.

Ağlın kəsə-kəsə, göz görə-görə,
Dünya neçə dəfə yanıb, son olub.
Birinci gülləni səpiblər yerə,
Cücərib bəhrəsi neytron olub.

Əsrin, insanlığın səadətini
İtirmək asandır, qazanmaq çətin.
Əsgər şərəfini qorumaq gərək,
Həm ağlın işləsin, həm cəsarətin!

Bir də alışmasın dilsiz körpələr,
Düşün Buhenvaldı, düşün Xatını.
Bu torpaq güc versin biləklərinə,
Möhkəm sıx döşünə avtomatını!

## İSTƏK

Payızın son ayı çıxaçıxdadı,
Dağların başına daha qar düşüb.
Mənimsə könlümə hayda-həşirdə
Sevinci sayrışan bir bahar düşüb.

Sözüm təbiətə ağır gəlməsin,
Elə bilməsin ki, daşam, dəmirəm.
Ətri xoş olsa da gülün, çiçəyin,
Tək çöldə açılan yaz istəmirəm.

Əlləşir, vuruşur ölümlə, qanla,
Ölkə var, həyatı bu gün dardadı.
Yaralı qəlbindən bir sual qopur: –
“Bəs mənim ömrümün yazı hardadır?”

Bahar istəyirəm, o millətlərə
Bir zəfər çələngi toxudan olsun.
Tək bülbül nəğməsi bəs deyil mənə,
Daşa da dil verib oxudan olsun.

Bahar istəyirəm, bu istək üçün,
Qalın dumanları yaran quş ollam.
Göyərçin istəyən bütün əllərə
Bahar müjdəçisi qaranquş ollam.

# SƏS

Səs gözəldir, nəğmə şirin,
İstəmirəm bu dünyada,
Bircə anlıq sükut ola!
Səs də var ki,
Heç eşitmək istəmirəm.
İstəyirəm,
Dünya bir az sakit ola!
İstəmirəm dəhşətiylə,
Qulaqları dələn səsi.
İstəyirəm nəğmə kimi,
Könüllərdən gələn səsi.
Şəlalənin hönkürtüsü,
Qanadlanıb dağdan gələr.
Bayquş səsi viranədən,
Bülbül səsi bağdan gələr.
Can atanlar fürsət gəzir,
İnsanlığın ürəyini,
Qanadanlar fürsət gəzir.
Səadətin bayrağını endirməyə,
Yer üzünün çırağını söndürməyə,
Ürəyində kin-küdurət,
Gözlərində nifrət gəzir.
Öz sərvəti ola-ola,
Özgələrin hesabına
Göydən düşmə sərvət gəzir.
Hitler hələ dərs olmayıb,
Sadatlara, Beginlərə!
Berlin hələ ər olmayıb,
"Ağ ev"lərə, "Pekin"lərə!
Arxalanıb qol zoruna
Yara vurur ürəklərə,

Qan sızdırır beyinlərə!
Düşündürmür caniləri,
Nə Buhenvald, nə də Xatın.
"Uf" da deməz bircə dəfə
Nuru sönsə Kainatın!
İşə salır mədəsini,
Udmaq üçün ölkələri.
Aya, Günə əli çatmır,
Qılınclayır kölgələri.
Ağlı kəsir, gözü görür,
Neyləyəsən, qəlbi yoxdur.
Duya bilmir bircə dəfə,
Sağalmamış yaraları,
Silinməmiş ləkələri.
Cahillər var, iştahalı,
Qatillər var, şöhrətpərəst.
Qəsd eləyir dönə-dönə,
Nəsillərin canına qəsd.
İstəkləri, arzuları,
Güllə səsi, mərmi səsi.
Naqasaki onlar üçün,
Təbiətin ən səfalı guşəsidir,
Ən maraqlı mənzərəsi.
Qoy süzülsün ürəklərə,
Ana səsi, layla səsi.
Bu laylanı yaşatmaqdır,
İnsanlığın ən müqəddəs
vəzifəsi!
Səs gözəldir, nəğmə şirin,
İstəmirəm bu dünyada
Bircə anlıq sükut ola!
Səs də var ki,
Heç eşitmək istəmirəm.
İstəyirəm,
Dünya bir az sakit ola!

## DÖRDLÜKLƏR

Vurnuxma, dayazda tapılmaz inci,
Fikir dərindədir, söz dərindədir.
İllərlə gəzdiyin dərinlik ki var,
Sevdiyin gözəlin gözlərindədir.

***

Ey kədər, yumşalan deyiləm, inan,
Sən dəyirman daşı, mən bir dən olsam.
Təzə deyilsən ki, könül xam düşə,
Çoxdan üyünərdim, üyünən olsam.

***

Şair, ağrıları at ürəyindən,
Dağların ruhuna, sağlığına bax.
Ətəkdə çəmənin yaşıllığına,
Zirvədə buludun ağlığına bax.

***

Ömrümdə acı bir söz çıxmaz əsla dilimdən,
Şirin zarafatımdan küssən, yandırar məni.
Yandırsan da qoy yanım sevincinin oduna,
Kədərindən qorxuram, qüssən yandırar məni.

***

Versin öz meylini həzin bir səsə,
Torpağın qəlbinə, sözünə baxsın.
Kim yerin eşqini duymaq istəsə,
Qaynar bulaqların gözünə baxsın.

İnsan darıxanda həmdəm axtarır,
Ona lazım olan hava, su kimi.
Sərinlik istəyir sinədə ürək,
Havalı dağların havası kimi.

***

Əməldə yüz yerə parçalanma sən,
Könül, özün kimi tam olmalısan.
Bir xalqa işıqlı ulduz olmasan,
Bir evdə əriyən şam olmalısan.

***

Fikirli gecənin qara saçına,
Ulduzun nurundan sanki dən düşüb.
Yerdəki işıqlar pul-pul olubdur,
Günəşmi göylərin əlindən düşüb...

***

Qılınca, qalxana baxır gözlərim,
Yoğrulub onların mayası qanla.
Bu necə hikmətdir, yan-yana durub,
Baş kəsən qonşudu baş qoruyanla.

***

Sənsizəm, dünyanı veriblər mənə,
Nə qədər gəzirəm eynim açılmır.
Ürəyim Əslinin düymələri tək
Tilsimə düşübdü, neylim, açılmır.

***

Hər kəs keçə bilməz Kür kimi sudan,
Kür oğul baş açar kür kimi sudan.
Əl-qolun nə xeyri, üzə bilməsən,
Mən necə çıxarım kürkümü sudan?!

Haldan-hala düşər bir anda ürək,
Gah gülər, gah da ki, kədərlənərmiş.
Sünbül saralanda sevinən könül,
Çiçək saralanda qəhərlənərmiş.

***

Yarıma gəlməsin yarım, azarım,
Gəlsə, tez qocaldar yarı, məzarım.
Həyat da, ölüm də yoldaşdır mənə,
Yarı beşiyimdir, yarı məzarım.

***

Ruhuma yad deyil nə yağış, nə qar,
Günəşdir ən böyük dövlətim, varım.
Torpağın borcunu qaytarmaq olar,
Günəşin borcunu necə qaytarım?!

***

Onsuz titrəməzmi əldə qələmim,
Ana dənizimsə, ata dağımdı.
Ən böyük fərəhim, sevincim mənim,
Dünyada atalı yaşamağımdı.

***

Yar şeir yazdığım varağı sevdi,
Dedim var qarası, var ağı, sevdi.
Qara mürəkkəbdə, yaşıl varaqda
Dedi ki, bəxtimin var ağı, sevdi.

***

Ömrümdə bir dəfə olmazdı dərdim,
Sevdiyim sevgiyə yaraşa bilsə.
Vüsal yollarına çiçək səpərdim,
Hicran dağlarını yar aşa bilsə.

Əriyən qar deyim saçın ağına,
Sel olub, bənzəyir saçın axına.
Ay nənə, dumanlı gözünə qurban,
Nə gözəl yaraşır saçına xına.

***

Sınağa çəkəsən ağıldan yarı,
Tam ola, olmaya ağıldan yarı.
Deyəsən, gözəlim, uyma sərvətə,
Dünyada kamaldan, ağıldan yarı!

***

Nə yaman tez tapdı yarım, azarı,
Qarğadı, kim dedi yarıma, zarı.
Bəlkə, bu dünyada günahkar mənəm,
Mənimtək çiçəkdən yarımaz arı.

***

Hönkürdü buludu, çökdü dumanı,
Təbiət kövrəldi, qəlbim qəm çəkər.
Elə ki, gözlərim gördü günəşi,
Sevinc dərd üstündən bir qələm çəkər.

***

Könlümə, ruhuma işıq çiləndi,
Göründü gözümə yenə dan yeri.
Öpdüm öz ömrümün oğlan çağında
Bir qız yanağıtək qızaran yeri.

***

Qaranlıq olardı evim-eşiyim,
Didərdi qəlbimi kədər, qəm mənim.
Günəşin üzünə açılmasaydı,
Könlümün aynası – pəncərəm mənim.

Ürəyimdə gur bir ocaq çatmısan,
Gündüz yanar, gecə yanar, ey Vətən.
Sənin eşqin, sənin odun olmasa,
Şair qəlbi necə yanar, ey Vətən.

***

Yandırsın canımı çaldığın hava,
Kərəmin ağzından çıxan ah kimi.
Əlli il taxtaya, simə döyüncə
Bircə gün sazını çal, Əmrah kimi.

## QAR YAĞA-YAĞA

*"Qar yağa-yağa" şeirinin müəllifi Gürcüstanın əməkdar müəllimi Rəşid Acalova həsr edirəm*

Səni düşünürdüm, el ağsaqqalı,
Baxırdım budağa, qar yağa-yağa.
Həzin nəğmələrin axdı könlümə,
Söz qondu dodağa, qar yağa-yağa.

Ömür sınağı var, yaş sınağı var,
Torpaq imtahanı, daş sınağı var.
Gördüm ki, qarşıda qış sınağı var,
Girmədim otağa, qar yağa-yağa.

Fikrimi şaxtaya, sazağa verdim,
Meylimi yaxına, uzağa verdim.
Qəlbimin odunu torpağa verdim,
Baxdım hər oylağa, qar yağa-yağa.

Məhəbbət yenə də dadıma gəldi,
Lələ də, Kərəm də yadıma gəldi.
Üşüyən istimə, oduma gəldi,
Döndüm bir ocağa, qar yağa-yağa.

İlham ən müqəddəs nemətdi, paydı,
O mənim səsimi aləmə yaydı.
Sinəmi yandıran söz olmasaydı,
Dönməzdim bulağa, qar yağa-yağa.

Dilimdən söz yağdı, sözümdən ətir,
Dedi hər şeirinə təravət gətir.
Könlümdən keçəni sətirbəsətir,
Köçürdüm varağa, qar yağa-yağa.

## QUZUKƏND

Kəndi çoxdu Ağbabanın,
Heyranıyam Quzukəndin.
Yaraşıqdı el-obaya
Neçə oğlu, qızı, kəndin.

Çiçək açar solu, sağı,
Gül ətri var, gül yanağı.
Qışda gəlsə bir qonağı,
Selə dönər buzu, kəndin.

Yollarına yağsa da qar,
Eşqi mənə yollar açar.
Dodağımda nəğməsi var,
Ürəyimdə izi, kəndin.

Dolansa da il üstən il,
Gözdə nurdu, ağızda dil.
Xəyalımdan çıxan deyil,
Dadı, tamı, duzu, kəndin.

## YARAŞSIN

Emin dayı, boz atını yəhərlə,
Tüfəng ələ, qatar belə yaraşsın.
Dağ küləyi çağıranda yarışa,
Dəli köhlən əsən yelə yaraşsın.

Dünya gözəl, göylər təmiz, hava xoş,
Bu dağların cəlalına nəğmə qoş.
Elə kükrə, elə çağla, elə coş,
Ömrün-günün axan selə yaraşsın.

Üzün gülsün çiçəkləri üzəndə,
Oğlan kimi dolan dağda, düzəndə.
Əsli deyib diyar-diyar gəzəndə,
Xan Kərəmə gərək Lələ yaraşsın.

Sən tanışsan çəhlimlərə, izlərə,
Təbiətdən töhfə göndər bizlərə.
Ovçuluğun bu ceyranlı düzlərə,
İgidliyin bizim elə yaraşsın.

Oylağındı Qurudərə, Qarasu,
Şişdağ mehi hər ağrının çarası.
Güləverdi gözlərinin qarası,
Qoy bu nəğmə həmin elə yaraşsın.

Demə köçüb uzaq yerə, yad elə,
Hər söhbətdə Zəlimxanı yad elə.
Bu şeirimi damağında dad elə,
Dil nəğməyə, nəğmə dilə yaraşsın.

## MARXALI GÖRDÜM

Fərəhdən sinəmə sığmadı qəlbim,
Dağları vüqarlı, arxalı gördüm.
Qışın yadigarı, yazın bəzəyi,
Zirvədə nişanə qar xalı, gördüm.

Dedilər çəkinmə, dər çiçəyini,
Öpdüm, əzizlədim hər çiçəyini.
Yarıma bənzətdim tər çiçəyini,
Bütün baxışlarda var xalı, gördüm.

Tərpənsin küləyi, dağılsın saçı,
Ay dost, bu yerlərin acıyam, acı.
Desən gözəlliyin hardadır tacı,
Deyərəm Şəkidə Marxalı gördüm.

## YAŞAYIR

Könül gündə bir havanın vurğunu,
Həmi zildə, həmi bəmdə yaşayır.
Aydınlığa, qaranlığa baş vurur,
Gah fərəhlə, gah da qəmlə yaşayır.

Düşür oda, dönür gözə ilhamım,
İşıq verir qəlbə, gözə ilhamım.
Nə zaman ki, baxmır sözə ilhamım,
Yanaq yaşda, kirpik nəmdə yaşayır.

Söz qəlbində cərgələnir, səf çəkir,
Bir arıdı, öz balını saf çəkir.
"Dərdi alır, qəmi satır, kef çəkir",
Görün şair nə aləmdə yaşayır.

## GÖZƏLDİ

Bol payızın əldən gedən vaxtıdı,
Barlı bağlar başdan-başa xəzəldi.
Torpaq elə həzinləşib, kövrəlib,
Deyirsən ki, bayatıdı, qəzəldi.

Dəli yellər haray salıb əssə də,
Qar qalanıb qapımızı kəssə də,
Könül bəzən təbiətdən küssə də,
Dünya yenə gözəldi ki, gözəldi.

## YETİRMƏSİYƏM

Bir ovuc torpağın, bir qurtum suyun,
Bir əsim küləyin yetirməsiyəm.
Bir əlçim buludun, bir udum mehin,
Bir çaxım şimşəyin yetirməsiyəm.

Sevib baharımı, duyub yazımı,
El özü kökləyib ötən sazımı.
Tarla da, zəmi də çəkib nazımı,
Sünbülün, çörəyin yetirməsiyəm.

Süzülüb könlümə nə qədər bulaq,
Gözündən od verib hər yanan ocaq.
Arzular qol açıb, qayğılar qucaq,
Bir şirin diləyin yetirməsiyəm.

İstərəm günəştək alışam, yanam,
Ömrü bu yanğıya bəxtəvər sanam.
Ürəkdir Allahım, ürəkdir anam,
Ürəyin, ürəyin yetirməsiyəm.

## ELƏMİŞDİ

Çıxanda seyrinə doğma yurdumun,
Dünya sevincini bol eyləmişdi.
Çətin dolayları, dar cığırları
Önümdə ən geniş yol eyləmişdi.

Bu torpaq könlümə sirdaşdı, yardı,
Fikrimi düzənlər çəkib apardı.
Çəmənin çiçəkdən qaynağı vardı,
Bulaqlar suyunu bal eyləmişdi.

Təkdi, əvəzsizdi dözümdə dağlar,
Mayadı şeirimdə, sözümdə dağlar.
Gözələ dönmüşdü gözümdə dağlar,
Buludu başında şal eyləmişdi.

Zəmi bərəkəti, sünbüllər dadı,
Ömrümə naxışdı hər gülün adı.
Dinib danışmağa gücüm çatmadı,
Gözəllik dilimi lal eyləmişdi.

Bülbülü ağladar gülün həsrəti,
Mizrabı yandırar telin həsrəti.
Bu görüş olmasa, elin həsrəti
Çoxdan saçlarımı çal eyləmişdi.

Nədir bu gözəllik, nədir bu hikmət,
Gözümə nur verdi, qoluma qüvvət.
Şair övladını ana təbiət,
Rüstəmə döndərib Zal eyləmişdi.

## AYRI

Dönə-dönə tutdu məni söhbətə,
Çəhlim ayrı, cığır ayrı, iz ayrı.
Könül verdim, hər birinə can dedim,
Eniş ayrı, yoxuş ayrı, düz ayrı.

Qanad taxtı əsən mehdən, küləkdən,
Nəğmə dindi, şeir gəldi ürəkdən.
Öpən kimi ləzzət aldı çiçəkdən
Dodaq ayrı, baxış ayrı, göz ayrı.

Təbiətin hökmü nədir, gücü nə?
Gözəlliyin gücünə bax, gücünə!
Bir canım var, qurban olsun üçünə,
Günəş ayrı, ocaq ayrı, köz ayrı.

Sərinlənər zirvələrdən qar alan,
Qocalarmı sevib burda yar alan.
Oğulsansa, bu görüşdən aralan,
Yaşa ayrı, dayan ayrı, döz ayrı!

## GÖRDÜM

Yaz ötüb, payız keçib,
Atamı qışda gördüm.
Vədəsiz yağan qarı,
Kirpikdə, qaşda gördüm.

Gözü çəndə, dumanda,
Dili ahda, amanda.
Ömrü axır zamanda,
Könlü təlaşda gördüm.

Aylar niyə tələsdi,
İllərin nəydi qəsdi?!
Əllər titrədi, əsdi,
Günahı yaşda gördüm.

## KÖNLÜMÜ

Təbiətlə tutdu sözüm, söhbətim,
Verdim yaşıl yaylasına könlümü.
Ana qartal məndən ürək istədi,
Bağışladım balasına könlümü.

Taleyimin naxışıdı, xalıdı,
Ana torpaq istəyimdən halıdı.
Vətən yurdu bir bəzəkli xalıdı,
İlmə bildim xalısına könlümü.

Arzularım neçə mənzil haqladı,
Bulaq kimi göz-göz oldu, çağladı.
Dodaqaltı zümzümələr bağladı,
Anaların laylasına könlümü.

Sirdaş olub mənə dağ da, aran da,
Bərkimişəm qar-yağışda, boranda.
Yeri gəlsə, döndərərəm bir anda
Bu torpağın qalasına könlümü.

## NAĞIL

Elə bil ki, heç dünyada yoxuymuş,
Həqiqət yox, əfsanəymiş, yuxuymuş,
Qədimlərə səpələnmiş, dağılmış,
Milyard illik bir yol keçən nağılmış.
Köklərini yerli-dibli qoparıb,
Neçə bağdan neçə bağban aparıb.
Əcəlin də şirə qalıb dişində,
Dünya yenə işindədir, işində!
Elin-günün hər işinə yar olan,
Sifəti nur, saç-saqqalı qar olan,
Ömrü-günü ömürlərə calanmış,
Bir insanın var olmağı yalanmış.
Öz əliylə becərdiyi, əkdiyi,
Gündə yüz yol qayğısını çəkdiyi,
Ağaclar var, meyvəsini dərən yox,
Budaqlar var, qoltuğuna girən yox.
Bir çiçək var, çəkən gərək nazını,
Bir könül var, çalan gərək sazını.
Bir nəvə var, babasını haraylar,
Dilindədir hər həftələr, hər aylar.
Ürəyindən, ağlından danışar,
Baba adlı nağılından danışar.
Sona çatan, bitən deyil bu nağıl,
Ötən deyil, itən deyil bu nağıl.

## QALIBDI

*Dağların Lələ çobanı*
*Qamoy Alıya həsr edirəm*

Dağdan ayrılmağın dərd olub cana,
Yaylağın həsrəti mənə qalıbdı.
Yamaclar sürüyə, yallar çobana,
Zirvələr dumana, çənə qalıbdı.

Bağlıyam torpağa, vurğunam göyə,
Heyranam quzunu qaytaran neyə.
Neçə görmədiyim alaçıq, dəyə,
Neçə gəzmədiyim binə qalıbdı.

Sən gəzdiyin yerdə ürəyim durur,
Hər bulaq başında bir məclis qurur.
Hələ mələməmiş quzular durur,
Hələ boşalmamış sinə qalıbdı.

Əhdimiz, sözümüz yaddan çıxmasın,
İntizar can üzüb, könül sıxmasın.
Tapşır o yerlərə qoy darıxmasın,
Görüşüm sən deyən günə qalıbdı.

Sənsən Zəlimxanın fikri, xəyalı,
Hər gün qədəminə döşənsin xalı.
Dağları tək qoyma, ay Qamoy Alı,
Dağların ümidi sənə qalıbdı.

## UCALMASAYDI

Dağlara baxanda qanadlanıram,
Həyat gözlərimdə gülür yaz kimi.
Koroğlu zirvələr öpür alnımı,
Səfərdən qayıdan xan Eyvaz kimi.

Bu məğrur qayalar, bu uca dağlar,
Ana təbiətin verdiyi paydı.
Zirvələr özünü yetim sayardı,
İnsan o yerlərə ucalmasaydı.

## ÇIXAR

Şimşək buludların son qərarıdır,
Şübhədən sıyrılar, gümandan çıxar.
Yandırar bağrını ana torpağın,
Havalı ox olub kamandan çıxar.

Sellər qeyzə gələr, qayalar sökər,
Dağların gözünə qaranlıq çökər.
Gah yağış yağdırar, gah dolu tökər,
Nə çıxsa həmişə dumandan çıxar.

## DOST

Yaxşılar içində keçəndə ömrün,
Həyat şirin olar, xoş görünərmiş.
Yanında olmasa istədiyin dost,
Dünyanın bir yanı boş görünərmiş.

Ömrün mənasıdı, qəlbin həmdəmi,
Ana da, bacı da, yar da gözəldi.
Təkliyin üzünü görəndə bildim,
Dost harda şirindi, harda gözəldi.

Qüdrətim olsaydı istədiyim tək,
Eşqinə ölümsüz dastan deyərdim.
Soyumazdı ürək, yorulmazdı dil,
Min il ömrüm olsa, dostdan deyərdim.

## GÖZÜMÜN ÜSTƏ

Ana, məhəbbətin ocağa dönsə,
Gözünü saxlaram gözümün üstə.
Qoymaram bircə gün çatıla qaşlar,
Gözünü saxlaram gözümün üstə.

Ürəyim eşqinlə doludur, dolu,
Dəyməz bu sevgiyə nə qar, nə dolu.
Öpərəm hər axşam keçdiyin yolu,
İzini saxlaram gözümün üstə.

Sən ki bağbanısan körpə güllərin,
Qəm yemə, ağarsa qara tellərin.
Yetmişi, səksəni azdır illərin,
Yüzünü saxlaram gözümün üstə.

## NATƏVAN

Nəğməsini, söhbətini, sözünü,
El-obanın dodağında görmüşəm.
Könüllərə axıb dolan eşqini
"Xan qızının bulağı"nda görmüşəm.

Hər insana qismət olan şey deyil,
"Ölürəm" de, ölməz yaşa dünyada.
Ucalıqda, əzəmətdə, vüqarda,
Dağlar ilə ver baş-başa dünyada.

Zaman əli neçə saray dağıdıb,
Nə özülü, nə tavanı qalıbdı.
Baxışda da, ürəkdə də, gözdə də
Qarabağın Natəvanı qalıbdı.

## O DA BİR GÜN İDİ...

Açdı qucağını fəsillər bizə,
Ömrə könül verib yaşa vurulduq.
Ayrılıq olmadı istəyimizdə,
Nəyə vurulduqsa qoşa vurulduq.
Bulud nə gəzirdi başımız üstə,
Üfüq başdan-başa yanan zər idi.
Yer göyə can deyib can eşidirdi,
O da bir gün idi, bir səhər idi.

Təzəcə açmışdı qönçə arzular,
Yenicə gəlmişdi yazı dünyanın.
Şehlə öpüşəndə gül dodaqların,
Nazına çatmazdı nazı dünyanın.
Təzəcə qəlbimiz, ruhumuz kimi
Çəmənlər, çiçəklər təzə-tər idi.
Getməz qulağımdan suların səsi,
O da bir gün idi, bir səhər idi.

Onda tanımırdıq giley-güzarı,
Qulağım çox sözü eşitməmişdi.
Səni biganəlik, məni soyuqluq,
O zaman bir belə üşütməmişdi.
Dildən od yağırdı, gözdən qığılcım,
Ürək də qurulu bir şəhər idi.
Qaynar gözlərinə bulaq demişdim,
O da bir gün idi, bir səhər idi.

Güləndə üzümə nurlu baxışlar,
Dünya xəyalımda çiçəklənirdi.
Damcılar titrəşir, yağışlar yağır,

Dağlar da, düzlər də göyçəklənirdi.
Bulaqlar deyildi elə çağlayan,
Sənin oxuduğun nəğmələr idi.
Həsəd aparırdı bülbüllər bizə,
O da bir gün idi, bir səhər idi.

Elə uzaqlaşıb, elə yadlaşıb,
Duymaz işarəni əl eyləsək də.
Əli əlimizdən üzülüb gedib,
Gələrmi yaxına gəl eyləsək də.
Dənizdə yox olan bir damla kimi,
İllərin qoynunda itdi, əridi.
Yatsam da bir daha yuxuma girməz,
O da bir gün idi, bir səhər idi.

O anlar, saatlar sirdaşa dönüb,
Yaşayar mənimlə son ana qədər.
Beyində fikirlər, gözdə arzular,
Ürəkdə duyğular sönənə qədər.
Tək onu deyərəm son nəfəsimdə,
O, məni yaşadan bir əsər idi.
Bir anım, bir günüm, əbədiyyətim,
O da bir gün idi, bir səhər idi.

## HƏR ÜÇÜMÜZ

Ürək məni sizin evə gətirən zaman,
Payız fəsli, xoş havalı bir axşam idi.
Hardan desək toy sözünün üstə gəlirdik,
El-obatək könlümüzdə toy-bayram idi.

Saat gəlib neçə olub, neçə bilmədik,
Bircə sözdən həyəcansız keçə bilmədik.
Necə gəldi, necə getdi gecə, bilmədik,
Bizi belə alışdıran arzu-kam idi.

Təbiət də lap olmuşdu şair xəyallı,
Oxşayırdı könlümüzü yaşıllı, allı.
Eşq o anda süzülürdü şəkərli, ballı,
İçən oğul istəyirdi, dolu cam idi.

Unutmaram o gecəni, o əziz anı,
Ulduz kimi arzuların yox idi sanı.
Hər üçümüz bir istəyə vermişdik canı,
Danışan mən, alışan sən, yanan şam idi.

## BİRCƏ DƏFƏ BAXSANA

Bezmisənmi dünyadan,
Yoxsa gözün toxdumu.
Meylin yoxdu, neyləyim,
İnsafın da yoxdumu?
Səni Allah bilənə,
Bir nəzərin çoxdumu?
Qaynar bulağa dönüb
Süzülsənə, axsana,
Kirpiyini qaldırıb
Bircə dəfə baxsana.

Nə arada pıçıltı,
Nə qeybət, him-cim oldu.
Səndən ötrü ürəyim
Titrəyən bir sim oldu.
O simi inildədən
Gör axırda kim oldu.
Gözmü dəydi gözünə,
Qarğadımı haqq sənə,
Kirpiyini qaldırıb
Bircə dəfə baxsana.

Gözlərin həyat verər,
Üstə gül bitər daşın.
Öldürməksə məqsədin,
Daşın, fikrindən daşın.
Qalın buludlar kimi
Niyə çatılıb qaşın?
Həsrətimə od vurub
Şimşək olub çaxsana,
Kirpiyini qaldırıb
Bircə dəfə baxsana.

Mən sənə sinəm üstə,
Dil-dil ötən saz dedim.
İlk görüş qışa düşdü,
Taleyimə yaz dedim.
Yüz il yara can desəm,
Yenə azdı, az dedim.
Arzum, eşqim, xəyalım,
Ah! Nə deyim ah, sənə!
Ağrıyarmı gözlərin,
Bircə dəfə baxsana.

## OLA

Eh, əzizim, toy vurula,
Sizə doğru axın ola.
Fərəh desəm, yaradasan,
Qəm istəsən, yoxun ola.

Yandırasan, yana adam,
Köz dişləyəm, alov dadam.
Sən yatasan, mən oyadam,
Baldan şirin yuxun ola.

Gün yandırsa, quraq düşsə,
Ayaz gəlsə, sazaq düşsə.
Sevinc məndən uzaq düşsə,
Barı, sənə yaxın ola.

## XATIRLAYARSAN

Unut mənim kimi unudulmazı,
Dağlara baxanda xatırlayarsan.
Məni bu intizar, səni bu həsrət,
Yandırıb-yaxanda xatırlayarsan.

Taparsan təzədən itən ömrümü,
Səninlə böldüyüm o tən ömrümü.
Keçən günlərimi, ötən ömrümü,
Buludlar axanda xatırlayarsan.

Yağdır başım üstə, yağdır arını,
Poz mənim ömrümün naxışlarını.
Şairin qəzəbli baxışlarını,
Şimşəklər çaxanda xatırlayarsan.

## YAXINA GƏL, YAXINA

Hansı toydan gəlirsən,
Ay toyum, ay bayramım.
O ağlı, qırmızılı
Ovcundadır ilhamım.
Ya qəlbimin qanıdır,
Əlindəki, ya xına,
Yaxınlardan yaxınım,
Yaxına gəl, yaxına.

Sən mənim həyatıma,
Nə yadsan, nə gəlməsən.
Dodağımda şirin söz,
Dilimdə xoş kəlməsən.
Hey baxmaq istəyirəm,
O boya, o buxuna,
Elə uzaq dayanma,
Yaxına gəl, yaxına.

Görünmək istəməsən
Gözlərimə gizlərəm.
Sözlə yox, ürəyimin
Oduyla əzizlərəm.
Qıymaram o gözlərə
Yad baxışı toxuna.
Ömürlük səadətim,
Yaxına gəl, yaxına.

## ƏZİZLƏNƏ

Tez gəlib çıxasan, bəzənə dünya,
Eşqinlə açılan gül əzizlənə.
Mehriban danışan, şirin dillənən,
Sözümə bal qatan dil əzizlənə.

Bağlana varlığın yurda, həyata,
Arzular yetişib mənzilə çata.
Sevincin könlündə gur ocaq çata,
Köz dəmə düşəndə kül əzizlənə.

Öz əlin yoğura, öz əlin yapa,
Düşə qaydasına iynədən sapa.
Görüşə gəldiyin gün şöhrət tapa,
Ay bəxtəvər ola, il əzizlənə.

## BİR KƏLMƏ

Çən tutar, göylərin üzü bağlanar,
Qar yağar, yolların yüzü bağlanar.
Qış düşər, bulağın gözü bağlanar,
Sən mənə bir kəlmə acı söz desən.

Qəlbin bərk olanda daşdan, dəmirdən,
Bəxtin seçilərmi küldən, kömürdən.
Şirinlik gözləmə daha ömürdən,
Sən mənə bir kəlmə acı söz desən.

## DODAQDƏYMƏZ
## TƏCNİS

Gəldi yaz ayları, ay istəkli yar,
Açıldı çiçəklər yeri, dər indi.
Keçəndə asta keç, ehtiyat elə,
Lal axan çayların yeri dərindi.

Sanki telin əsir nərgiz əsəndə,
Gəl, istək yaransın nərgizə səndə.
Ay çiçək, heyran qal nərgizə sən də,
Aşiqin gəzdiyi yeri dər, indi.

Gəlin eyləyəndi qarını dağlar,
Ağlığın dağların qarını dağlar.
Səcdənə gətirər qarını dağlar,
Selləri qarşına yeridər, indi.

## YAZILSIN

Könül güldü bir uğurlu gəlişdən,
Can sevindi qəhqəhədən, gülüşdən.
Təmizlikdə fərqin yoxdu gümüşdən,
Xasiyyətdə qızılsan ki, qızılsan.

Məhəbbətin payızı var, yazı var,
Deyirlər ki, tale, qismət, yazı var.
Heçə dönər gözlərimdə yazılar,
Məndən qeyri başqasına yazılsan.

## GÖRÜŞ

Ellərlə görüşüm çox şirin oldu,
Arılar baş qoydu gülümün üstə!
Elə çiçəklədi sözlər, kəlmələr,
Bir çəmən göyərdi dilimin üstə!

Ötmədi mənasız, hədər bir anım,
Odlu duyğularla qaynadı qanım.
Sevgidən Kərəmtək alışdı canım,
Sevənlər baş əydi külümün üstə!

Şöhrətdə ən uca zirvəyə tənəm,
Günəşəm, buludam, yağışam, çənəm.
Gördüm bu dünyanın anası mənəm,
Dünya bir körpədi qolumun üstə.

Cahanı dolaşan səyyah olmuşam,
Zəlimxan, çox şeydən agah olmuşam.
Sanki el içində Allah olmuşam,
Özgə bir əl yoxdu əlimin üstə!

## VAR

Yanağımda bu gün yenə
sevinc yaşı sellənir,
Heç bilmirəm gözlərimdə
çaymı var, bulaqmı var?!
Ucalıram ana yurdun
qüdrətini görəndə,
İnsan üçün bundan gözəl
səsmi var, soraqmı var?!

Zəhmət oğlu söhbət açır
torpaq adlı yarından,
El gözəli xonça tutur
bu zəhmətin barından.
Gözüm, könlüm necə doysun
təbiətin varından,
Ətirsiz bağ, gülsüz çəmən,
nəğməsiz dodaqmı var?!

Gözlərimdə yaşadıram
naxışları, izləri,
Ürəyimdə yaşadıram
nəğmələri, sözləri.
Ey xalqımın məhəbbəti,
ey anamın gözləri,
Məndən ötrü sizin üçün
müqəddəs ocaqmı var?!

Qazandığı hər uğura
xoş bir arzu, kam dedim,
Çağlamaqdan yorulmasın
bu yolda ilham dedim.
Dənizinə məhəbbətim,
dağına arxam dedim,
Vətən kimi şirin nemət,
el kimi dayaqmı var?!

## NƏ YAXŞI Kİ...

Nə yaxşı ki, bu diyarda dünyaya gəldim,
Bu gəlişlə ucaların ucasıyammış.
İnadımı, qanadımı torpaqdan alıb,
Aya, Günə, ulduzlara uçasıyammış.

Söz sarıdan ulularım olmadı kasıb,
Həyat canlı hər şeirimə el qulaq asıb.
Hər dağını atam kimi bağrına basıb,
Hər daşını balam kimi qucasıyammış.

Zirvələri "Ucal!" – deyib hay verdi mənə,
Dərələri bulaq verdi, çay verdi mənə.
Gözəlləri elçilikdən pay verdi mənə,
Elə bildim doxsan ilin qocasıyammış.

Nədən belə çox sevirəm, nədən, yolları?
Evdən-evə, eldən-elə gedən yolları?
Sətir-sətir tariximmiş Vətən yolları,
Bu yolların bəzirgahı, xocasıyammış!

## HEYRƏT

Çağlamaq, çağlamaq istəyirəm mən,
Bulağa döndərir bulaqlar məni.
Hələ ki, heyranlıq gəlir əlimdən,
Özünə tay bilir uşaqlar məni.

Gözəldən gözəldi çaylar, çeşmələr,
İki göz gərəkdi baxa doyunca.
Gör nələr istəyir ürəyim, nələr,
Nəğməsi süzülə, axa doyunca.

Gözünə köçürüb Günəşi, Ayı,
Ulduzun sehrinə vurulan mənəm.
Gecəsi, gündüzü, həftəsi, ayı,
Heyranlıq üstündə qurulan mənəm.

Bəxtini, ömrünü tapşırır göyə,
Zirvələr quşuna heyranlığım var.
Meydanı, dünyası genişdir deyə –
Qartal uçuşuna heyranlığım var!

Yarpağı titrədir mehin nəfəsi,
Dolur sevda kimi başıma mənim.
Qumrunun avazı, bülbülün səsi,
De, necə gəlməsin xoşuma mənim.

Tufanda ağardır dənizlər saçı,
Saçların ağından heyrətə gəlləm.
Olur ucalığı başımın tacı
Dalğanın dağından heyrətə gəlləm!

Hardandı bu qədər gücü, qüdrəti,
Dağın duruşuna düz heyrətdədir!
Torpağa baxmaqdan yorulmur qəti,
Baxış heyrətdədir, göz heyrətdədir!

Heyrətdən yaranıb bu qoca dünya,
Varlığın, dünyanın özülü heyrət.
Şeirimlə öyünsün qoy uca dünya,
Nəsimi heyrətdir, Füzuli heyrət!

Süzülüb, seçilib sözlərin xası,
Duyğular selində daranmadımı?
Ələsgər təcnisi, Vaqif qoşması,
Gözələ heyrətdən yaranmadımı?!

Heyrətsiz bir ömür hədərdir, hədər,
Həmişə qaynasın bulaq heyrətim.
Qoy məni izləsin qəbrimə qədər,
Bu körpə marağım, uşaq heyrətim!

## YAŞAYIR

Ulu göylər sahmanında sehrli,
Nur günəşdə, zülmət çəndə yaşayır.
Yaman düşüb əlçatmazlıq eşqinə,
Ay uzaqda, ulduz gendə yaşayır.
Ana torpaq ana kimi mehrli,
Dən sünbüldə, sünbül dəndə yaşayır.
Sığınıbdı bir-birinin qoynuna,
Min bir çiçək bir çəməndə yaşayır.
Bir ümmanda yüz ölkənin çayı var,
Bir can kimi bir bədəndə yaşayır.
İnsan özü bir dünyadır həyatda,
Qoca dünya məndə, səndə yaşayır.
Bir təsəlli bəsimizdir, bəsimiz,
Biz getsək də, sorağımız, səsimiz,
Bu torpaqda, bu Vətəndə yaşayır!

## AĞSAQQAL DEYİR

El gözü tərəzi, el dili ustad,
Onun tək düz görən göz ola bilməz.
Hər kəsə ad verir işinə görə,
Verdiyi qiymətə söz ola bilməz.
O çox yaxşı seçir ağı qaradan,
Gözünün nurudur yazan, yaradan.
O kimi sevirsə yurdu, məskəni
Ən böyük, ən təmiz ürəklər olur.
Ləkəsiz aynada, təmiz ürəkdə
Təmiz də arzular, diləklər olur.
Çoxları qocalır, o ucuzlaşıb
Hər saç ağardana ağsaqqal demir.
Lap qara dönsə də saçı-saqqalı,
Avama, nadana ağsaqqal demir.
Neçə imtahanda çəkir sınağa,
Duyana, qanana ağsaqqal deyir.
Böyük bir millətin, böyük bir elin
Oduna yanana ağsaqqal deyir.
Vətənin eşqini, xalqın səsini
Müqəddəs sanana ağsaqqal deyir!

***1972, 6 aprel***

## ÇƏTİNDİR

Yenə qırğınlardan yazdı qəzetlər,
Ağrılar qəlbimdə dindi, nə dindi!..
Gündə bir çaxnaşma, gündə bir xəbər –
Bu əsrin övladı olmaq çətindi.

Bölsəm ömrümüzə düşən payını,
Sevinci birdirsə, əzabı mindi.
Oğulsan, eşitmə hay-harayını,
Bu əsrin övladı olmaq çətindi.

Dünyadan ayrılıb yaşamaq olmur,
Efir nələr deyir "Günün səsi"ndə.
Dünyanın dərdini daşımaq olmur,
Qalırsan fikirlər məngənəsində.

Hər gün qan uddurur, hər gün qan udur,
Saysız yaralardan bağrı qan əsrim.
Bizi qara günlə yaman qorxudur,
Bizi ağ günlərə çıxardan əsrim.

Əməllər o qədər yolundan çıxıb,
Daha insanlığın sözünə baxmır.
Əsrin silahları çox evlər yıxıb,
Qıranda birinə, yüzünə baxmır.

"Olum, ya ölüm"dür hökmü, sualı,
Orta yolu yoxdur bu gün bəşərin.
Hamı bir-birinin işindən hali,
Döyüşü sərt gedir xeyirlə şərin.

Qəlbimi üşüdür saçımın qarı,
Bilmirəm baharam, yoxsa ki, qışam.
His edə bilməsəm bu ağrıları,
Elə bilərdim ki, yaranmamışam!

Həyat gözlərimdə açılır, solur,
Od tutur qəlbimdən gözümə qədər.
Qayğılar çiynimə elə yük olur,
Torpağa batıram dizimə qədər!

## BULAĞINA

Olsa da dünyanın gur bulaqları,
Hər kəs vurğun olar öz bulağına.
Meylimi salmışam körpəliyimdən
İlham bulağına, söz bulağına.

Üstünə nur yağır, şimşəklər çaxır,
Hüsnünə qəmzəli gözəllər baxır.
Sinəmdən dumduru bir bulaq axır,
Vermərəm dünyanın yüz bulağına.

## TƏBİƏTİN DİLİ

Ən böyük hikməti təbiətdə gəz,
Olsa da yolları dolaşıq, çətin.
Yüz il yaşasan da, sirrini verməz,
Dilini bilməsən sən təbiətin!

Bildir istəyini, sevgini bildir,
Açan çiçəyinə, yağan qarına.
Torpağın nəfəsi ölü dirildir,
Dirilik gətirər misralarına!

Sükutun səsi var, eşidə bilsən,
Gör nələr danışır daş öz dilində.
Çatdırır fikrini gah qəmli, gah şən,
Bahar öz dilində, qış öz dilində.

Onu nə əzən var, nə sıxışdıran,
Dillərin içində ərimir bu dil.
Nə sözü kəsən var, nə qəlbi qıran,
Açılır, saçılır, kirimir bu dil.

Dillər var, sözünə il çatmır daha,
Dillər var, nə qədər dillidi, qardaş.
Söz yeyir, dil yeyir, batır günaha,
Dillər var arxalı, ellidi, qardaş.

Təbiət uzaqdı bu vurhavurdan,
Doğmalıq hissi var yerin canında.
Sözü işıqdandı, söhbəti nurdan,
Hər dil qanad açır öz meydanında!

Nazlanır, çalxanır o gözəl pəri,
Dənizin danışan dili dalğadır.
Oxuyur dünyaya gələndən bəri,
Bəmi ləpədirsə, zili dalğadır.

Kim doyar bulağın söz-söhbətindən,
Dinərsən, ürəklə dindirər səni.
Qurtarıb ruhunu dardan, çətindən,
Xəyal köhləninə mindirər səni!

Uysan hər kəlməyə, varsan hər sözə,
Demək təbiətdən yaxşı halısan.
Elə ki, bir çayla gəldin üz-üzə,
Suların dilində danışmalısan!

Çəkinmə, bir şeyə tapşıranda can,
Son qoyma dillərin axtarışına.
Hardadır quş dili bilən Süleyman,
Lap çağır onu da söz yarışına.

Bağlı qapılara açar tapılar,
Sükutun dilini onda bilərsən.
Dolumu yağacaq, qarmı, yağışmı?
Buludun dilini onda bilərsən.

Harda zəlzələ var, harda tufan var?
Hamıdan birinci xəbər bilərsən.
Təbiət dilidi dillərin şahı,
Bu dili ən böyük əsər bilərsən.

Ən böyük hikməti təbiətdə gəz,
Olsa da yolları dolaşıq, çətin.
Yüz il yaşasan da, sirrini verməz,
Dilini bilməsən sən təbiətin!

## O QANLI İLLƏRİN HAYI, HARAYI

*Böyük Vətən müharibəsi illərində*
*doqquz oğul itirmiş rus qadını*
*İ.H.Stepanovanın şəklinə baxarkən*

Bir ana qəlbində bu boyda kədər,
Qulağım heç yerdə eşitməmişdi.
Nə şaxta, nə sazaq bu şəkil qədər,
Məni dondurmamış, üşütməmişdi.

Oğul itkisini, bala dağını,
Bir çəkən anlayar, bir düşən bilər.
Küləklər söndürər od-ocağını,
Həsrəti  həsrətlə görüşən bilər!

Alışan ocaqlar qaraldı, söndü,
Dörd ilin ağrısı dörd əsrə bəsdi.
O aylar, o illər qayçıya döndü,
Şirin arzuları doğradı, kəsdi.

Sarsıdır ruhumu min dağ, min düyün,
Alışır Buhenvald, qışqırır Xatın.
Vətəni Günəştək yaşatmaq üçün,
Nə qədər işığı sönüb həyatın!

Solğun gözlərinə boranlı bir qış,
Qırışlar alnında səngər kimidir.
Kirpiklər döyüşə hazır dayanmış,
Bir himə bənd olan əsgər kimidir!

Torpağın eşqiylə göyə baş vuran,
Kökə baş endirən budaqlar hanı?

Əlvan otaqları səslə dolduran,
Nəğmələr oxuyan dodaqlar hanı?

Doqquz “qara kağız”, doqquz bəd xəbər,
Dalbadal bir evdən saldı yolunu.
Açmadı ürəyi açılan səhər,
Çaxdırdı şimşəyi, tökdü dolunu.

Oğullar döyüşdü hər saat, hər gün,
Yenə soyumadı qəzəbdən ürək.
Vətəni ayağa salmamaq üçün,
Bəzən dizin-dizin sürünmək gərək!

Nəfəsi əritdi qışın qarını,
Məsləklə, bayraqla yeridi onlar.
Güllələr apardı ayaqlarını,
Dirsəklə, dırnaqla yeridi onlar.

Yerdə qoymadılar amanı, ahı,
Yaxşı ki, həyatda haqqın səsi var.
Düşmənin əlindən saldı silahı,
Dünyanın ədalət məhkəməsi var!

Qırxı yaxalayır illərin sayı,
Dünya ağrıları unutmur ancaq.
O qanlı illərin hayı, harayı,
Beş yüz il sonra da xatırlanacaq!

## DANIŞIR ŞƏHİD MƏZARI

Mən sizə güvəndim hər döyüşəndə,
Dayağım, səngərim, qalam, ay ellər.
Yayın sorağını şəhərə, kəndə
Salam, ay obalar, salam, ay ellər!

Məni bağışlayın, hər gələndə siz,
Durub qarşınıza çıxa bilmirəm.
Qəbrimi güllərlə bəzəyirsiniz,
Gül qoyan əlləri sıxa bilmirəm.

Harda uyuyuram, harda yatıram,
Sevgilim yerimi biləydi mənim!
Duru baxışlara çox can atıram,
Bölünməz dərdimi böləydi mənim!

O mənim ilk andım, son nəfəsimdir,
Gəlsin, ümidinə varsa bir işıq.
Qəbrimin üstə də gəlsə bəsimdir,
Qalxaram torpaqdan məzar qarışıq.

Yox! Yox! O gəlməsin öldürər fikir,
Bir də ömrü boyu dodağı gülməz.
Ümid də insana bir təsəllidir...
Ömrü üzülsə də, əli üzülməz.

Nə qədər həyatda ölüm dəhşəti,
Nə qədər torpaqda əsgər qəbri var.
O qədər dünyada oğul həsrəti,
O qədər dünyada ana səbri var!

Alnı qırış-qırış sərt qayalar var,
Fikirdən çatılan qaşlardı, bəlkə?
Baharda üstümə yağan yağışlar,
Gözlərdən tökülən yaşlardı, bəlkə?

Adına söz qoşun, kitab yazdırın,
Qisməti qürbətə yazılanların.
Üzünü vətənə sarı basdırın,
Məzarı yad eldə qazılanların!

Harda uyusaq da övladıq ona,
Səsimiz, ünümüz bu torpaqdadır.
Vədəsiz çatsa da ömrümüz sona,
Qəlbimiz, yönümüz bu torpaqdadır!

Şəhid məzarına çiçək səpin siz,
Qələbə ətri var güldə, çiçəkdə.
Gül açdı, bar verdi əməllərimiz,
Dadını siz görün, biz görməsək də.

Ancaq unutmayın siz, ey insanlar,
Bizi balaların salın yadına.
Bizi unutsalar, yer sizi danlar,
Cavabdeh sizsiniz yer övladına!

Bir canlı qalmayıb bircə bucaqda,
Baxın Liditseyə, baxın Xatına.
Qaralan tüstüdə, qarsan ocaqda,
Bir el vida deyib öz həyatına.

Özümdən demirəm mən bu sözləri,
20 milyonun adından dedim.
Nə gördük odlara düşəndən bəri,
Çıxmasın ellərin yadından dedim.

– Sənə inanmasa, arxalanmasa,
Ordular qoşunu itirə bilər!
Təbiət ətrini, çəmən rəngini,
Dağlar duruşunu itirə bilər!
Qartallı qayalar əlindən gedər,
Zirvələr huşunu itirə bilər!
Meşələr əbədi yaşıllığını,
Budaqlar quşunu itirə bilər!
Pozulsa tarixin bircə cümləsi,
Bəşər öz yaşını itirə bilər!
Cavabsız suallar bükər boynunu,
Zaman yaddaşını itirə bilər!
İnsanın qədrini bilməsə insan,
Bu dünya başını itirə bilər!

## QIRILAN MEŞƏLƏR

*Meşə yoxdursa ək,*
*çoxdursa qırma, azdırsa, qoru!*
**Atalar sözü**

Bir zamanlar burda meşə var idi,
Bu meşədə tər bənövşə var idi.
Bənövşəsi ətirlərdi dünyanı,
Dünyasında sevinc, nəşə var idi.
Nəşəsində şeriyyəti tapardıq,
Şeriyyətdə min hikməti tapardıq.
Bu hikmətdə sehrə, gücə bağlanıb,
Sehrindəki təbiəti tapardıq.
Təbiətdən bol olardı payımız,
Payımızda bulağımız, çayımız.
Çayımızda duyğuların nərəsi,
Bu nərədə harayımız, hayımız.
Bir zamanlar burda bulaq var idi,
Bulaq üstə yanan ocaq var idi.
Ocağında gözümüzün işığı,
İşığında yaşıl yaylaq var idi.
Yaylağında sayrışardı çiçəklər,
Çiçəklərdə döyünərdi ürəklər.
Ürəklərdən zirvələnib uçardı,
Zirvə deyən xoş arzular, diləklər.
Gözəlliyin əlacını kəsdilər,
Meşələrin ağacını kəsdilər.
Qaqqıltısı könül açan yerlərin,
Kəkliyini, turacını kəsdilər.
Qurutdular bulaqların suyunu,
Kim çalacaq dərələrin toyunu?
Nəslin yerə kök atması çətindi,
Qoca palıd göstərməsə boyunu!
Meşə varmı dərd açasan bəyinə,
Qartal varmı boylanasan göyünə?
Ağla, könül, təbiətin halına,
Quru yerin torpağı nə, göyü nə!

## DAĞIN DƏRDİ

Bu dağın dərdini daşımaq olmaz,
Yox, belə dağ ömrü yaşamaq olmaz!
Yıxıldı qayası, öldü qartalı,
Düzəldib yerini şum eylədilər.
Saldı ucalığı fələk gözündən,
Daşını keçirib ələk gözündən
Çınqıl eylədilər, qum eylədilər.
Ayılıb gördük ki, uçub dağımız,
Giley-güzarımız çatmadı göyə
Yerdən üzüldü əl-ayağımız!
Dağı dağlığından endirmək üçün,
Gözünün odunu söndürmək üçün,
Bircə işarəyə him eylədilər!

Bu dağın dərdini daşımaq olmaz,
Doğrana-doğrana yaşamaq olmaz!
Cığırı bağlanır, yolu kəsilir,
Ətəyi doğranır, əli kəsilir,
Sözlü bulaqların sözü-söhbəti,
Dilli şəlalənin dili kəsilir.
Mən belə bilməzdim dağ dözümünü,
Qaya nəzilərmiş, daş incələrmiş!
Onun da ömrünü kəsən, gödəldən,
Qayğılar, talelər, düşüncələrmiş!
Üç günlük, beş günlük, on günlük deyil,
Yaranıb əzəli, əbədi dağlar.
Heç kəsin çiynində ağır yük deyil,
Heyranlıq, ucalıq məbədi dağlar.
Ocaq istəyərsən, od əsirgəməz,
İstə alovunu, um ocağını.

Səndən bir məhəbbət, hörmət gözləyər,
Kəsmə bu dağların umacağını.
Ətəkdən zirvəyə, ayaqdan başa,
Səngərdi, qaladı, Vətəndi dağlar.

Hamının qəlbində qalxan, ucalan,
Hamının qəlbində bitəndi dağlar.
Sinəsi beşikdi gözəlliklərə,
Bu gülü, bu şalı, bu tirməsidir.
Dövranın ilindən, ayından keçib,
Yazından, qışından, yayından keçib,
Ağsaçlı zamanın yetirməsidir!
Saymaq, sadalamaq yerinə düşməz,
Mən daha saymıram nələr, nələrdi.
Bu dağlar torpağın başucalığı,
Bu dağlar tarixi abidələrdi!
Kökünü torpağa atandan bəri,
Eşqiylə çırpınır nə qədər ürək.
Qorusaq tarixi abidələri,
Birinci dağları qorumaq gərək!

## SIĞIŞMAZ

Yaxşı tanıyıram, mən səni yaxşı,
Bu yurdun başına dolanmamısan.
Yanıb tüstülənən bir ev görəndə,
Alışıb odlara qalanmamısan.
Ana torpağımı ziyarət bilib,
Gözəllik önündə diz çökməmisən.
Toyda qanad açıb, vayda ağlayıb,
Solan gözəlliyə yaş tökməmisən.
Böyük məhəbbətdən payın azdı, az,
Sənin ürəyinə Vətən sığışmaz!
Yaxşı tanıyıram Vətəni, yaxşı,
Əlçatmaz, ünyetməz üfüqləri var.
Saysız taleləri işıqlandıran,
Gözə nur gətirən şəfəqləri var.
Təkcə xəyalımdan keçmir bu torpaq,
Ürəyimdən keçir, qanımdan keçir.
Toxunan olanda onun ruhuna,
Ağrısı qəlbimdən, canımdan keçir.
Ana laylasıdır, ata səsidir,
Vətən müqəddəslər müqəddəsidir!
Ay istəyi sönük, sevgisi dayaz,
Sənin ürəyinə Vətən sığışmaz!
Təkcə dərə deyil, təkcə dağ deyil,
Duyğudur, ürəkdir, nəfəsdir Vətən!
Qürbətin dadını görənlər bilər,
Nə qədər ilahi bir səsdir Vətən!
Dünyası dünyanın özündən böyük,
Bütün dahilərin sözündən böyük.
Vurulmaz torpağa, bağlanmaz göyə,
Xırdalar tapınmaz bu böyüklüyə!
Ucuz sevgiləri buz üstünə yaz,
Sənin ürəyinə Vətən sığışmaz!!!

## TƏMİZLƏR

Az tapılan almaz kimi azsınız,
Sözü şirin, söhbəti bal adamlar.
Ürəyimdə baharsınız, yazsınız,
Əli halal, dili halal adamlar.

Baxışınız işıq oldu, od oldu,
Dağıtdınız dumanları, sisləri.
Hər görəndə gözüm, könlüm şad oldu,
Sizdə duydum ən müqəddəs hissləri.

Ömrüm boyu baş əymişəm sizə mən,
Səsinizi haqqın səsi bilmişəm.
Təmizlərin ürəyini əzəldən,
Ana südü, dağ çeşməsi bilmişəm.

Təmizlikdir, gözəllikdir gərəyim,
Onsuz qəlbim sapa dönər, incələr.
Qayğılardan yorulanda ürəyim,
Təmizlərin havasında dincələr.

Natəmizi salan olmaz heç yada,
Hər gün dərd axtarar, qəm izlər.
Tapındığım ocaq varsa dünyada –
Təmizlərdi, təmizlərdi, təmizlər!

## BU KİŞİ NƏ GÖZƏL QOCALIB, ALLAH!

Mənim öz kökümdü bu boy, bu nəsil,
Gözdə işığa bax, saçda qara bax!
Tanrının qələmi çəkib, elə bil,
Alnında açılan qırışlara bax!
Başa hardan yağıb “bu ağlıqda qar”?
Gözə hardan düşüb bu bolluqda nur?
Nə zaman baxırsan, tərpənişindən
Səadət tökülür, sevinc oxunur.
Vurulub ilahi bir aydınlığa,
Doyunca baxmamaq günahdır, günah,
Bu kişi nə gözəl qocalıb, Allah!

Arzusu, xəyalı zirvələrlə tən,
Ağır yerişindən yer ləngərlənir.
Dünyanı bu qədər çox sevdiyindən
Dünyanın başına dönür, hərlənir.
Ömrünün sarayı elə yapılıb
Zaman bir kərpici sala bilməyib.
Torpaq sevgisini, həyat eşqini,
Onun əllərindən ala bilməyib.
Uğurla açılıb hər gələn sabah,
Bu kişi nə gözəl qocalıb, Allah!

Şirin sözlərini can dərmanıtək,
Şərbət əvəzinə nuş etmək olar.
Böyük gözəlliyi duyanda ürək
Ömrü ağ günlərə tuş etmək olar.
Yorub yollarını, yoxuşlarını,
Bu qoca dünyanı gözdən keçirib,

Əlvan fəsillərin dərib barını,
İllərin sayını yüzdən keçirib.
Nə acı dil olub, nə artıq tamah,
Bu kişi nə gözəl qocalıb, Allah!

Uzun qollarımı geniş açardım,
Qəlbimi göylərtək gen eyləyərdim.
Gün kimi aləmə işıq saçardım,
Bütün günlərimi şən eyləyərdim.
Qocalıq sözünü yaxına qoymaz,
Könlüm yüz yaşda da cavan olardı.
Soğulmaz bulağım, qurumaz arxım,
Eşqim çaylar kimi rəvan olardı.
Belə qocalsaydı bütün qocalar,
Ömrümdə bir dəfə mən çəkməzdim ah,
Bu kişi nə gözəl qocalıb, Allah!!!

## İNSAN ÖLDÜ

İnsan öldü!
Qəbiristanın qəbir payı.
İnsan öldü!
Bir məzarın artdı sayı.
İnsan öldü!
Bir nöqtədə qoydu həyat.
İnsan öldü!
Dondu fikir, sındı qanad.
İnsan öldü!
Baltalandı kökü onun.
İnsan öldü!
Yüngülləşdi yükü onun.
İnsan öldü!
Ölüm köhnə, ölüm təzə.
Nə ad verək,
Ey insanlar,
Ölüm adlı dilbilməzə!

## BİLMƏK OLMUR

Çox uzatma məktubların arasını,
Qaşla gözün arasını bilmək olmur.
Bu həyatda bizə düşən səadətin,
Bütövünü, parasını bilmək olmur.

Baş açmıram ağladırmı, güldürürmü?
Yaşmı verir, göz yaşını sildirirmi?
Dünya bizi sağaldırmı, öldürürmü?
Məlhəmini, yarasını bilmək olmur.

Bulaqların sərinliyi qalır hələ,
Dənizlərin dərinliyi qalır hələ,
Arzuların şirinliyi qalır hələ,
Bu dünyanın sonrasını bilmək olmur.

## GEC OLUR ONDA

Telefon söhbəti beş dəqiqədir,
Mənim günümə bax, vaxtın həddinə.
Bu söhbət bir çaxım şimşəkdir, nədir?!
Necə sığışırıq vaxt sərhədinə?

Dil açır bir xəttin iki tərəfi,
O yanda Borçalı, bu yanda Bakı.
Ömrümün, günümün şanı-şərəfi,
Anamın səsidir qulağımdakı.

Xəstəhal olsa da, deyir – yaxşıyam,
Yamanca gizləyir əzablarını.
Ömrün vəfasına inanmasa da,
Sevincə bürüyür cavablarını.

Sözün havasında bilirəm yenə,
Üzündə nisgillər oxunur indi.
Ana barmaqları oğul yerinə,
Buztək "telefon"a toxunur indi.

Qalır gözü yolda, qulağı səsdə,
Ağrıyır ürəyi, üzülür canı.
Saxlaya bilmirəm gözümün üstə,
"Gözümə torpaq tök", – deyən insanı!

Hayıf! Özümüz də bilmirik hələ,
Nədir qazancımız, nədir karımız.
Gəzirik şəhərdə belədən-belə,
Dəstəkdən asılıb analarımız!

Dönürük başına qar yağan dağa,
Ürəyə zor düşür, güc olur onda.
Nə vaxt ki, düşürük ələ-ayağa,
Gec olur, gec olur, gec olur onda!

## NƏ DEYİM

Hara uçursunuz, ay saniyələr,
Budaqdan tökülən yarpaqsınızmı?
Hara qaçırsınız, ay dəqiqələr,
Süfrədən bezikən qonaqsınızmı?
Hara köçürsünüz, xoş saatlarım,
Sizə dilmi töküm, uşaqsınızmı?
Nə deyim zamana, nə deyim sizə,
Bu qədər yaxınkən ömrə, taleyə,
Bu qədər istəkdən uzaqsınızmı?!

## ÖMÜR

Hansı anım mənalı,
Hansı vaxtım boş keçdi?
Hansı ayım əzablı,
Hansı günüm xoş keçdi?
Cavab tapana kimi
Əldən çıxdı cavanlıq,
Ömür getdi, yaş keçdi!

## DÜNYADI

Qayğısı var, əzabı var,
Öz haqqı, öz hesabı var.
Oxunmamış kitabı var,
Sirli-soraqlı dünyadı.

Qalaları qədim, ulu,
Sandıqları sirlə dolu.
Sona çatan deyil yolu,
Min bir bucaqlı dünyadı.

Hər babanın nəvəsi var,
Hər gedənin əvəzi var,
Yaratmağa həvəsi var,
Oğul-uşaqlı dünyadı.

“Bir atı var Alapaça”,
Güclü cavan, aqil qoca.
Yerdən dərin, göydən uca,
Köklü-budaqlı dünyadı.

Məhəbbəti qışlı, yazlı,
Gah dərinli, gah dayazlı,
Buz baxışlı, sərt ayazlı,
İsti bucaqlı dünyadı.

Göy yamaclı, qızıl yallı,
Ağ çiçəkli, qara xallı.
Köhlən atlı, gümüş nallı,
Yaşıl yaylaqlı dünyadı.

Dağ uçurar, qaya çapar,
Gözə girər, gözdən sapar.
Gah itirər, gah da tapar,
Əli çıraqlı dünyadı.

Soraq apar çağdan-çağa,
Çıx zirvəyə, boylan dağa.
Dəyər min il yaşamağa,
Dünya maraqlı dünyadı.

## QƏM MƏNİ ARABİR ÜSTƏLƏYƏNDƏ

Saralır çəmənim, solur çiçəyim,
Payız gülləritək pərişan olur.
Sükuta yad olan qaynar ürəyim
Sükutla əl verib barışan olur,
Qəm məni arabir üstələyəndə...

Elə bil gəmilər batır dəryada,
Uzaq sahillərdə liman ağlayır.
Taleyi kəmləri gətirib yada,
Dağların başında duman ağlayır,
Qəm məni arabir üstələyəndə...

Sanıram el-oba yığılır yasa,
Analar dil deyib, ağı başlayır.
Sevincin boynundan qəm basa-basa,
Bir ömrün yetimlik çağı başlayır,
Qəm məni arabir üstələyəndə...

Yanıram odlara mən diri-diri,
Şirini çatışmır acı dünyanın.
Bişirir canımı isti təndiri,
Qovurur qəlbimi sacı dünyanın,
Qəm məni arabir üstələyəndə...

Dəyir qulağıma addım səsləri,
Açıram qapını, görüm, kim gəlir?
Salıram yadıma müqəddəsləri,
Dadıma yenə də sevincim gəlir,
Qəm məni arabir üstələyəndə...

## NATƏVANA

Çıxdım Qarabağın axşam seyrinə,
Axdı ürəyimə qəzəllər mənim.
Natəvan şeirini oxudum yenə,
Yığıldı başıma gözəllər mənim!

Gör nələr yaradıb, xəzinəyə bax,
Şairə nənələr, aşıq nənələr.
Mənim keçmişimə nurlu bir çıraq,
Mənim sabahıma işıq nənələr!

Gözəli saxlamır bir gözəl kimi,
Cavanı qarıya döndərir zaman.
Tökür ayaqlara bir xəzəl kimi,
Yaşılı sarıya döndərir zaman.

Təkcə sənətkarın ötür yanından,
Bulaqdı, gözünü doldura bilmir.
Əlləşir qasırğa, vuruşur tufan,
Bircə çiçəyini soldura bilmir.

Təbiət ağladıb güldürə bilər,
Onu dilə tutub yatıra bilməz.
Şairin oğlunu öldürə bilər,
Şeirinin səsini batıra bilməz!

Zamanın gözündə qalxır, ucalır,
Qəlbini xalq üçün dindirir şair.
Taleyin pisliyi özünə qalır,
Dərdi də hörmətə mindirir şair.

Oğul deyə-deyə alışıb canı,
Yanğısı ellərin dodağındadır.
Söhbəti dolaşır Azərbaycanı,
Məzarı Ağdamın qucağındadır!

## BÖYÜK ŞAİRLƏR

Böyük şairlərin isti nəfəsi,
Ürəyi isidir, qəlbi dindirir.
İlhamın tufanı, nəğmənin səsi,
Dünyanı bir az da genişləndirir.

Duyğusu barışmaz boyatla, çiylə,
Nə dayazlıq sevər, nə haray-həşir.
Böyük şairlərin hər kəlməsiylə,
Xalq kamala dolur, el müdrikləşir.

İlhamdı, şeirdi sərvəti, varı,
Söykənir saf eşqə, təmiz niyyətə.
Beşikdən məzara getmir yolları,
Beşikdən yol alır əbədiyyəti!

Canında ağrı var, qəlbində dağ var,
Bəşərə vurulan yaralar qədər.
Onlara qismətdi əzab, intizar,
Onların payıdı ən böyük kədər.

Başa qar yağdırır çəkilən fikir,
Çoxaldır ürəyə düşən xalları.
Dünyanın ən ağır dərdini çəkir,
Dünyanın ən böyük ağsaqqalları!

İnamı dağları dağıdar, deşər,
Sevgisi, nifrəti tükənən deyil!
Böyük şairlərə dərd verib bəşər,
Çiynindən dərd adlı yük enən deyil!

## ÖLMƏK ŞAİR ÜÇÜN QORXULU DEYİL

Od olub Günəşdə, Ayda yaşayar,
Su olub dənizdə, çayda yaşayar,
Özləri ölsə də, sözləri ölməz,
Dünyada belə bir qayda yaşayar –
Ölmək şair üçün qorxulu deyil!

Adı nəsillərin sözündə qalar,
Qəlbində, ruhunda, gözündə qalar.
Nəfəsi torpağın bərəkətində,
İşığı göylərin üzündə qalar –
Ölmək şair üçün qorxulu deyil!

Zamanın yazından, qışından keçər,
O, qışdan adlayar, qış ondan keçər.
Dönməz əqidəli, sönməz inamlı,
Məsləki yolunda başından keçər
Ölmək şair üçün qorxulu deyil!

Qəm onu yaralar, dərd onu çapar,
Beynində qovğalar, tufanlar qopar.
İnadı dağıdar daş zindanları,
Lap ölümdə belə, ölməzlik tapar –
Ölmək şair üçün qorxulu deyil!

Gah zildə danışar, gah enər pəsə,
Ömürdür nəğməyə, qanaddır səsə.
Yenidən başlasa Nuhun tufanı,
İsrafil surunu çalmaq istəsə,
Ölmək şair üçün qorxulu deyil!

Üstünü fəlakət alsa dünyanın,
Danışan dilləri lalsa dünyanın,
Sözü yaşatmağa bu yer üzündə,
Bircə danışanı qalsa dünyanın –
Ölmək şair üçün qorxulu deyil!

## NOLAYDI, SƏN MƏNİ BAŞA DÜŞƏYDİN

Yenə hisslərimin kövrək çağıdı,
Düşüncəm qəlbimlə qəm ortağıdı.
Var olan dünyada mən də varammı?
Bədbəxt bir kəsəmmi, bəxtiyarammı?
Həyatdan, ömürdən tələbim nədir?
Belə yaşamaqda mətləbim nədir?
Cavab gəzməyəndə bu suallara,
Ruhuma toxundun, qəlbimə dəydin...
Nolaydı, sən məni başa düşəydin!

Dünyada insanı duymaqdan böyük,
Gözəllik, səadət tanımıram mən.
İnsanda insana hörmətdən böyük,
Bir qayda, bir adət tanımıram mən.
Niyə təmizliyə Allahım dedim?
Niyə gözəlliyə pənahım dedim?
Kim mənə nemıttək verdi bunları?
Niyə əzizlədim bu qanunları?
Fikrin yan keçəndə bu duyğulardan
Böyük vüqarımı sındırdın, əydin,
Nolaydı, sən məni başa düşəydin!

Bəlkə də çatardım çox arzulara,
Ürəkdə nisgilin azı qalardı.
Ruhumun üstündə köklənə bilsən,
Dünyam bu dünyadan razı qalardı.
Nə dərdim olardı ömür yolunda,
Payıma düşsəydi bu qismət mənim.
Yüz deyil, bəlkə də min yaşayardım

Eşqimi qırmazdı bu həsrət mənim.
Elə yüksələrdim o yüksəkliyə,
Yetişə bilməzdi nə tanrı, nə din,
Nolaydı, sən məni başa düşəydin!

Baş vurdum həmişə ucalıqlara,
Göz nura can atdı, ürək saflığa.
Axar çaya baxdım, qaynar bulağa,
Könül vurğun oldu bu şəffaflığa.
Elə durulmuşam, tufan qopsa da,
Bu saflıq, duruluq bulanan deyil.
Xeyir Günəş kimi başım üstədir,
Şər gəlib dövrəmdə dolanan deyil.
Yel olub yanımdan keçə bilmədi
Nə qeybət, nə həsəd, nə nifrət, nə kin,
Nolaydı, sən məni başa düşəydin!

## DEYİMLƏR

İki ömür verilmir təbiətdə heç kəsə,
Səadətdir bir ömrü şərəflə başa vurmaq.
Daşdan çıxan qığılcım kor eyləyər gözləri,
Ağır olur həyatda baltanı daşa vurmaq!

***

Adam var, zəhərə döndərir balı,
Zəhəri bal edən dodaqlar da var.
Otuz beş yaşında el ağsaqqalı,
Altmış yaşında uşaqlar da var!

***

Baxıb ögey kimi, baxıb yad kimi,
Balanın qəlbinə dəyə bilərmi?
Dörd fəsil şairə dörd övlad kimi –
Hansını çox sevir, deyə bilərmi?!

***

Gəlhagəl çağıdı bu yerdə yazın,
Gəlin, şeirinizi bu yerdə yazın.
Eşqi dərinlərə qəlbində yer var,
Yaman qənimidir bu yer dayazın.

***

Şimşək çaxdı, dolu döydü qorxmadım,
Baxışların buludundan qorxuram.
İnsaf eylə nəğmələrin susmasın,
Dodaqların sükutundan qorxuram.

***

Sevirəm güllərin təbiətini,
Gülün qismətinə bağça, bağ düşüb.
Tikanın bəxtinə çəpərə dönmək,
Qonşunu qonşudan ayırmaq düşüb.

## BAYATILAR

Dillən bayatım mənim,
Ömrüm, həyatım mənim.
Yorulub yolda qalmaz,
Köhləndi, atım mənim.

Dağ qalıb yarı çəndə,
İtirdim yarı çəndə.
Bulaqlar oda döndü
Suyunu yar içəndə.

Qüvvətim, zorum torpaq,
Ocağım, qorum torpaq.
Səndə bir iz qoymasam
Alışsın gorum, torpaq.

Kamanın oxlar məni,
Unutdu toxlar məni.
Bir aca dost olmuşam,
Hər sabah yoxlar məni.

Dedilər bal talandı,
Qoymayın bal talandı.
Baldan ötrü bir ağac
Min yerdən baltalandı.

Ucuz andı,
İçmərəm ucuz andı.
Mənim baha eşqimi
Yar yaman ucuz andı.

Qışdandı,
Soyuqluğu qışdandı.
Belə yara nə deyim?
Yaz söz verdi, qış dandı.

Şeh düşdü göy çəmənə,
Göz vurdu göy, çəmənə.
Ələsgəri çağırdım,
Səs verdi Göyçə mənə.

Bu ay da belə gəldi,
Bu il də belə getdi.
Günüm var selə döndüm,
Günüm var selə getdi.

## AĞILAR

Ağılar, ay ağılar,
Dərdim çətin dağılar.
Min yerdən sinəm üstə
Dağlar çəkdi yağılar.

Çox alıb yaram zədə,
Almadı haram zədə?
Göz açmağa qoymadı,
Oxladı haramzadə.

Nəs aydı,
Çox nəs gündü, nəs aydı.
Mən nə saymaq istədim,
Gör bir fələk nə saydı.

Yol gedəm Ərdəbilə,
Dağ çəkəm dərdə, bilə.
Mən çalam, yar oxuya –
Sim bilə, pərdə bilə.

### İLHAMIN

O gələndə soruşmur,
Varmı yazıb-pozanın.
Gəlişində bahar var,
Qənimidir xəzanın.
Sinəsində tufanı
Nəğməkarın, ozanın.
Dəniz kimi qabarıb
Coşması var ilhamın.

Şirin sözü dolanar
Obaları, elləri.
Ona nəğmə bəstələr
Duyan qəlbin telləri.
Dəyişdirər səmtini,
Dilə tutar selləri,
Bayatısı, laylası,
Qoşması var ilhamın.

Ney yandırar, saz tutar,
Kaman çalar, tar tutar.
Əsirgəməz varını,
Nə qüdrəti var, çalar.
İnamı sal daşları,
Sinəsindən parçalar.
Ən vüqarlı dağları
Aşması var ilhamın.

## BU XALQIN

Oymaq-oymaq eli gəzdim-dolandım,
Fikir verdim hikmətinə bu xalqın.
Yatardımı əl qələmə, dil sözə,
Vurulmasam söhbətinə bu xalqın.

Oylağımdı qarlı dağlar, binələr,
Sərvətimdi söhbət dolu sinələr.
Eşqi dastan, özü nağıl nənələr
Nur yağdırıb ismətinə bu xalqın.

Gərək hər gün əzizlənə, qoruna,
Baş əyəsən ocağına, qoruna.
Qurban olum babaların goruna,
Naxış vurub şöhrətinə bu xalqın.

Sevdiyinə əyri baxmaz dünyada,
Verdiyini başa qaxmaz dünyada.
Otum bitib, suyum axmaz dünyada,
Düçar olsam nifrətinə bu xalqın.

Dədələşib Salur Qazan oğullar,
Tüpdağıdan, Halaypozan oğullar.
Al-qanıyla tarix yazan oğullar
Heykəl qoyub qeyrətinə bu xalqın.

Zirvə qardı, yüksəklərdə qara bax!
Göl güzgüdü, saçlarını dara, bax.
“Nərmə-nazik bayatı”lı Qarabağ
Bir misaldı cənnətinə bu xalqın!

Tavar sazı gəl bağrına yaxşı bas,
O tellərdə həmi toy var, həm də yas.
Ya "Cəngi"yə, ya "Misri"yə qulaq as,
Könül bağla sənətinə bu xalqın.

Yaxşını da, yamanı da tez görür,
Gördüyünü düz tanıyır, düz görür.
Ağıl kəsir, könül duyur, göz görür,
Sözmü çatar qüdrətinə bu xalqın.

Ağrımayan ürək ola, baş ola,
Can sirdaşım torpaq ola, daş ola,
Arzuların sayı qədər yaş ola,
Ömür verəm xidmətinə bu xalqın.

## XALQIM, SƏNİ UCA GÖRDÜM

Xalqım, səni dəniz gördüm – dalğalandın, ləpələndin,
İşıq olub zərrə-zərrə hər ocağa səpələndin.
Xalqım, səni sahil gördüm – sinə gərdin tufanlara,
Neçə-neçə məğrur qaya sinəsindən aldı yara.
Xalqım, səni qaya gördüm – boyu uca, qaməti düz,
Çarpışmalar meydanında sən əbədi, sən ölümsüz.
Xalqım, səni palıd gördüm – şimşək vurdu, paraladı,
Yeri yerdən, göyü göydən, kökü kökdən araladı.
Xalqım, səni bütöv gördüm – bölünsə də yurdun, adın,
Bölünmədi məhəbbətin, bölünmədi istedadın.
Xalqım, səni əsgər gördüm – buraxmadın səngərini,
Unutmadın yerişini, itirmədin ləngərini.
Baxışında bulud görmək məndən ötrü ağır olar,
Dodağında sükut görmək məndən ötrü ağır olar,
Parçaladın o buludu!
Parçaladın o sükutu!
Xalqım, səni uca gördüm – bu ucalıq bəsdi mənə,
Sən varsansa, neyləyəcək düşmənlərin qəsdi mənə!

## FÜZULİ – SABİR

Gözəlliyə, gözələ könlünü bağlayanda
Füzuli “Heyrət” dedi.
Millətinin halına güləndə, ağlayanda
Sabirim “Qeyrət” dedi.
Heyrət ilə qeyrəti yoğurdular, yapdılar.
Bu ölümlü dünyada bir ölməzlik tapdılar!
Hər biri bu həyatda həyat qədər qalası,
Azərbaycan şeirinin
Biri heyrət qalası!
Biri qeyrət qalası!

## MƏNİM DƏRDİM

Demə sənin nə dərdin var,
Dərdli dilim – mənim dərdim.
Əlimdən əliboş gedən
Ayım, ilim – mənim dərdim.

Yox Babəkim, yox Qorqudum,
Çalınmaz qopuzum, udum.
Yurd yerində sönən odum –
Qalan gülüm – mənim dərdim.

Loğman aciz, yara dərin,
Gözüm ağlar sərin-sərin.
Tağı çökmüş Xudafərin,
Sınan belim – mənim dərdim.

Həsrət gördü, boyun bükdü,
Bu Təbrizdi, o Kərkükdü.
Bir daşınmaz ağır yükdü
Daşan selim – mənim dərdim.

Gedəmmirəm yasa, toya,
Tarix buna nə ad qoya.
Mərəndə, Zəncana, Xoya
Çatmaz əlim – mənim dərdim.

Öz evinə qonaq düşən,
Yüz yerinə yamaq düşən,
Yaxın olub, uzaq düşən
Obam, elim – mənim dərdim.

Çənlibelim, çeşməm, çayım,
Unudulan haqqı-sayım,
Kəsilən nərəm, harayım,
Susan dəlim – mənim dərdim.

Saçım ağdı, bəxtim qara,
Tapdaq oldum hər çapara.
Torpaq kimi para-para
Bölüm-bölüm – mənim dərdim.

Qəlbim sinəmdə yasdadı,
Qılıncım qında pasdadı.
Ümidim yenə dostadı,
Ümid yolu – mənim dərdim.

Daha bəsdir, könlüm, ayıl,
Səsin gəlsin, seçil, sayıl.
Yaralanmış Şah İsmayıl,
Sultan Səlim – mənim dərdim.

Mən piyada, kədər atlı,
Mən qanadsız, o qanadlı.
Müşfiq, Cəfər, Vurğun adlı
Vaxtsız ölüm – mənim dərdim.

Saydığını saydı həyat,
Arzularım oldu boyat.
Bax belə gün, belə saat,
Belə zülüm – mənim dərdim.

## YAŞAMIŞAM

Mənə gənc şair demə, çoxdan ötüb gəncliyim,
Heç olmayıb həyatda rahatlığım, dincliyim.
Şeirsiz keçən günüm varlığımda heçliyim,
Şeirimlə bahar ömrü, qış ömrü yaşamışam!

Boy vermiş ağac oldum, budaqlarım budandı,
Varlığıma göz yumub o gizlədi, bu dandı.
Mənim bu dərya səbrim dağ boyda dərd udandı,
Dərdimə dözə-dözə daş ömrü yaşamışam!

Talan olmuş bostanın uraları məndədir,
Dağ-dağ olmuş dağların sıraları məndədir.
Tarixin sağalmayan yaraları məndədir,
Mən bir ömrün içində beş ömrü yaşamışam!

İnadımla daşları yumşaldıb mum eylədim,
Fikrimi, düşüncəmi sağlam toxum eylədim.
Ağappaq varaqları qapqara şum eylədim,
Mən əkinçi taleyi, xış ömrü yaşamışam!

Bəzən vaxtım boş keçib, ömrü hədər vermişəm,
Bəzən gül dodaqlara şən nəğmələr vermişəm.
Məndən sevinc umana həsrət, kədər vermişəm,
Bir gözəl yanağında yaş ömrü yaşamışam!

Dözdüyümə dözəmməz dözüm dərsi keçənlər,
Bu sınaq yollarını keçən fildi, keçən nər.
Məni hərdən çaşdırır bu dumanlar, bu çənlər,
Düz getmək əvəzinə çaş ömrü yaşamışam!

Məni ömrün yolunda çox ölümlər haqladı,
Nə əqidəm sarsıdı, nə inamım laxladı.
Çətin gündə qollarım torpağı qucaqladı,
Ayaqda sürünmədim, baş ömrü yaşamışam!

## BABALAR

Mən sabaha yollanıb dünənimi sevmişəm,
Qorqud olub qopuzla dinənimi sevmişəm.
Kökümü, yeddi arxa dönənimi sevmişəm,
Ömrünü kişi kimi sürdü getdi babalar!

Dərd hücuma keçəndə dumana bürünmədi,
"Düşmənim görər" deyə dumanlı görünmədi.
Papağı günə verib ətəkdə sürünmədi,
Qalasını zirvədə qurdu getdi babalar!

Canda qeyrət, gözdə nur, ürəkdə təpər oldu,
Ləyaqətə bir hasar, namusa çəpər oldu.
Tənə daşı yağanda sinəsi sipər oldu,
Torpağın keşiyində durdu getdi babalar!

Çəkil, ey qarı düşmən, mən doğanam, sən batan,
Qorumasam yurdumu səs itəndi, ün batan.
Atına meydan oldu gündoğanla günbatan,
Bu yorulmaz yolları yordu getdi babalar!

Güldü gücsüzlüyünə "gücümü gör" deyənin,
Yeri yersizlik oldu "mənimdi yer" deyənin.
"Torpağı təslim eylə, şəhəri ver" deyənin
Bir qılıncla boyunu vurdu getdi babalar!

Dedi səslər içində səsim gərək sayıla,
Şeirim, dilim, məsləkim yer üzünə yayıla.
Gah Koroğluya döndü, gah Şah İsmayıla,
Vaxtında öz işini gördü getdi babalar!

Dağın nəyi qaldısa, çiçəkli düzə qaldı,
Ellər nə yaratdısa, hamısı təzə qaldı.
Keçmişin şərəfini qorumaq bizə qaldı,
Qeyrətin çələngini hördü getdi babalar!

## KƏRƏM ÇIRAĞI

*"Qaçaq Kərəm" romanının*
*müəllifi Fərman Eyvazlıya*

Üzülüb piltəsi, əriyib yağı,
Bu sovqat uzaqdan-uzağa gəlib.
Bir nəslin oduymuş Kərəm çırağı,
Təbrizdə alışıb, Qazağa gəlib.

Bir toy məclisindən qalıb yadigar,
Qardaşdan bacıya paydı bu cehiz.
Aylı gecələrin öz aləmi var,
Tutqun gecələrdə Aydı bu cehiz.

Bəlkə, çıraq deyil bu sovqat, bu pay,
Kərəmin köksündə vuran ürəkdi.
Ağrıdan, əzabdan salanda haray,
Böyük bir millətin dərdini çəkdi.

Kim bilir nə qədər alışıb, sönüb,
Onu bir qeyrətli oğul yandırıb.
Onun hər zərrəsi ulduza dönüb,
Dünəni, keçmişi işıqlandırıb.

Kərəmi kəsilmiş zalım dövranın,
Kərəmsiz vaxtında doğulub Kərəm.
Verdiyi çırağın işığı kimi,
Nur olub, hər yana dağılıb Kərəm!

Həyatda nə qədər dərd yeyib insan,
Hələ çox arzular pərən-pərəndi.
Bu çıraq dünəni bizə tanıdan,
Bu çıraq sabaha yol göstərəndi.
Yan, Kərəm çırağı, başımın üstdə,

Mənə o keçmişi, dünəni göstər.
Sən yanmaq eşqində, mən də həvəsdə,
Göstər, yeddi arxa dönəni göstər.

Göstər keçmişimi, görüm necə var,
Dünyam bu dünyada itib-batmasın.
Bu gün öz başından tarix yazanlar,
Məni uşaq kimi qoy aldatmasın!

Yan başım üstündə, Kərəm çırağı,
Yan, mənim körpəmin gözlərində yan.
Övladdır gözümün qarası, ağı,
Təzəcə dil açan sözlərində yan!

Hər evdə bir qeyrət çırağı yansa,
Elin daşımağa olmazdı dərdi.
Qırğınlar kəsilib, qanlar dayansa
Xalq öz taleyini bayram edərdi.

Yan Kərəm çırağı, böyüsün ürək,
Nurun həm o taya, həm bizə düşsün.
Hər dəfə yananda elə şölə çək,
İşığın Bakıdan Təbrizə düşsün!

Doğur ulduzumuz, yanır Ayımız,
Günəşdən dünyanın başında tac var.
Həyat işığından boldur payımız,
Qeyrət işığına bir ehtiyac var!

Nurlanır bir ömrün şərəfi, şanı,
Diləklər gül açır, yaz olur bu gün.
Kərəmin haqqında Kərəm dastanı
Kərəm çırağında yazılır bu gün!

## MEYDAN HƏQİQƏTİNDİR

Xalq ilə görüşməyə üzü olan oğullar,
Xalq ilə danışmağa sözü olan oğullar,
Xalqın beyni, ürəyi, gözü olan oğullar,
Meydan sizindir bu gün!

Bu torpağın odunu yer üzünə yayanlar,
Yurdun hər qarışını göz bəbəyi sayanlar,
Məsləkdə Nəsimiyə, Babəkə oxşayanlar,
Meydan sizindir bu gün!

Qanı təmiz, qəlbi saf, eşqi duru olanlar,
Çöhrəsində, üzündə haqqın nuru olanlar,
Canında el qeyrəti, dağ qüruru olanlar,
Meydan sizindir bu gün!

Ocağa keşik çəkən, gül qoruyan kimsələr,
Bəd nəfəsdən, yad gözdən el qoruyan kimsələr,
Dillərin hücumundan dil qoruyan kimsələr,
Meydan sizindir bu gün!

Nə bəxşişdir, nə paydır, nə hədiyyə, nə sovqat,
Zəhmətin bahasıdır bizə verilən həyat.
Qartal vətəndaşlarım, qeyrətlə çalın qanad,
Meydan sizindir bu gün!

Vəzifəyə, şöhrətə satılanlar, satanlar,
Böyüklər kölgəsində xumarlanıb yatanlar,
Xalqı güdaza verib aralığı qatanlar,
Tərk edin bu meydanı!

Tufanda gəmi gərək, qayıq olmaq çətindir,
Mürgülü başlar üçün ayıq olmaq çətindir,
Layiqli bir millətə layiq olmaq çətindir,
Tərk edin bu meydanı!

Dar gündə qılıncınız, sipəriniz yoxdusa,
Dağı, daşı tərpədən təpəriniz yoxdusa,
Şadlığımdan, yasımdan xəbəriniz yoxdusa,
Tərk edin bu meydanı!

Bir həqiqət çıxmasın fərsizlərin yadından,
Cəsarət tələb edir Vətən hər övladından,
Utanın Koroğlunun, Xətainin adından,
Tərk edin bu meydanı!

Öz işini görməmiş boşuna axmaz zaman,
Heç bir kəsin başında nahaqdan çaxmaz zaman,
Cəlladın qəbrini də rahat buraxmaz zaman,
Tərk edin bu meydanı!

Bilirəm sizdən ötrü,
Bu şöhrəti, bu adı,
Bu ləzzəti, bu dadı,
Maşınları, bağları,
Rəngarəng otaqları,
Göyçək katibələri,
Saymaq ilə tükənməz
Nələri və nələri...
Tərk eyləmək çətindir,
Tərk edin bu meydanı,
Meydan həqiqətindir!

## MƏNƏ ÜMİD KİMİ BAX

Mənə ümid kimi bax – doğruldum gümanını,
Mənə işıq kimi bax – dağıdım dumanını!
Mənə inam kimi bax – sinə gərim çətinə,
Mənə sevgi kimi bax – dönüm məhəbbətinə!
Mənə səhər kimi bax – çevrilim sabahına,
Mənə sevinc kimi bax – nöqtə qoyum ahına!
Mənə bahar kimi bax – yaşıllanım, allanım,
Mənə payız kimi bax – şirələnim, ballanım!
Mənə həyat kimi bax – hər gün qaynayım, daşım,
Bax, mənə necə baxır atam, anam, qardaşım.
Nə qədər ki baxırsan mənə barmaqarası,
Qəti sağalan deyil ürəyimin yarası!
Demək, qəlbimdə kədər, demək, sinəmdə dağsan,
Bu gedişlə, ey insan,
Nə mən yüksələcəyəm, nə sən ucalacaqsan!

## AZƏRBAYCAN TORPAĞIYAM

Bu dağ mənim öz dağımdı,
Mən bu dağın bulağıyam.
Çəmənində közə dönmüş
Şöləlenmiş çırağıyam.

Bu daş mənim öz daşımdı,
Öz tarixim, öz yaşımdı.
Qaya məğrur qardaşımdı,
Onun səsi, sorağıyam.

Bu yol mənim öz yolumdu,
O tay – bu tay sağ-solumdu.
Xəzər sinəm, Kür qolumdu,
Xan Arazın fərağıyam.

Seçməliyəm tükdən tükü,
Ağırdı çiynimin yükü.
Köküm Dədə Qorqud kökü,
Qaracoğlan bulağıyam.

Deməsinlər gəldi-gedər,
Keçirmərəm ömrü hədər.
Öləndə də qəbrim qədər
Azərbaycan torpağıyam!

## SIĞINNAM

Ana deyib təbiətin adına,
Bala kimi o qucağa sığınnam.
Arzularım çiçəklərlə öpüşər,
Bağban olub yaşıl bağa sığınnam.

Avaz şirin, mahnı təzə, nəğmə tər,
Ay işıqdı, Günəş nurdu, şəfəq zər.
Dan yerindən göz vuranda şəfəqlər,
Şehə dönüb bir yarpağa sığınnam.

Yaz göyləri, qış yuvası yaxşıdı,
İsinməyə quş yuvası yaxşıdı.
Qaya evi, daş yuvası yaxşıdı,
Qartal olub qarlı dağa sığınnam.

Həm yazına, həm qışına qurbanam,
Addımına, qarışına qurbanam.
Vaxt gələndə "beş arşın"a qurbanam,
Yatmaq üçün nazik ağa sığınnam.

Ondan əziz məskənim yox, yuvam yox,
Ürəyimdə həsrətinə davam yox.
Ondan ayrı odum, suyum, havam yox,
Sığınanda bu torpağa sığınnam!

## BU TORPAQDA İZİM QALA

Bu torpaqda izim qala,
Naxış olam kaş daşına.
Oğul kimi arxalanam,
Dönəm xalqın yaşdaşına.

Bir hay verəm harayına,
Bu tayından o tayına.
Yola dönəm – sarayına
Sinəm üstdən daş daşına.

Mən bələdəm dağ-dağ ona,
Dözəmmərəm dağ dağına.
Bir arxadı dağ, dağına,
Yaraşıqlı daş, daşına.

Yaşar könlüm min həvəsdə,
Sarsılmaram son nəfəsdə.
Qara daşı qəbrim üstdə
Qoy çevrilsin başdaşına!

## ŞUŞADA OXUNAN ŞEİR

Babam qurdu qalasını,
Nişan qoydu sabahına.
Neçə nəsil pənahlandı
Pənah xanın pənahına!

Qanı qarışdı tərinə,
Eşqi kök atdı dərinə.
Dağlar döndü səngərinə
Daşlar döndü silahına!

Kimlər bəzədi kaşımı,
Yerin, göyün nəqqaşımı?
Mən vermərəm bir daşımı
Dünyanın yüz mətahına!

Vurulmasam naxışına,
Həm yazına, həm qışına,
Qarşı gəlim qarğışına,
Ürcah olum mən ahına!

İşıqlandı ömrü nurda,
Heykəl oldu Vaqif burda,
Bağlanmasa kim bu yurda,
Batar elin günahına!

Şir bəslədi hər daş kaha,
Baş əymədi xalqım şaha.
Hər kim düşsə bu iştaha
Şiş batırsın tamahına!

Meydan sular bir imansız,
Dişi qanlı, özü qansız,
Get, tapşırdım, ey Allahsız,
Mən səni öz Allahıma!

## BAĞIŞLAMAZ

Ayrı saldıq öz kökündən, gövdəsindən,
Sınan budaq daha bizi bağışlamaz.
Əsən mehlə, qonan şehlə öpüşməmiş
Solan yarpaq daha bizi bağışlamaz.

Budaqlar yox, qıran qollar sınaydı kaş,
Həlim idik, zalımlaşdıq yavaş-yavaş.
Coşan kimi daş tıxadıq, gözünə daş,
Susan bulaq daha bizi bağışlamaz.

Zirvələrə baxan çoxdu, çıxan azdı,
Sərt yollarda kimi çaşdı, kimi azdı.
Kirli əllər ağ kağızda böhtan yazdı,
Qələm, varaq daha bizi bağışlamaz.

Aman, könül, yaxın qoyma daha yadı,
İki qardaş öz xoşuna ayrılmadı.
Qılıncımız məqamında sıyrılmadı,
Paslı yaraq daha bizi bağışlamaz.

Tufan gəldi, sinəmizi gərəmmədik,
Ağac əkdik, meyvəsini dərəmmədik.
Ata olduq, səhvimizi görəmmədik,
Oğul-uşaq daha bizi bağışlamaz.

Bu torpağın altı getdi, üstü getdi,
Yox eylədik, sərvət bizdən küsdü getdi.
Yuvamızdan od dağıldı, isti getdi,
Küsən ocaq daha bizi bağışlamaz!
Ana torpaq daha bizi bağışlamaz!

## AMAN, ALLAH

Adəm bir buğda yemişdi,
İndi zəmi yeyənlər var.
“Ac qalmışam” deyə-deyə
Bu aləmi yeyənlər var,
İştaha bax, aman Allah!

Daş da olsa əridəsi
Başdan hündür qarınlar var.
Hazırına nazir olan
Qarın yüklü harınlar var,
Tamaha bax, aman Allah!

Bircə qarış torpaq üstə
Öldürənlər, ölənlər var.
Xalqı alıb çörək kimi
Tikə-tikə bölənlər var,
Günaha bax, aman Allah!

Bir əjdaha ağız açıb,
Çaylar ona bəs eləmir.
Hələ ki ağzı sudadı,
Çox hündürdən səs eyləmir,
Timsaha bax, aman Allah!

Bu dəyirman dəni yedi,
Keçib bizi üyütməyə.
Basılmalı düymələr var,
Dərdimizi böyütməyə,
Silaha bax, aman Allah!

Qurdalasa, qurdu çıxar,
Dərinə getmək istəmir.
Üzü yerdən elə dönüb
Bizi eşitmək istəmir.
Allaha bax, aman Allah!

## ÖYÜNMƏSİN

Başa qapaz, üzə şillə,
Döşə yumruq, gözə güllə
Kim vurursa öyünməsin!
Dilə qıfıl, ələ zəncir,
Kürəyə yük, qola kəndir
Kim vurursa öyünməsin!
Elə zərbə, xalqa təpik,
Boş şöhrətə yersiz çəpik
Kim vurursa öyünməsin!
Yersiz gəlib yer tutanlar,
Göysüz gəlib göy tutanlar,
Cəmiyyətə toy tutanlar
Öyünməsin!
Öyünməsin!
Unudulmur bu dünyada
Nə toy günü, nə yas günü!
Qiyamətə qala bilməz
Qisas günü!!!

## TORPAQ

Göz yetirdim, könül verdim
Yurdumun hər qarışına.
Ürək dedi: "Uzaq durma,
Qayna ona, qarış ona".

At oynatdım eldən-elə,
Duyğularım döndü selə.
Yağı düşmən ölsə belə
Verməram bir qarış ona.

Vuruş-barış, qılınc-qalxan,
Gör nələri görüb insan.
Tarixləri yazıb zaman
Qayaların qırışına.

Çiçəyi nur, çəməni zər,
Sözü təzə, nəğməsi tər.
Torpaq özü həyat verər
Torpağına qarışana!

## GÖZƏLDİR

Payız kövrəldəndi, bahar coşduran,
Məni sərt eyləyən qış da gözəldir.
"Ürəyin daşdırmı" – demə, ay insan,
Duymağı bacarsan, daş da gözəldir.

Bir gözəl çıxanda çəmənə, düzə,
Fikir ver yanağa, nəzər sal üzə.
Gözəllik baxarmı əyriyə, düzə,
Demə ki, əyridi, qaş da gözəldir.

Zəlimxan, olmasın nə ah, nə aman,
Kədərdən ağlamaq yamandır, yaman.
Sevincin qəlbini dolduran zaman
Yanaqdan süzülən yaş da gözəldir.

## ÇƏKƏR

Görüş var, bir ömrü versən də azdır,
Görüş var, getməyə adam can çəkər.
Görüş var, şadlığı sığmır illərə,
Görüş var, fərəhi bircə an çəkir.

Yaşasan ən şirin arzuyla, kamla,
Sevincin sel olar, dərdinsə damla.
Ürəkdən verilən xoş bir salamla
Əli əl isidər, qanı qan çəkər.

Ayrılıq həyatda hər şeydən çətin,
Min bir əzabı var bir məhəbbətin.
Gəlməzsən, yandırar məni həsrətin,
Gələrsən, nazını Zəlimxan çəkər.

## BİLSƏYDİM...

Bilsəydim qanımı qaraldacaqlar,
Bilsəydim səbrimi daraldacaqlar,
Min dəfə qəlbimdə su bulandırıb,
Bir dəfə halımı duruldacaqlar,
Heç enib gəlməzdim o ucalıqdan!

Qartalı sərçəyə döndərən də var,
Zirvədən dərəyə endirən də var,
Kişilər yurd salar, ocaq yandırar,
Bilsəydim ocağı söndürən də var,
Heç enib gəlməzdim o ucalıqdan!

Bazarın min adda nırxı varıymış,
Hər nırxın bir cürə çarxı varıymış,
Birsifət görmüşdüm mən adamları,
Bilsəydim otuzu, qırxı varıymış
Heç enib gəlməzdim o ucalıqdan!

Yalan boğaz olub doğa bilərmiş,
Kül olub başlara yağa bilərmiş,
Bilsəydim qeybətlər, dedi-qodular
Tutub adamları boğa bilərmiş,
Heç enib gəlməzdim o ucalıqdan!

Ağlı kəsə-kəsə haqqı danan var,
Bütöv ola-ola xırdalanan var,
Bilsəydim papağı günə yandırıb
Elə boş-boşuna qurdalanan var,
Heç enib gəlməzdim o ucalıqdan!

Dağlarda mərdliyin mülkü varıymış,
Saflığın əzəli, ilki varıymış.
Çöllərdə görmüşdüm, şəhər içində –
Bilsəydim bu qədər tülkü varıymış,
Heç enib gəlməzdim o ucalıqdan!

Əzdi, tapdaladı, əzildi insan,
Əzilə-əzilə üzüldü insan.
Ürək sındırmağa, könül qırmağa
Bilsəydim bu qədər rəzildi insan,
Heç enib gəlməzdim o ucalıqdan!

Dağda daş olardım, zirvədə qaya,
Qalxardım Günəşə, uçardım Aya.
Bilsəydim bu qədər yerdə günah var,
Göylərdən baxardım mən bu dünyaya,
Heç enib gəlməzdim o ucalıqdan!

Bəlkə düz demədim... mən – sel axarı,
Gəlmişəm, gedirəm üzü bahara.
Gəlmişəm qəhr edim alçaqlıqları,
Qaldırım yurdumu ucalıqlara!!!

## TÜSTÜ

Mən səni yandırdım, nə gördüm, ey şam,
Gördüm alovunu, istini gördüm.
Qıymadım sübhədək əriməyinə
Elə ki, söndürdüm, tüstünü gördüm.
Başıma dolandı Kainat, aləm,
Qanadım qırıldı, qolum kəsildi.
Üstümə yeridi qayalı dağlar,
Elə bil hər yandan yolum kəsildi.
Çox nahaq söndürdüm, çox nahaq səni,
Dünyanın qəribə qanunu varmış,
Yananlar vədəsiz söndürüləndə
Başından həmişə tüstü çıxarmış!

## LƏYAQƏT

Salonlar görmüşük biz, buz nəfəsli salonlar,
Bir nakəsi mədh edib, öyüblər, əl çalmışıq.
Ağlımız kəsə-kəsə, gözümüz görə-görə
Qəhrəman bir oğulu döyüblər, əl çalmışıq.

Dad-tamını görmüşük hər ağrının, acının,
Hər üzünü göstərib həyat ehtiyacının.
Haqqa əli çatmayan neçə ana-bacının
Gününü göy əsgiyə düyüblər, əl çalmışıq.

Dayan, qafil, fikirləş! Göymü yerə alçalıb,
Doğrudanmı el-oba başdan-başa əl çalıb?
Doğrudanmı əl çalıb qəhrəmanlar, ərənlər?!
Alqışlar arxasında zülmətləri görənlər?!

Heç inana bilmirəm, inanmıram mən nəsə,
Əqidə sahibləri məsləki qurban kəsə.
Biləkdən üzsələr də əl çalmazdı o əllər!
Dilənməzdi, enməzdi, alçalmazdı o əllər!

Başkəsənə baxmayıb baş ucaldan oğullar,
Çiynində bir millətin şərəfini daşıyıb.
Nə yaxşı ki, dünyada vaxtı vermədən bada
Müşfiqlərim yaşayıb, Cavadlarım yaşayıb!

Sarsıdıb sındırıblar polad kimi mərdləri,
Bir könül necə tutub dərya-dərya dərdləri?
Yumşalda bilmədilər kəskinləri, sərtləri,
Döndü dəmir yumruğa, həqiqət alçalmadı!

Tapdadılar Vətənin çörəyini, duzunu,
Söndürdülər səmanın ayını, ulduzunu.
Cavidlərim əritdi tayqaların buzunu,
Satqınlığın önündə cəsarət alçalmadı!

Ən böyük inamları ən sərt zərbələr yedi,
Duz-çörək əvəzinə aclar qəm-kədər yedi.
Söyüş... təhqir... ay Allah, insanlar nələr yedi,
Son nəfəsdə, son anda ləyaqət alçalmadı!

Qəbristandan keçirəm, qarşıda yüz-yüz məzar,
On deyil, on beş deyil burda basdırılanlar.
Qəbristana baxıram, xəyanət də qəbirdə,
Kin-küdurət, ədavət, şan-şöhrət də qəbirdə.
Bəs ləyaqət? Göyə bax, göydə bir qartal süzür,
Qanadlarında qüdrət, baxışlarında cürət,
Səmaların hakimi o qartaldır ləyaqət!
Kəssən qanadlarını, qartal bəlkə alçalar,
Heç bir zaman alçalmaz bir amaldır ləyaqət!

## SANDAL GƏMİYƏ DÖNDÜ

*Yelkənim açılır, qara yel, əsmə,*
*Mənim bu dəryada bir sandalım var!*
**M. Müşfiq**

***Xəzər dənizində "M. Müşfiq" gəmisi üzür***

Eşidəndə gözlərimdə sevinc yaşı gilələndi,
Bu şad xəbər dodaqlarda müjdə kimi gəzər, Müşfiq!
Arzuların yelkən kimi tufanlara gərər sinə,
Dənizlərdən dənizlərə hey üzdükcə üzər, Müşfiq!

Azdırammaz bu səfərdə çiskin səni, duman səni,
Gülə-gülə sahilə gəl, qarşılasın liman səni.
Şeriyyətin odürəkli oğlu saydı zaman səni,
Qoy qızınaq atəşinə, alış, alış, közər, Müşfiq!

Ömrün-günün yollarında yoxuş olur, eniş olur,
Vaxt gələndə nahaq susur, haqqa doğru dönüş olur.
Dəniz qoynu, el ürəyi, haqq meydanı geniş olur,
Bu genişlik səninkidir, tərlan eşqin süzər, Müşfiq!

Ürəyində ana yurdun ən müqəddəs diləkləri,
Ətir payla, təravətin məst eyləsin çiçəkləri.
Öz səsinlə, avazınla oxu yenə "Küləklər"i,
Şeirsiz, nəğməsiz, sözsüz qəlbim çətin dözər, Müşfiq!

Dünyada ad, həyatda dost, döyüşdə ər xatırlanır,
Əməli saf, fikri təzə, nəğməsi tər xatırlanır.
Öz xalqına qızıl kimi söz deyənlər xatırlanır,
Sözdən uca, sözdən baha nə qızılmış, nə zər, Müşfiq!

Bulud axar, şimşək çaxar, yağış yağar, şeirə dönər,
Dan sökülər, nur süzülər, günəş doğar, şeirə dönər.
Sonsuzluğun özü belə qəlbə sığar, şeirə dönər,
Ruhun, eşqin nəğmələrdə dünyamızı bəzər, Müşfiq!

Qara saçlı gənc olasan, sinən dolu sərvət ola,
İliyində, damarında ilahi bir qüdrət ola,
İnanmıram bu səadət hər şairə qismət ola,
Layla çaldı göy dalğalar, anan oldu Xəzər, Müşfiq!

## QORUYUN İNSANLARI

Kəlməsindən bal damar dili ballar içində,
Özü də müdrikləşər ağsaqqallar içində,
Başı bəlalar çəkər qeylü qallar içində,
Görməmiş gədələrdən qoruyun insanları!

Soyudar öz işindən sənətkarın əlini,
Gethagedə döndərər xalqın gəlhagəlini,
Qırar hər köntöy baxış bir sevginin belini,
Qəfləti zədələrdən qoruyun insanları!

Çağırmayın məclisə hər nadanı, alçağı,
Fitnələrin əlində üzülər ömrün tağı,
Azmı görüb gözlülər şərbət içində ağı,
Zəhərli badələrdən qoruyun insanları!

Yoxsa ədalət, divan, yaxşı, yaman çaş düşər,
Duyanların gözündən qan süzülər, yaş düşər.
Ömrünün sarayından kərpic enər, daş düşər,
Amansız hədələrdən qoruyun insanları!

## AĞRI

Nələr çəkdik dünya sənin əlindən,
Sinəmizin düyünü çox, dağı çox.
Bəxtimizin ağlığına inanma,
Saçımızın qarası az, ağı çox.

Canımızı dərdin odu yandırır,
Zodluların gücü, zodu yandırır.
Dilimizi dedi-qodu yandırır,
Ömrümüzə qənim çoxdu, yağı çox.

Su istədi yananların bağrı, su,
Ağrı Vətən, ağrı Torpaq, ağrı Su.
Qananların ürəyinin ağrısı,
Nadanların ürəyinin yağı çox.

## SUAL-CAVAB

### 1. İnsanın sualı

Öz yerində ağlın, huşun varıydı,
Nə savaşın, nə vuruşun varıydı,
Sağlam ruhun, tox duruşun varıydı,
Dünya, səni bu günlərə kim saldı?

Hardan çıxdı haramlılar, oğrular,
Tərsə döndü həqiqətlər, doğrular,
Neçə yerdən baş qaldırdı ağrılar,
Dünya, səni bu günlərə kim saldı?

Həm buğdalar, həm Adəmlər çoxaldı,
Gözdə yaşlar, canda qəmlər çoxaldı,
Cənnətində cəhənnəmlər çoxaldı,
Dünya, səni bu günlərə kim saldı?

Fatehlərin zorudumu günahkar,
Tamahkarın torudumu günahkar,
İsrafilin surudumu günahkar,
Dünya, səni bu günlərə kim saldı?

Yer titrədi, yerli-yersiz hay-haray,
Əlimizdən gün dad çəkdi, Ay haray,
"Tüfəng çıxdı, mərdlik getdi, ay haray!"
Dünya, səni bu günlərə kim saldı?

Sənin dərdin nə ikidi, nə birdi,
Ümid yerin təsəllidi, səbirdi,
Səbirin də son mənzili qəbirdi,
Dünya, səni bu günlərə kim saldı?

Atan yoxdur şimşək kimi çaxmağa,
Anan yoxdur göz yaşını sıxmağa,
Nə qaldı ki, axırına çıxmağa,
Dünya, səni bu günlərə kim saldı?

**2. Dünyanın cavabı**

Niyə mənə bu sualı verirsən?
Səpdiyindi, bəhrəsini görürsən.
Cilddən-cildə, dondan-dona girirsən,
Sən qoymusan məni yaman günlərə.

Yurd dağıtdın, dağ doğradın, daş kəsdin,
Bir əkməmiş baltaladın, beş kəsdin.
Cəllad oldun, qan uddurdun, baş kəsdin,
Sən qoymusan məni yaman günlərə.

Qalalarım qaya-qaya söküldü,
Körpülərim kərpic-kərpic töküldü.
Dağlarımın məğrur qəddi büküldü,
Sən qoymusan məni yaman günlərə.

Daşa tutdun, nizə vurdun, ox atdın,
Güllələri ürəyimə çox atdın.
Gündən-günə öz dərdini çoxaltdın,
Sən qoymusan məni yaman günlərə.

Ana oldum, övlad ola bilmədin,
İstəyimə qanad ola bilmədin.
Tamahından azad ola bilmədin,
Sən qoymusan məni yaman günlərə.

Mənim idin, bir vaxt mənim olmusan,
İndi dönüb mənə qənim olmusan.

Göydə ahım, yerdə çənim olmusan,
Sən qoymusan məni yaman günlərə.

Xilas üçün cığırın yox, yolun yox,
Harayıma çata bilən əlin yox.
Daha mənlə danışmağa dilin yox,
Sən qoymusan məni yaman günlərə.

## YAŞAMAQ

İgidi atından ayrı sal – yaşamaz,
İnsanı zatından ayrı sal – yaşamaz,
Ürəyi odundan ayrı sal – yaşamaz,
Çinarın ruhunu, palıdın kökünü
Torpağın qatından ayrı sal – yaşamaz!

Dədələr Qorqudtək dədəni yaşadar,
Gələni itirməz, gedəni yaşadar.
Vətəndaş olanlar Vətəni yaşadar,
Qeyrətli dünyanı çiyində gəzdirər,
Qeyrətsiz nə səni, nə məni yaşadar!

Oğul ol, od qoru, ocağın yaşasın,
Kökünə arxalan, budağın yaşasın.
Məsləkə sirdaş ol, bayrağın yaşasın,
Günəş ol, səhəri sevgiylə qarşıla,
Yağış ol, yerə hop, torpağın yaşasın!

## OYATDIN

*"Göyçəlilər, dağılmayın Göyçədən"*
*şeirinin müəllifi Hüseyn Arifə*

Hüseyn Arif, Göyçə dindi dilində,
Zodda Zodu, Cildə Cili oyatdın.
Yurd itirmək qorxusu var ellərin,
Yurdda yurdu, eldə eli oyatdın.

Bulağım var, sularından içilməz,
Yollarım var, çən-dumandan seçilməz.
Bizdən bizə uçurumlar keçilməz,
Gözlərimdən axan seli oyatdın.

Bu həsrətdən az yanmadı bağrım, az,
Necə deyim canım sağdı, ağrım az.
Bu nisgildən kimin qəlbi ağrımaz,
Qəlbimdəki hər nisgili oyatdın.

Neçə-neçə həqiqətim nağıldı,
Çox ocaqlar yandı, söndü, dağıldı.
Ürəyimdə dərd təzədən doğuldu,
Zildə bəmi, bəmdə zili oyatdın.

Daşınmasa bu qayğılar, bu yüklər,
Gözümüzdə xırdalanar böyüklər.
Lələ köçüb, Kərəmsizdi gədiklər,
İtən səsi, batan dili oyatdın.

Yada düşdü dostum, yadım, ay ustad,
Təmiz eşqim, halal adım, ay ustad.
Şəhriyarı xatırladım, ay ustad,
Bu sahildə o sahili oyatdın.

Haqqa tapın, ömür vermə qəmlərə,
Zaval yoxdu özüllərə, himlərə.
Yana-yana mizrab çəkdin simlərə,
Lal pərdəni, susan teli oyatdın.

Borçalım da Göyçəm kimi yaralı,
Ovçu vurub, qan aparır maralı.
İstəyimdən aralıyam, aralı,
Ürəyimdə yatmış fili oyatdın.

Zəlimxanam, var meydanım, var atım,
Susa bilməz daha "Cəngi"m, "Heyratı"m.
Mənzil kəsdi, dağlar aşdı Qıratım,
Koroğlunu, Çənlibeli oyatdın.

## MÜQƏDDƏS YOLLAR

Dəniz üzənlərindir,
Dəliqanlı dalğalar
Qolsuzlar üçün deyil!
Vətənin hər parçası
Yurdu sevənlərindir,
Elsizlər üçün deyil!
Yaradana yaxşı yol,
Yaşadana yaxşı yol,
Müqəddəsdir bu yollar.
Yolu hörmətdən salan
Yolsuzlar üçün deyil!

## KÖÇ

Demə işdi görərik,
Tezimiz, gecimiz var.
Çək tədbiri, dur gedək,
Nə qədər görülməmiş,
İşimiz, gücümüz var.
Şair, sözünlə bəzə,
Bu torpağın üstünü.
Bir gün torpaq altına,
Əbədi köçümüz var!

## TORPAQ MƏNİ YAMAN ÇƏKİR ÖZÜNƏ

Son payızın çiçəyinə dönmüşəm,
Torpaq məni yaman çəkir özünə.
Kövrəklərin kövrəyinə dönmüşəm
Torpaq məni yaman çəkir özünə.

Boran görmüş Lələ mənəm dünyada,
Kərəm çəkən nalə mənəm dünyada.
Yazıq Qərib elə mənəm dünyada,
Torpaq məni yaman çəkir özünə.

Qartal çəkir, qaya çəkir, daş çəkir,
Gül anamın gözündəki yaş çəkir.
Fikrim hər gün doğma yurda baş çəkir,
Torpaq məni yaman çəkir özünə.

Qalmır canda nə dözümüm, nə tabım,
Boş hay-küydən nə tapmışam, nə tapım.
Gündən-günə çoxaldıqca əzabım,
Torpaq məni yaman çəkir özünə.

Görüşəndə ləzzətini çəkirəm,
Ayrılanda həsrətini çəkirəm,
Vuruşanda qeyrətini çəkirəm,
Torpaq məni yaman çəkir özünə.

Çaylağı da, çəməni də mənimdi,
Qürbəti də, vətəni də mənimdi,
Bələyi də, kəfəni də mənimdi,
Torpaq məni yaman çəkir özünə.

Gözdə çiskin, dağda duman çoxalır,
Məndən küsən, məndən uman çoxalır,
Qəbirlərin sayı yaman çoxalır,
Torpaq məni yaman çəkir özünə.

## ETİRAF

Gəlib düşdüm genişlikdən darlığa,
Neylədisə mənə şəhər eylədi.
Sığışmazdım yerə, göyə, varlığa,
Şəhər məni lap birtəhər eylədi.

Qəlbim, ruhum təmiz deyil, saf deyil,
Tüstülərdən, dumanlardan göz açmır.
Qələmim də zəhərlənib elə bil,
Neçə vaxtdır çiçəklərdən söz açmır.

Dar qəfəsdə könül gəlməz həvəsə,
Dar küçəyəm, dar döngəyəm, dar dalan.
Bu dərdimi söyləmərəm heç kəsə,
Kimdi burda dərd dağıdan, dərd alan.

Mən şəhərdə, xalq əkində, biçində,
Torpağıma bənd olmağım gözəlmiş.
Şəhər oldum bu şəhərin içində,
Kəndə dönüb kənd olmağım gözəlmiş!

## ARAZ KƏNARINDA

Hər yerdə dağları yaşıl görmüşəm,
Araz kənarında sarıdı dağlar.
Burda ürəyimin dağı, düyünü,
Burda saçlarımın qarıdı dağlar.

Can atdım qoynuna, uça bilmədim,
Heç nəyi görüşdən uca bilmədim.
Açdım qollarımı, quca bilmədim,
Yetim uşaq kimi zarıdı dağlar.

Göynədi səsimdən hər daş, hər qaya,
"Araz, Araz" deyib yalvardım çaya.
Dedim yaylığımı apar o taya,
Bəlkə, yarasını sarıdı dağlar.

Könül nəğməsini endirməz pəsə,
Verərəm canımı can deyən kəsə.
Dilindən öpərəm, hər kim söyləsə,
"Daha taleyindən yarıdı dağlar!"

## MƏNDƏ DEYİL

Həsrət qılınc oynadır,
Tanrıya bəndə deyil.
Meyli hey zəhərədir,
Şəkərə, qəndə deyil.

Qışam, qarım əriməz,
Daşam, bəxtim yeriməz.
Ağlayanım kiriməz,
Ruhum bədəndə deyil.

Burda çəkirəm ahı,
Orda dərdimin şahı.
Dünya, bütün günahı
Bizdədi, səndə deyil.

Ara yaman qarışdı,
Dost küsdü, yad barışdı.
Aramız bir qarışdı,
Vüsalım gendə deyil.

Nur sevməkdi adətim,
Kim qarğadı mənə, kim.
Nurdadı səadətim,
Dumanda, çəndə deyil.

Günah dalınca günah,
Açılmaq bilmir sabah.
Təbrizə bax, ay Allah,
Mənimdi, məndə deyil!

## QARDAŞIM

Bölən bizi yaman böldü, qardaşım,
Bu həsrətdən ağrı qaldı sinəmdə.
Dərd var, gəzib dərmanını tapmışam,
Dərd var, elə dağlı qaldı sinəmdə.

Zaman-zaman tarix mənlə öc oldu,
Güvəndiyim qolumdakı güc oldu.
Qapı var ki, açılsa da gec oldu,
Çox qapılar bağlı qaldı sinəmdə.

Duman olar yollarımdan çəkilməz,
Əlləşərəm, qəmin qəddi bükülməz.
Həsrətimin qalaları sökülməz,
Köklü qaldı, tağlı qaldı sinəmdə.

Yağı məni heç susdura bilmədi,
Zərbə vurdu, ləkə vura bilmədi.
Əyri gəldi, yuva qura bilmədi,
Düz yaşadı, doğru qaldı sinəmdə.

## ARAZ ÜSDƏ

Araz üstdə bir ah çəkdim, ay ellər,
Araz görən nisgilimi duydumu?
Bir görəydim bu amansız ayrılıq
Dağ çəkməmiş bircə sinə qoydumu?

Nə düşünür yurdun oğlu, bilmirəm,
Korlaşdımı hissi, ağlı, bilmirəm.
Yollar bağlı, sinə dağlı, bilmirəm
O tərəfdə matəmdimi, toydumu?

Xəzinəsi yad ellərdə paylanır,
Məlhəmsizdi, yaraları hoylanır.
Mənə sarı neçə şəhər boylanır,
Təbrizdimi, Mərənddimi, Xoydumu!

Qan uddurdun neçə-neçə mərdə sən,
Güc qoymadın igiddə sən, ərdə sən.
Saldın bizi bir çəkilməz dərdə sən,
Zalım həsrət, istədiyin buydumu?!

## KİMDİ

*Məşhur türk aşığı Şimşəkoğlunun*
*lent yazılarını dinlərkən*

Şimşəkoğlu, səsindəki oda qurban,
Yandırırsan, yanan kimdi, sönən kimdi?
Kimlər sənə vədə verdi, yalan çıxdı,
İlqar verib, ilqarından dönən kimdi?

Bu səsdimi, haraydımı, nalədimi,
Yanmış Kərəm, qara batmış Lələdimi,
Daşıdığın dağdan ağır şələdimi,
Qəm altında boyun büküb, sinən kimdi?

Bəlkə, Qırat yəhərsizdi, nalı yoxdu,
Bəlkə, daha qızbirçəkli yalı yoxdu,
Bəlkə, daha Koroğlunun halı yoxdu,
Qocalanda dəli köhlən minən kimdi?

İncitdimi Xotkar səni, paşa səni,
Çəkdilərmi bərkə səni, boşa səni,
Qərib olmaq döndərdimi daşa səni,
Yenilməyən qeyrətini yenən kimdi?

Dilindəki layladımı, ağıdımı,
Sinəndəki min həsrətin dağıdımı,
Ayrılıqlar yenə bizə yağıdımı,
Düşmənimiz bu gün kimdi, dünən kimdi?

Şimşəkoğlu, gəl bir yazaq yazımızı,
Şimşəkoğlu, gəl bir çəkək nazımızı,
Zəlimxanla qoşa çalaq sazımızı,
Dünya görsün qalxan kimdi, enən kimdi?!

# DEYİŞMƏLƏR

## OSMAN SARIVƏLLİ İLƏ

*Zəlimxan Yaqub*

Gəl çıxaq gəzməyə, ay Osman qağa,
Gözləyir yaylaqda gözəllər səni.
Şair hanı deyib yollara baxır,
O yerlər çox görüb əzəllər səni.

*Osman Sarıvəlli*

Quzeydə ağaran qayamı, qarmı,
Yaşıl yaylaqların heç tayı varmı?
Üç günlə, beş günlə doymaq olarmı,
Dağlardan doymağa yüz illər gərək.

*Zəlimxan Yaqub*

Min dəfə görsə də doymamış, baxan,
Şeirindi dağlardan süzülən, axan.
Kimdi qocalığı başına qaxan,
De niyə kövrəldir xəzəllər səni?!

*Osman Sarıvəlli*

Qonardı xəyalım Qoşqar dağına,
Quş kimi qalxardım yar oylağına.
Ömür bağçasına, könül bağına,
Vaxtsız düşməyəydi xəzəllər gərək.

*Zəlimxan Yaqub*

Çiçəklər döşənib sən gələn yola,
Qışda da inanma saralıb sola.
Təbiət zamanla verib qol-qola,
Yaşadar qəlbində yüz illər səni.

*Osman Sarıvəlli*

Daha səməndimin ağarıb yalı,
Sökülüb dırnağı, tökülüb nalı.
Dağlara çıxmağa qalmayıb halı,
Gedəydim o yerə əzəllər gərək.

**AŞIQ ŞƏMŞİRLƏ**

*Zəlimxan Yaqub*

Sənsiz Kəlbəcərdə darıxmazmı saz,
Yatma, bu yastıqdan dur, Dədə Şəmşir.
Ellər məclisinə bərəkət kimi
Yağsın sifətindən nur, Dədə Şəmşir.

*Aşıq Şəmşir*

Dürlü sözün nələr saldı yadıma,
Düşdü xəyalıma hara, Zəlimxan.
Ata övladına həsrət qalımı,
Sənətkarı axtar, ara, Zəlimxan.

*Zəlimxan Yaqub*

Gümüşü tellərə çəkilsin sığal,
Ruhuma naxışdı hər vurulan xal.
Ömrün doxsanında “Qəhrəmanı” çal,
Desinlər eşqinə kür, Dədə Şəmşir.

*Aşıq Şəmşir*

Sığallı tellərə nə lazım sığal,
Fəhmimdə fərasət, başımda kamal.
Bir "Cəngi" oxuyum, eşit, ləzzət al,
Səs yayılsın o dağlara, Zəlimxan.

*Zəlimxan Yaqub*

Gör nələr yetirib bu ana torpaq,
Atalar kök olub, oğullar budaq.
Qurbanın əliylə çatılan ocaq
Gur olsun, daha da gur, Dədə Şəmşir.

*Aşıq Şəmşir*

Vuraq təzənəni, tel budu, dostum,
Duraq xidmətində, el budu, dostum.
Qurbanın qoyduğu yol budu, dostum,
Rəhmət böyük sənətkara, Zəlimxan.

*Zəlimxan Yaqub*

Gəl qoyma cavabsız sual-sorğunu,
Etmə Zəlimxanı illər yorğunu.
Ceyran bulağından soruş Vurğunu,
Məclisi təzədən qur, Dədə Şəmşir.

*Aşıq Şəmşir*

Fikir ver Şəmşirin çəkdiyi aha,
Söz ağır getməsin qadir Allaha.
Vurğunu çağırmaq çətindir daha,
Qövr edir sinəmdə yara, Zəlimxan.

## AZAFLI MİKAYILLA

*Zəlimxan Yaqub*

Ay bulaq başına tələsən gözəl,
Könlümü əlimdən al, yavaş yeri.
Tərpənər yerindən dağların mehi,
Sürüşər başından şal, yavaş yeri.

*Mikayıl Azaflı*

Gözəllər eşqiylə çağlayan şair,
Qocanı da yada sal, yavaş yeri.
Qəlbini qəlbimə bağlayan şair,
Ay qarasaç, qaldı çal, yavaş yeri.

*Zəlimxan Yaqub*

Ötməsin, aylara, illərə yalvar,
Gəzməyə nə qədər çiçəkli yal var.
Laləyə bənzəmə, bağrında xal var,
Düşməsin qəlbinə xal, yavaş yeri.

*Mikayıl Azaflı*

Hər uca dağlardan səfa gözləmə,
Hər həkim əlindən şəfa gözləmə.
Hər keçən gözəldən vəfa gözləmə,
Sayma hər şirini bal, yavaş yeri.

*Zəlimxan Yaqub*

Üstümə od tökər, yel əsdirərsən,
Bağrımın başında tel əsdirərsən.
Dəymәmiş meyvəmi tələsdirərsən,
Düşər budağından kal, yavaş yeri.

*Mikayıl Azaflı*

Aşıq var ki, bülbül, gül aşiqidir,
Aşıq var ki, sərvət, pul aşiqidir.
Azaflı Mikayıl el aşiqidir,
Gəl onun həmdəmi ol, yavaş yeri.

*Zəlimxan Yaqub*

Sənin şöhrətini aləmə yayır,
Zəlimxan özünü bəxtəvər sayır.
Qara saçlarından üççə tel ayır,
Sevdiyim havanı çal, yavaş yeri.

## AŞIQ KAMANDARLA

*Zəlimxan Yaqub*

Dünya bülbüllü bir bağdır,
Sən ötməsən, mən ötmərəm.
Bu sehrdən, bu sevdadan
Sən getməsən, mən getmərəm.

*Aşıq Kamandar*

Bu dünya bir güllü bağdır,
Sən açmasan, mən açmaram.
Öz ətrini bənövşətək
Sən saçmasan, mən saçmaram.

*Zəlimxan Yaqub*

Biz bir eşqin butasıyıq,
Gülü gülə tutasıyıq.
Bir çəməndə bitəsiyik,
Sən bitməsən, mən bitmərəm.

*Aşıq Kamandar*

Hikmət var, hikmət doludur,
Ulusdan, eldən uludur.
Mənim yolum haqq yoludur,
Sən çaşmasan, mən çaşmaram.

*Zəlimxan Yaqub*

Qalalar var, yapan mənəm,
Qayalar var, çapan mənəm.
Səni məndə tapan mənəm,
Sən itməsən, mən itmərəm.

*Aşıq Kamandar*

Halallıq axsa qanından,
Od törəyər od canından.
Həqiqətin meydanından
Sən qaçmasan, mən qaçmaram.

*Zəlimxan Yaqub*

Tər çiçək ollam yazına,
Gümüş tel ollam sazına.
Zəlimxanam, murazına
Sən yetməsən, mən yetmərəm.

*Aşıq Kamandar*

Kamandaram həvəsində,
Yurd-yuvam var nəfəsində.
Ariflərin məclisində
Sən coşmasan, mən coşmaram!

## TƏBRİZLİ QARDAŞIM SÖNMƏZLƏ

*Zəlimxan Yaqub*

Qardaş, sənin əllərini sıxanda,
Döndü qəlbim yenilməzə, dönməzə.
Belə yerdə qoy anamız təbiət
En deməsin zirvələrdən enməzə.

*Sönməz*

Qardaş, məni sən bağrına basarkən,
Danış! – dedin danışmaza, dinməzə.
Mən danışdım, sən də qulaq asarkən
Cana sindi dedin canasinməzə.

*Zəlimxan Yaqub*

Duyan könül heç olmasın viranlıq,
Qoy dağılsın başındakı qaranlıq.
Gəl unudaq dərdimizi bir anlıq,
Bu xoş gündə mən mey olum, sən məzə.

*Sönməz*

Sazlı-sözlü şairimsən, al məni,
Bir saz kimi al döşünə, çal məni.
Qoy yetişim, dərməsinlər kal məni,
Bəlkə, dönüm sənin kimi dönməzə.

*Zəlimxan Yaqub*

Aya deyək, bulud altda yatmasın,
Günə deyək, dağ dalında batmasın.
Vaxta deyək, hələ gəlib çatmasın,
Son danışıq, son zarafat, son məzə.

*Sönməz*

Gəlib gəzdim dağda, daşda, düzdə mən,
İçim coşdu, kövrəlmədim üzdə mən.
Əgər dünən sönməz idim sözdə mən –
Mənada da döndüm bu gün Sönməzə.

*Zəlimxan Yaqub*

Həsrətə bax! O bir daşdı, o divar,
Vüsala bax! Odu dövlət, odu var.
Ürəyimin nə ki sönməz odu var –
Sovqat olsun Zəlimxandan Sönməzə!

*Sönməz*

Mərd oğullar doğru yolu seçsələr,
Haqq yolunda şirin candan keçsələr,
Azadlığın şərəfinə içsələr,
Süfrəmizdə Ay mey olar, gün məzə!

## ÖLMƏZ USTAD

*Ölümündən iki ay əvvəl ölümsüz ustadımız Aşıq Hüseyn Saraçlı telli sazın təkrarolunmaz sahibi Aşıq Əmrah Gülməmmədovun xəstə yatdığını eşidib sənət dostuna baş çəkməyə gəlir. Əmrah kişini ölüm döşəyində görən, özü də xəstə olan Hüseyn əmi dərindən köksünü ötürüb deyir: Əmrah kişi, bu yazı sağ-salamat başa vura bilsək, daha bizə ölüm yoxdu. Tale elə gətirdi ki, Borçalı mahalının əvəzsiz sənət ağsaqqalları elə həmin yaz fəslində dünyadan köçdülər. 1987-nin aprelində Aşıq Əmrahın qırxı Aşıq Hüseynin dəfn gününə düşdü.*

Bizdən ötrü ağır gəldi bu bahar,
Söz ürəkdə, saz köynəkdə qalıbdı.
Bir mahalın mahal boyda dərdi var,
Qəlb ağrıda, can köynəkdə qalıbdı.

Getdi daha şirin ləhcə, xoş avaz,
Nə danışsın yasa batmış pərdələr.
İndən belə hər dinəndə telli saz,
Başım üstdən qəm səpələr, dərd ələr.

Bir bağçanın güllərini döydü qar,
Bir bülbülün ötən səsi qırıldı.
Gümüş tellər haray çəkər, hay salar,
Ulu sazın şah pərdəsi qırıldı!

On barmağı on bir telə bağladı,
Ovsunuyla görün nələr yaratdı.
Zili bəmə, bəmi zilə bağladı,
Xatırlandı, xatirələr yaratdı!

Ellər çəkdi sənətkarın nazını,
"Sənətində kişi şahdı", – dedilər.
Bir xalından tanıdılar sazını,
"Qulaq asın, o Əmrahdı!" – dedilər.

Bir məclisə Əmrah gəlib deyəndə,
Uçmaq üçün yeldən qanad taxardıq.
Bu şad xəbər qapımızı döyəndə,
Evdən evə, eldən elə axardıq.

Duyğuları döndərərdi gur çaya,
Kamil ustad keçirəndə toyları.
Bəylə gəlin sığışmazdı dünyaya,
Bir qarış da ucalardı boyları!

Əmrah kimdir? Əsrlərdən gələn səs,
Tel gücünü sel gücünə döndərən.
Əmrah kimdir? Qaynar çeşmə, od nəfəs,
Öz eşqini sabahlara göndərən!

Əmrah kimdir? Yerin yeddi qatından
Şirə çəkən, mayalanan kökümüz.
Ucalığı çıxmaz elin yadından,
Ayrılığı dağdan ağır yükümüz!

Əl tərpəndi, qüdrətini duyurdun,
Hər barmağın bir cür xalı varıydı.
Dədələşən övladıydı bu yurdun,
Hər xalında bir Borçalı varıydı!

Can əriyib harayında, önündə,
Göz yaşını tökənləri görmüşəm.
Əmrah kimi ölməzlərin önündə
Gəlib dizə çökənləri görmüşəm.

Mənim qəlbim necə dözsün bu yasa,
Yatan yatıb, heyif, daha ayılmaz.
Onun səsi qulağımda qalmasa,
Mənim səsim yer üzünə yayılmaz!

Əmrah ömrü ömürlərə paylanan,
Ölməz olan bir sənətin ömrüdür.
Gündən-günə çeşmələnən, çaylanan
Bir danılmaz həqiqətin ömrüdür!

Öz ləngəri, öz sevinci, öz qəmi,
Bu həqiqət Kamandarda yaşayır.
Zaman-zaman bir-birinin həmdəmi,
Saz kamanda, kaman tarda yaşayır!

Deməyin ki, vaxtı başa yetirdik,
Döş çiçəksiz, zirvə qarsız qalmasın.
Aman ellər, xan Əmrahı itirdik
Saz dünyası Kamandarsız qalmasın!

Sənət üçün çox qartallar bəsləyər,
Dayazlara bir ötərki səs deyər.
Oğulları ucalığa səsləyər
Telli sazda Aşıq Əmrah zirvəsi!

Yüksələnə yüksəklikdən pay verər,
Ürək verər, nəfəs verər, hay verər.
Çox boyalara öz boyundan boy verər,
Telli sazda Aşıq Əmrah zirvəsi!

Başı üstdə Günəş doğar, gün durar,
Sərt tufanlar bata bilməz, gen durar.
Dədə Qorqud zirvəsiylə tən durar,
Telli sazda Aşıq Əmrah zirvəsi!

## ULU OZAN

*Aşıq Hüseyn Saraçlının*
*unudulmaz xatirəsinə*

İstər alış, istər tutuş, istər yan,
Torpaq altda cahan canlar apardı.
Çox oğullar köç eylədi dünyadan,
Sinəsində çox dastanlar apardı!

Toyum toya qarışardı əzəldən,
Bircə ayda yasım yasa qarışdı.
Heç bilmirəm nə ad verim buna mən,
Ölümə bax, nə amansız yarışdı.

Demədi ki, ozanlara ozandı,
Ulu Tanrı iki insan itirdi.
Nə qazandı sazın ömrü qazandı,
Nə itirdi, Azərbaycan itirdi.

Sahillərə çox gəmilər yan alar,
Çox arzular öz barını gətirər.
Xan Əmrahı bir də doğmaz analar,
Saraçlını zaman çətin yetirər!

Köç günüdür, ay obalar, ay ellər,
Çox sevdiyi bir havanı çaldırın.
Qoy boşalsın dolu gözlər, könüllər,
Onu yerdən "Mansırı"yla qaldırın!

Xəbər verin, səs yetişsin hər yana,
Bizi Ləlvər, Lök, Ağlağan dinləsin.
Saraçlını tapşırırıq torpağa,
Qoca dağlar qəmli dastan dinləsin.

Saraçlını tapşırırıq torpağa,
Dərə ağla, təpə ağla, düz ağla!
Qaynar bulaq, dostun köçür dünyadan,
Göz yaşını daşdan-daşa süz, ağla!

Ozan baba, dünya qalan, sən gedən,
Ayrılırıq "Ruhani"dən, "Cəngi"dən.
Yası görüb öz toyunu ləngidən,
Gəlin ağla, oğul ağla, qız ağla!

Bəd xəbərlər biz-biz eylər tükümü,
Dağ götürməz dağdan ağır yükümü.
Əcəl yaman baltaladı kökümü,
Könül ağla, ürək ağla, göz ağla!

Teldən ayrı təzənələr, nəm çəkər,
Duyan ürək dərd daşıyar, qəm çəkər,
Səndən ötrü min cür nazı kim çəkər?
Pərdə ağla, sədəf ağla, saz ağla!

Yüz dəfə çək, yersiz ahdan nə çıxar,
Qəlbi yasda saxlamaqdan nə çıxar.
Ay Zəlimxan, ağlamaqdan nə çıxar,
Az sızılda, az inildə, az ağla!
Saraçlının taleyindən əsər yaz,
Saraçlının dastanını yaz, ağla!

## ATALI, ATASIZ GÜNLƏRİN ŞEİRLƏRİ

**1**

Dünən od yağardı baxışlarından,
Bu günsə qocalıq yağır, ay ata.
Üzüləndə ürək, ağrıyanda can,
Ağırdı insana, ağır, ay ata!

Qəlbin təpərliydi, gözün işıqlı,
Zarafat gələrdi sənə bu dünya.
Olsa da ay üzlü, gün yaraşıqlı,
Dönərmiş dumana, çənə bu dünya.

Göylər qəzəbini yerə tökəndə
Sellərlə zarafat eyləmək olmur.
Qaməti əyəndə, qəddi bükəndə
İllərlə zarafat eyləmək olmur!

Şirindi dünyanın toy-düyünləri,
Əvvəlcə qol açdı, “gəl-gəl” eylədi.
Ağac ömründəki yarpaq günləri
Ömrün payız fəsli xəzəl eylədi.

Ay ata, sən kövrək olandan bəri
Dünya gözlərimdə sarıdır, sarı.
Gözümə sürtürəm o xəzəlləri,
Bağrıma basıram o yarpaqları!

Atadır ağzının ləzzəti, dadı,
İgid oğulların, gözəl qızların.
Atalı dünyanın dadı başqadı,
Qəlbinə dəyməsin atasızların!

Külünlə sönənəm, odunla yanan,
Deyirəm xoşbəxtəm, atam yaşayır.
Qəlbimdə ilahi nemət adlanan
O ləzzət yaşayır, o tam yaşayır.

Kədərli anımda, qəmli çağımda,
Varlığın ruhuma köməkdir mənim.
Bircə gün ömrünü uzatmağım da
Yüz il yaşamağım deməkdir mənim!

Yersiz danışmadın, yersiz susmadın,
Mən səni nə dilli, nə lal görmüşəm.
Həmişə hörmətlə çəkilib adın,
Süfrəndə hər şeyi halal görmüşəm.

Söz nə mehribandı, səs nə həlimdi,
Hər gün qulağıma səsin şən gəlir.
Yaman nə varımsa öz əməlimdi,
Yaxşı nə görsələr o səndən gəlir!

Evimdə çörəkdi, sünbülümdə dən,
Əlindəki qabar, alnındakı tər.
Nə zaman torpağa toxum səpərsən,
Yerində halallıq göyərər, bitər!

Yorğun kirpiyinlə od götürməli,
Bir nəslin yükünü daşımalıydın.
Sən elə bu cürə ömür sürməli,
Sən elə bu cürə yaşamalıydın!

## 2. XATİRƏYƏ DÖNƏN ATAM

Nə ağırmış ayrılığın,
Ağır-ağır dinən atam.
Çıraq kimi öləziyən,
Ocaq kimi sönən atam.

Öz işində ölüm usta,
Ürək qəmdə, könül yasda.
Çiyinlərdən asta-asta
Haqq evinə enən atam.

Yada düşür nələr, nələr...
Qəmli könül qalır mələr.
Heç kirimir xatirələr,
Xatirəyə dönən atam.

## 3. AÇMAZ

Başdaşı adam deyil,
Dindirsəm də dil açmaz.
Başdaşı atam deyil,
Qucaqlasam qol açmaz.

Qəm diridir, canlıdır,
Göz yaşlarım qanlıdır.
Ürəyim tikanlıdır,
Dodaqlarım gül açmaz.

Şadlığı bir an olar,
Qazancında qan olar,
Könül qanadan olar,
Bu dünya könül açmaz!

## 4. APARDI

Ata, ayrılığın yaman ağırmış,
Ağladım, gözümü yaşlar apardı.
Sənsiz talan olmuş xırman yeriyəm,
Daşıdı dənimi quşlar apardı.

Qaçsam da dünyanın qəm-kədərindən,
Bağrım dağ-dağ oldu minbir yerindən.
Dərd öz kotanını çəkdi dərindən,
Şumladı sinəmi, xışlar apardı.

Sarsıldı ağrıdan ürək də, can da,
Dəyanət neyləsin belə bir anda.
İtirdim başımı başsız qalanda,
Əcəl qılınc çəkdi, başlar apardı.

İnana bilməzdim vüqarım sına,
Ürəyim dözmədi ata yasına.
Yaman öyrənmişdim yaz havasına,
Üşüdüm, ömrümü qışlar apardı.

Yağdı saçlarıma həsrətin qarı,
Heç oldu gözümdə həyatın varı.
Yeriyə bilmədim qəbrinə sarı,
Süründüm, dizimi daşlar apardı!

## ÇƏKƏR

Aşıq el oğludu, el anasıdı,
Qəlbindən fərəhlə qəm şirə çəkər,
Bağban da özüdür, bağ da özüdür,
Həm çiçək yetirər, həm şirə çəkər.

“Yanıq Kərəmi”ni gətirsən dilə,
Əriyər odunda dağ gilə-gilə.
İncə barmaqların dad verər zilə,
Usta əllərindən bəm şirə çəkər.

Zəlimxan yollarda min köhlən yora,
Qəlbi düşən deyil heç zaman tora.
Çəkməz nanəcibə, çəkməz nankora,
Çəksə Ələsgərə, Şəmşirə çəkər!

## HƏKİM

*Gözəl cərrah, unudulmaz insan*
*Şamil Əlizadənin xatirəsinə*

Bir dəfə mən səndən dərman istədim,
Evdə xəstə yatan atamdan ötrü.
Dərmanı da tapdın, dərdi də tapdın,
Nələr eyləməzdin adamdan ötrü.

Ağır yeriyərdin, az danışardın,
Dinəndə dilindən dürr tökülərdi.
İşığa dönərdin işıq sönəndə,
Üzündən məclisə nur tökülərdi.

Biz sənə baxanda elə bilərdik,
Dağların başında qara baxırıq.
Məğrur qamətinə heyran olardıq,
Hardasan, gör indi hara baxırıq.

Əllərin hər kimin əlinə dəysə,
Ağrını unudar, həyat tapardı.
Qolları yanına düşən xəstənin
Xəyalı uçmağa qanad tapardı.

Bəd xəbər pis yerdə döydü qapını,
“Şamil Əlizadə getdi!” – dedilər.
Toyda yaxaladı loğmanımızı,
“Əcəl bildiyini tutdu”, – dedilər.

Biz indi bildik ki, son nəfəsdə də,
Sevinmək olarmış, gülmək olarmış.

Bu mələk ölümü, quş ölümüydü,
Oynaya-oynaya ölmək olarmış.

Yapışar beşikdən, qalxar bələkdən,
Ələnər, insanlar keçər ələkdən.
Bu da bir qaydadı çərxi-fələkdən,
Yaxşılar həyatda az qalar, həkim!

Enərdik arana, qalxardıq dağa,
Hərdənbir çıxardıq bağçaya, bağa.
Səndən şirin-şirin söhbət açmağa
Qəlbimdə həmişə söz qalar, həkim!

Bir yanda matəmdir, bir yanda şaxta,
Bilmirəm nə deyim taleyə, baxta.
Məzarın olsa da eldən uzaqda,
Səndən qəlbimizdə iz qalar, həkim!

Ölüm yaman yerdə araya düşdü,
Borçalı Bakıda haraya düşdü.
Ömrün son mənzili Saraya[1] düşdü,
Arxanca nisgilli göz qalar, həkim!

[1] Abşeron rayonundakı Saray kəndi nəzərdə tutulur

## YOLLAR MƏNİ ELLƏRİN ÜRƏYİNƏ QAYTARIR

Tanışdı ayağıma daşı da, kəsəyi də,
Naxışdı gözlərimə çayı da, çisəyi də.
Sığaldı saçlarıma mehi də, küləyi də,
Şehinə, çəməninə, çiçəyinə qaytarır,
Yollar məni ellərin ürəyinə qaytarır!

Ömrünə sirdaş oldu "Misri", "Cəngi", "Heyratı",
Yəhər üstündə keçdi babaların həyatı.
Dağ döşündə dil açır yenə "Çobanbayatı",
Sazına, kamanına, tütəyinə qaytarır,
Yollar məni ellərin ürəyinə qaytarır!

Üz tuturam həmişə işıq gələn tərəfə,
Bu işıqlar içində ömür çatır şərəfə.
Bulaqların gözünə qayıdanda hər dəfə
Qəlbimin ən uğurlu diləyinə qaytarır,
Yollar məni ellərin ürəyinə qaytarır!

Elə bil eşidirəm şəlalənin səsini,
Sazım kimi duyuram hər zilini, pəsini.
Duyğularım torpaqdan çəkir öz şirəsini,
Arısına, balına, pətəyinə qaytarır,
Yollar məni ellərin ürəyinə qaytarır!

Yurda pərvanə çoxdur, biri də mən oluram,
Dağda çiçək, daşda gül, düzdə çəmən oluram.
Vətəni gəzə-gəzə dönüb Vətən oluram!
Nemətinə, duzuna, çörəyinə qaytarır,
Yollar məni ellərin ürəyinə qaytarır!

## GÖZƏL DÜNYA, GÖZƏLLƏRİN VAR OLSUN

Gülüşündə güllər açdı könlümüz,
Gözəl dünya, gözəllərin var olsun.
Vurğunu da, yorğunu da biz olduq,
Gözəl dünya, gözəllərin var olsun.

Ürəyi var, ürəklərin nəşəsi,
Toxunarsan, pul-pul olar şüşəsi.
Könül verib könül almaq peşəsi,
Gözəl dünya, gözəllərin var olsun.

Fərhadına yetişməsə Şirinlər,
Qartal susar, pələng ağlar, şir inlər.
Dayaz olmaz məhəbbəti dərinlər,
Gözəl dünya, gözəllərin var olsun.

Neçə dəfə pəncərədən daş gəlib,
Neçə dəfə xumar gözdən yaş gəlib.
Sevən kəslər Allaha da xoş gəlib,
Gözəl dünya, gözəllərin var olsun.

Al yanaqlar çiçəklərin dostudur,
Qara tellər küləklərin dostudur,
Ala gözlər ürəklərin dostudur,
Gözəl dünya, gözəllərin var olsun.

Qız çiçəkdir, o çiçəkdə şeh mənəm,
Qız çəməndir, o çəməndə meh mənəm.
Gözəlliyə beş-on günlük mehmanam,
Gözəl dünya, gözəllərin var olsun.

Əcəl ömrü zəmi kimi biçsə də,
Bir qurtuma şərbət bilib içsə də,
Vaxtlı-vaxtsız Zəlimxanlar keçsə də,
Gözəl dünya, gözəllərin var olsun.

## QALARDIM

Dağlar mənə gəl-gəl desə ürəkdən,
Gəlib elə bu yerlərdə qalardım.
Təbiətlə sevincimi, dərdimi,
Bölüb elə bu yerlərdə qalardım.

Nəfəsimdə yaşadardım ətrini,
Əzizlərdim çiçəklərin xətrini.
Ömrün-günün qiymətini, qədrini
Bilib elə bu yerlərdə qalardım.

Nə gözəldi bu dağların lalası,
Mən getsəm də, könlüm burda qalası.
Sevsə məni bir zalımın balası,
Ölüb elə bu yerlərdə qalardım.

## TOY GÜNÜNDÜR

Toy günüdü, bu məclisin bəyinə bax,
Çal-çağıra, kamanına, neyinə bax.
Təbiətin yerinə bax, göyünə bax,
Ömür çatıb bir şöhrətə, şana burda.

Bu dünyanın hər qəmindən uzaq olar,
Sevincindən aşıb-daşan uşaq olar.
Öz-özünə bir çağlayan bulaq olar,
Qəlbi olan çəkilərmi yana burda?!

Baş örpəkli, yaxa qızıl düyməlidir,
Qapılar var, elçi əli döyməlidir,
Kimə baxsan bir-birindən öyməlidir,
Sevə oğlan, gözəlləri sana burda!

Günəş doğub bu varlığa, bu həyata,
Gəlişində dağ vüqarı, gülür ata,
Bir havanın laylasına yata-yata
Qollarını geniş açır ana burda.

Bir can olsun yerin səsi, göyün səsi,
Kəsilməsin qulaqlardan neyin səsi.
Toyçu qardaş, elə çal ki, toyun səsi
Qoy işləsin lap iliyə, qana burda!

Söz sinədən axsın gümüş çaylar kimi,
Şirin olsun dostdan gələn paylar kimi,
Anın ömrü qoy uzansın aylar kimi,
Günün ömrü heç çatmasın sona burda!

## SONRADAN...

Mənə sevgilim deyən,
Gözlərimdə işığım,
Ağzımda dilim deyən,
Gəz də, oyna da, gül də,
Demirəm ki, lal dayan.
Ancaq bərkə düşəndə
Qaya kimi sal dayan!
Budur sözümün canı,
Tufan qopsa, laxlama!
Ərtək saxlasan məni,
Tez köçsəm də dünyadan,
Heç yasımı saxlama!
İndi oxşa, əzizlə,
Peşman olub sonradan,
Qəbrimi qucaqlama!

## BACARMADI

Mənim dilim qurusun, mən tikana gül dedim,
Duyğusuz, həyəcansız daş qəlbə könül dedim.
Daş tikanın içində ürəyimə gül dedim,
Çox əlləşdim, ürəyim gülməyi bacarmadı!

Sığal çəkmək istədim, əllərimi qanatdı,
Gördüm sevgim, sevincim bir qırılmış qanaddı.
Həyatımdan daha çox ölümümə can atdı,
Gözlərimin yaşını silməyi bacarmadı!

Ömrün-günün yolunda dönməz idim, ər idim,
Yoxuşlar sınağında muma döndüm, əridim.
Görmək üçün yüz addım bəxtə sarı yeridim,
Bir addım mənə sarı gəlməyi bacarmadı!

Kaman oldum əyildim, yaya döndüm gərildim,
Sinəmi tapdaq edib qədəminə sərildim.
Bir xoş sözündən ötrü min yol öldüm, dirildim,
Bir dəfə məndən ötrü ölməyi bacarmadı.

## TƏZƏ GƏLİNƏ

Qızıl sırğaları qulağına tax,
Bağla biləyinə qızıl saatı.
Ancaq sən onlara bəzək kimi bax,
Qızıla tapşırma ömrü, həyatı.

Könüllər bağlanıb biri-birinə,
Qəlbə xoş duyğular dolsa yaxşıdır.
Cehiz əvəzinə, qızıl yerinə
Qızıl xasiyyətin olsa yaxşıdır!

## QOŞMA

Biryolluq həsrətdən əlim üzülə,
Gün kimi üstümə yar işıq sala.
Məni barışdıra öz küskünümlə,
Təbiət araya barışıq sala.

Tufanlı, hicranlı gün gətirməyə,
Qara saçlarıma dən gətirməyə,
Duman gətirməyə, çən gətirməyə
Onun yağdırdığı qar işıq sala.

Sevinci, kədəri yarıya bölək,
Qalsaq bir yaşayaq, ölsək bir ölək.
Məni tanrı bilə, özünü mələk,
Aşiqi Allahla qarışıq sala!

## OYAT MƏNİ

Ana, qoyma yatıb qalam,
Səhər tezdən oyat məni.
Duyğuların qanadında
Qoy aparsın göy at məni.

Şehli vaxtı görüm tağı,
Gül-çiçəkli bu torpağı.
Gözlərinin nurlu çağı
Qarşılasın həyat məni.

Çiçəklərdən dərə-dərə,
Min dağ aşım, min bir dərə.
Qoy qaldırsın zirvələrə
Sən verdiyin qanad məni!

## KEÇƏ

Doymaz bu gözlərim eldən, obadan,
Min dəfə qəlbimdən el gəlib keçə.
Durna qatarına dönə fəsillər,
İllərin dalınca il gəlib keçə.

Qayğılar dönsə də saçımda qara,
Ey könül, mən hara, yorulmaq hara.
Dönəm bu dağlarda sal qayalara,
Sinəmin üstündən sel gəlib keçə.

Zəlimxan, hər yana güzarım ola,
Öz gülüm, çiçəyim, öz arım ola.
Ölsəm dağ döşündə məzarım ola,
Gözəllər əlində gül gəlib keçə!

## QURBAN OLUM

*(Anaların dilindən)*

Hansı ildə doğuldun,
İlinə qurban olum.
Hansı gündə dil açdın,
Dilinə qurban olum.

Sığalıma yatmayan,
Qaşın üstə çatmayan,
Hələ daraq tutmayan,
Telinə qurban olum.

Ay ömrün şirin barı,
Yarı, dünyadan yarı.
Sındır oyuncaqları,
Əlinə qurban olum.

Bax illərə, aylara,
Hay verən ol haylara.
Baş vur dəli çaylara,
Selinə qurban olum.

Torpaq, müqəddəs ana,
Hopsun iliyə, qana.
Bağlan Azərbaycana,
Elinə qurban olum!

## NƏ DİŞ BİLSİN, NƏ DODAQ

Eldən gizli sözüm yox,
Özgəsində gözüm yox.
Sənsiz canda dözüm yox,
Diş də bilsin, dodaq da.

Durub dayanmaq nədir?
Sevgini danmaq nədir?
Qoy görsün yanmaq nədir,
Nur da bilsin, çıraq da.

Arıtək çalışanda,
Dadmışam balı şanda.
Qoy yanaq alışanda
Köz də bilsin, ocaq da.

Gülən üzüm ol mənim,
Görən gözüm ol mənim.
Doğrum, düzüm ol mənim,
Haqq da bilsin, nahaq da.

## GÖZƏLLƏR

Mən gəzən yerləri gündoğan bilə,
Hərdən mənə sarı baxa gözəllər.
Sərinlik gətirə yanan könlümə,
Çeşmətək süzülə, axa gözəllər.

Dünya gözəlləşir o gəzəndə şən,
Kədərindən yağır saçlarıma dən.
Nə qədər ürəyə dağ çəkib görən,
Ürəyi kağızdan yuxa gözəllər.

Bağbandı, yetirər bağçasında bar,
Yanağında çiçək, sinəsində nar.
Bir kəlmə "hə" desə dünya dağılar,
Yaman həvəskardı "yox"a gözəllər.

Qəlbində nə kədər, nə də ah ola,
Baxışı amansız bir silah ola.
Sinəm hədəf ola, nişangah ola,
Tuta kirpiyiylə oxa gözəllər.

Zəlimxan, ovsundu hər qız, hər gəlin,
Onsuz nə qiyməti gövhərin, ləlin.
Elə əlləşəsən, çatmaya əlin,
Səni həsrətiylə sıxa gözəllər.

## KİMİ

Gözümün qarası, sarısı getdi,
Mən sənin qəlbinə hopana kimi.
Ömrümün, günümün yarısı getdi,
Qayıdıb özümü tapana kimi.

Xeyrin ayağından hər gün şər çəkib,
Dünyada nə dərd var bu bəşər çəkib.
İndi düşünürəm, gör nələr çəkib
Fərhad o dağları çapana kimi.

Təkcə yaşamağa yaranmır insan,
Yaşatmaq heç kəsə gəlməsin asan.
Min tilsim qalası dağıtmalısan
Bir sevgi sarayı yapana kimi.

## QOCALMA

Dastan söylə, Abbas çatsın Gülgəzə,
Nağıl danış, göydən düşsün üç alma.
Bayatı çək, dirilik ver hər sözə,
Anam mənim, belə vaxtsız qocalma!

İnsafdırmı oğul yetir, qız yetir,
Cavanlaşıb öz barından güc alma.
Bir doyunca bu dünyaya göz yetir,
Anam mənim, belə vaxtsız qocalma!

Ocağımız nəfəsinlə qalansın,
Ayrılığın karvanında köç olma.
Gül ömrünə gözəl günlər calansın,
Anam mənim, belə vaxtsız qocalma!

## XƏBƏRİM OLMADI

Vuran məni elə vurdu,
Daşdan xəbərim olmadı.
Ayaq elə dolaşdı ki,
Başdan xəbərim olmadı.

Körpəlikmiş keçib gedən,
Cavanlıqmış köçüb gedən.
Budağımdan uçub gedən
Quşdan xəbərim olmadı.

İtdi səsim, batdı ünüm,
Yoxluğadı səmtim, yönüm.
Elə keçdi ömrüm-günüm
Yaşdan xəbərim olmadı.

Göy sağıldı, bulud sağdı,
Dərə-təpə gördüm ağdı.
Qar başıma nə vaxt yağdı,
Qışdan xəbərim olmadı!

## DÖNDÜ DAHA ƏFSANƏYƏ, NAĞILA

*Kəndimizə getmişdim. Qarlı bir qış günündə*
*Hacımurad dayının evinə gəldim. Yaşı yüzü haqlamış*
*Səməngül nənəmi əli yaylıqlı, gözü yaşlı gördüm.*

Dildə ağı, əldə yaylıq, gözdə yaş,
Oğlu ölmüş bir ana var, bir ana.
Ömrü-günü qəm əlində talanmış,
Könül mülkü virana var, virana.

Yaz açılar, onun qəlbi açılmaz,
Dodağından daha gülüş saçılmaz.
Qədər gəldi, qabağından qaçılmaz,
Mən nə deyim könülləri qırana.

Pirə dönmüş balasını itirdi,
Balasını, qalasını itirdi.
Oğulların əlasını itirdi,
Belə dərdə dözə bilməz hər ana.

Heç yoxluğu gələrdimi ağıla,
Oğul gəlməz, ana dərdi dağıla.
Döndü daha əfsanəyə, nağıla,
Yüz də daşı fikri dağa, arana.

Xörəyi buz, çörəyi qar olan kəs,
Bu dünyada bir gün qalmaq istəməz.
Evdən getdi doğma hənir, doğma səs,
Evdə qalan düşüb qara, borana.

Hər ürəyin öz harayı, öz ünü,
Yana-yana kül eləyər özünü.
Nənəm, daha yola dikmə gözünü,
Hacımurad bir də çətin yarana!

## YAXŞI GÜN – YAMAN GÜN

Gələn günün xoş xəbərlə gəlirsə,
Yaxşı gündü, yaxşı gündü, yaxşı gün.
Dünya sənlə sevincini bölürsə,
Yaxşı gündü, yaxşı gündü, yaxşı gün.

Uçuşların qartalları yorursa,
Sərt inadın sal qayanı yarırsa,
Hissin, ağlın yüksəklərə varırsa,
Yaxşı gündü, yaxşı gündü, yaxşı gün.

Qızıl günəş işığını saçanda,
Sən də parla, öz nurunu saç onda.
Qara bulud baş götürüb qaçanda
Yaxşı gündü, yaxşı gündü, yaxşı gün.

Öz eşqini bir çağlayan bulaq san,
Öz qəlbini bir alışan ocaq san.
Nə qədər ki, yaman gündən uzaqsan,
Yaxşı gündü, yaxşı gündü, yaxşı gün.

Geri dönməz bəxtin üzü dönəndə,
Dindirən də peşman olar, dinən də.
Gur ocaqlar birdəfəlik sönəndə,
Yaman gündü, yaman gündü, yaman gün.

Başın üstdən acı yellər əsəndə,
Qar qalanıb yollarını kəsəndə,
Sən həyatdan, həyat səndən küsəndə
Yaman gündü, yaman gündü, yaman gün.

Zərbəsini ürəyinə tuşlasa,
Yerli-yersiz tale səni daşlasa.
Gəlhagəlin gethageti başlasa,
Yaman gündü, yaman gündü, yaman gün.

Çək sinənə şad günlərin ətrini,
Bəd günlərdə tanrı ilə deyişmə.
Oğulsansa, vaxtında bil qədrini,
Yaxşı günü yaman günə dəyişmə!

## XƏCALƏT ÇƏKİR

Bir qoca yaşıma həsəd apardı,
"Əlimə keçəydi otuz yaş", – dedi.
"Yüksək əməllərdən saray qurardım,
Qoyardım daş üstə hər gün daş", – dedi.

İllərin yanında əl boş, üz qara,
Keçmişin üstündən qara xətt çəkir.
Baxıram dünəni uduzub qoca,
Sabahın önündə xəcalət çəkir!

## VAY O GÜNDƏN

Ürəyimdə yuxu qovan qeyrət ola,
Gözlərimdə ucalığa heyrət ola,
Baxışımda ulduzlarla söhbət ola,
Fikrim elə ovda qala, quşda qala.

Qarlı zirvə ovundura mehdə məni,
Yaşıl çəmən ovsunlaya şehdə məni.
Qoca dünya qovuşdura əhdə məni,
İzim düşə bu torpaqda, daşda qala.

Adı-sanı addan ada qalmayanın,
Xatirəsi dosta, yada qalmayanın,
İzi-tozu bu dünyada qalmayanın
İnanmıram bir əməli huşda qala.

Ey dirilik çeşməsindən içən Dədə,
Hamı içə o bulaqdan içəndə də.
Ömür gəlib yüz yaşını keçəndə də,
Həyat eşqi canda qala, başda qala.

Ürəyində məhəbbətdən pay az ola,
Vurulduğu nə qış ola, nə yaz ola.
Vay o gündən düşüncəsi dayaz ola,
Axır gündə insan əli boşda qala!

## QOCA BABAM BELƏ DEDİ

**1**

Gedən ömrüm geri dönməz,
Yaydan çıxan oxdu daha!
Ağrılara inanmazdım,
Ağrılarım haqdı daha!

Yox məlhəmi, yox əlacı,
Dərd ağırdı, dərman acı.
Qar eylədim qara saçı,
Ümid yerim yoxdu daha!

Gözü yaşa tanıtmışam,
Başı daşa tanıtmışam,
Ömrü qışa tanıtmışam,
Tanışlarım çoxdu daha.

Getdi, gəlməz uşaqlığım,
O gəncliyim, o şaxlığım.
Qocalığım – yumşaqlığım,
Kövrəlmişəm, vaxtdı daha!

**2**

Tez ol deyir kimsə mənə,
Tez olmağa nə qaldı ki...
Dönüb şirin xatirəyə,
Söz olmağa nə qaldı ki...

Belədir taleyin işi,
Zamana təslim ol, kişi.
Qoyduq arxada yetmişi,
Yüz olmağa nə qaldı ki...

Dostu, yadı anan canım,
Odda, gözdə yanan canım,
Yavaş-yavaş donan canım,
Buz olmağa nə qaldı ki...

Bir dərdi var hər qırışın,
Adamı var hər qarışın.
Qismətimiz beşcə arşın,
Bez olmağa nə qaldı ki...

Zalım keçər, fağır keçər,
Yüngül gələr, ağır keçər.
Sinəm üstdən cığır keçər,
İz olmağa nə qaldı ki...

Keçdin əcəlin çəminə,
Dəyməz dünyanın qəminə.
Dönüb yellərin yeminə,
Toz olmağa nə qaldı ki...

## DÜŞÜNÜRƏM

İldə bir yol fürsət tapıb, "ana" – deyib kəndə dönən,
Ana üçün, bacı üçün şərbət olan, qəndə dönən,
Əzizlənən oğul mənəm!
Dönə-dönə nağılını, dastanını dinlədiyim
Bir insanın dodağında dastan mənəm, nağıl mənəm!
Barmağıyla sığallanıb saçımdakı tumar mənim,
Halal haqqı yaddan çıxsa, haqq gözümü yumar mənim!
İldə bir yol getsəm belə
Bəlkə ildə min bir dəfə mən anamı düşünürəm.
Ürəyimdən keçənləri gözlərimdən duyanımı,
Qıyılmayan canı belə bala üçün qıyanımı,
Gecə-gündüz şölə çəkib yanan şamı düşünürəm!
O qüdrəti, o hikməti, o inamı düşünürəm!
Neyləyibsə gözlərimdə yaz da, qış da şeirə dönüb,
O şairi, o laylanı, o ilhamı düşünürəm!
Eh... nə çıxar düşünməkdən,
Qaralan ki deyil daha saçlarımda gördüyüm dən!!!

## ANALAR BİLİR

Onsuz da anamın qayğısı çoxdu,
Dərd adlı düşməni, yanğısı çoxdu.
Qəlbini yandıran bayatıları,
Dilimi göynədən ağısı çoxdu.
Mənə qəfil gələn bu ağrıları
Anama deməyin, anam bilməsin!

Kimin çiynindədi yükün ağırı,
Qəm-möhnət həmişə onu çağırı.
Mənim bir balaca sınıxmağım da
Yumağa döndərər ana fağırı,
Anama deməyin, anam bilməsin!

Bəd xəbər qanadlı bir quşa dönüb
Kəndimizə doğru uçmaq istəsə,
Hələ açılmamış səhərin gözü,
Bağlı qapıları açmaq istəsə,
Bütün bərələri, bütün yolları,
Bütün keçidləri bağlayın, kəsin.
Bir yaman xəbəri, bir çətin sözü,
Anama deməyin, anam bilməsin!

Analar bilməsin qəm-kədər nədir,
Analar bilməsin bəd xəbər nədir.
Eh... mənim fikrimə, xəyalıma bax,
Elə doğrudan da uşağam, uşaq.
Analar bilmirsə bəd xəbərləri,
Dünyanı başına götürüb gəzən
Bu qədər yanıqlı nəğmələr nədir?
Gözündən nə qədər uzaq olsa da,

Övladın gününü, güzəranını
Havadan oxuyur, buluddan bilir.
Yozur yuxuları, yaxşıya, pisə,
Səsdən soraqlaşır, sükutdan bilir.
Göynəkli həsrətlər, üzücü qəmlər,
Puç olan arzular harda var, bilir.
Harda yas qurulur, harda vay düşür,
Harda ocaq sönür, hay-haray düşür,
Dünyada birinci analar bilir!
Dünyada birinci analar bilir!

## NAHAQ GÜLDÜN

Nahaq güldün göz yaşıma,
Göz boş yerə doymur, axı!
Can alışır, ürək yanır,
Ağlamasan olmur, axı!

Qalxır tufan, çaxır şimşək,
Vurur şaxta, döyür külək.
Bahar vaxtı açan çiçək
Əbəs yerə solmur, axı!

## XƏZAN VAXTIDIR

Bir qocanın duruşuna baxıram,
Kirpik enib, gözdə xəzan vaxtıdır.
Qan çəkilib, yanaq solub-saralıb,
Üz qırışıb, üzdə xəzan vaxtıdır.

Yolu tutan nə boranmış, nə qarmış,
Bahar ömrü yaşamağa nə varmış.
Otuz yaş da, əlli yaş da baharmış,
Doxsan keçdi, yüzdə xəzan vaxtıdır.

Göz dolanda yaşına döz taleyin,
Baş dəyəndə daşına döz taleyin.
Ağır gələn qışına döz taleyin,
Gözlə, baba, gözlə, xəzan vaxtıdır.

## HEYİF GÖZƏLLİYƏ, HEYİF GÖZƏLƏ

Baxışlar qurumuş bulağa dönüb,
Yanaqlar saralmış yarpağa dönüb,
Ömrün qaynar çağı sazağa dönüb,
İtənlər tapılıb gələrmi ələ,
Heyif gözəlliyə, heyif gözələ!

Cəsarət ləngidi, fərd önə düşdü,
Dünya bir keşişin fəndinə düşdü,
Əsli düymələrin bəndinə düşdü,
Heç oldu Xan Kərəm, puç oldu Lələ,
Heyif gözəlliyə, heyif gözələ!

Dərdi zirvəsinə çatan görürəm,
Bəxtin Günəşini batan görürəm.
Dünən ayaq üstə gəzən dostumu
Bu gün yanı üstə yatan görürəm.
Mələ, ey ürəyim, quzutək mələ,
Heyif gözəlliyə, heyif gözələ!

Zaman yatırdanı tufan oyatmaz,
Dünyanın gedişi ürəyə yatmaz.
Əlimiz bahara çatar, ya çatmaz,
Payız öz hökmünü yeridir hələ,
Heyif gözəlliyə, heyif gözələ!

Qəlbimiz həmişə aldanmış, uymuş,
Sən demə, ömrümüz xoş bir yuxuymuş.
Yaşıl olmağın da axırı buymuş,
Xəzələ baxıram, yatan xəzələ,
Heyif gözəlliyə, heyif gözələ!

## FACİƏSİDİ

Qocaman palıdlar çox gözəl bilir,
Hər şimşək bir dağın faciəsidi.
Açılmaz çiçəyi, ballanmaz barı,
Qırılmaq budağın faciəsidi.

Durmaz qabağında tufanın, yelin,
Ağzında yem olar hər daşqın, selin.
Şil olmaq adamın, qul olmaq elin,
Kül olmaq ocağın faciəsidi.

Fəlakət istər ki, asdıra, asa,
Boyu görünənin başından basa.
Qara gün ağ günün döndərər yasa,
Hər qara bir ağın faciəsidi.

Havalar soyuqdur, aralar sərin,
Güllələr qansızdı, yaralar dərin.
Qandal ayaqların, buxov əllərin,
Qıfıllar dodağın faciəsidi.

Birinin yerində beşi yoxdusa,
Gülləyə verməyə döşü yoxdusa,
Yolunda ölməyə kişi yoxdusa,
Vətənin, torpağın faciəsidi!

## YOX, SƏN O YERLƏRDƏ DOĞULMAMISAN

Yox, sən o yerlərdə doğulmamısan,
Sözündən çiyələk qoxusu gəlmir,
Zəhmindən ildırım qoxusu gəlmir.
Paxıllıq içini qurd kimi yeyir,
Gecələr gözünün yuxusu gəlmir.

Yox, sən o yerlərdə doğulmamısan,
Bitmisən ağacda göbələk kimi.
Kökün gövdədədir, torpaq görməyib,
Dilindən həmişə qeybətlər yağıb,
Başın çələng görüb, papaq görməyib.
Dağlara qalxanda qalxıb, ucalıb,
Palıd vüqarından boy almamısan!
Hayana desələr əyiblər səni,
Qaya sərtliyindən pay almamısan!

Heç ola bilərmi bulaq görəsən, –
Su kimi saflaşıb durulmayasan?!
Vurğun təbiətli insanlar görüb,
İnsana, həyata vurulmayasan?!
İnana bilmirəm qara torpağın
Tikanlar, qanqallar bitirməyinə.
İnana bilmirəm o gülüstanın
Sənintək çayırlar yetirməyinə!

Keçirdin ömrünü mızıltılarla,
Kişiyə yaraşan səsin olmadı.
Ali vəzifələr eşqinə düşdün,
Layiq olduqların bəsin olmadı.
Səni öz işlərin, öz əməllərin
Yazığa döndərdi, fağır eylədi.
Əlin çatmayanda xəyallarına
Gileylər dilini yağır eylədi.

Sənin kimilərin sayı çox olsa
Dəyməzdi qəpiyə, quruşa dünya.
Nankorla, bədxahla əlbəyaxada
Qalardı vuruşa-vuruşa dünya.
Alçaqlar ucalıb başa çıxanda
Kişilik gözlərdən düşə bilərdi.
Könül sındırmağı xəbis ürəklər
Özünə ən yaxşı peşə bilərdi.
Ağsaqqal, ağbirçək geyinib qara
Bu ağır söhbətdən batardı yasa.
Zirvələr özünü ölmüş bilərdi
Qartallar dağlara layiq olmasa!

Orda doğulanın dünyası böyük,
Yaxını tanıyar, yadı tanıyar.
Qəlbi isinər də, isindirər də,
Ocağa tapınar, odu tanıyar.
Bu nə ömür-gündü, bu nə həyatdı,
Ellərin içində eldən xəbərsiz.
Dilini o qədər dolaşdırmısan,
Olmusan axırda dildən xəbərsiz.
Səsin bir qulağa çata bilərmi
Havadan xəbərsiz, teldən xəbərsiz.
Əzilə-əzilə yeriməyin var,
Qanadı sallanmış cücələr kimi.
Tərlan qıy vuranda qaya titrədi,
Sən cik-cik eylədin sərçələr kimi.
Hər şeydən şübhəylə danışan oldun,
Hər şeydən gileylə danışan oldun.
Büzdün dodağını doğma səslərə
Qatdın nəfəsini yad nəfəslərə.
Sən indi kim oldun yadların yadı,
Yersiz əyilmələr, yersiz düşmələr
Canında, qanında tutar qoymadı.
Orda doğulammaz belə bir insan,
Yox, sən o yerlərdə doğulmamısan.

## OLMAZ

Hər dənizdə bərəkət var,
Sünbül dönüb ayaq olmaz.
Çiçək hara, tikan hara,
Gül qanqala calaq olmaz!

Qoynu dolu bulaq olar,
Güvəndiyi torpaq olar.
Arxa olar, dayaq olar,
Dağdan dağa yamaq olmaz!

Göylər durur yeddi qatda,
Ucalıq var bu həyatda.
Ətək qalar ayaq altda,
Zirvəni tapdamaq olmaz!

## ÜRƏYİM AĞRIYIR, YAMAN AĞRIYIR

Mən geniş göylərdə süzmək bilirdim,
Vurulub torpağa düşmək də varmış.
Aydın baxışlara, nurlu gözlərə,
Qara şüşələrdən çeşmək də varmış.
Nəğməli çay olub axmaq bilirdim,
Qara bir daş olub susmaq da varmış.
Zirvədən-zirvəyə yetişən səsi
Boğub içəridə qısmaq da varmış,
Ürəyim ağrıyır, yaman ağrıyır!

Mən öz ürəyimi polad bilirdim,
Sən demə, kövrək bir şüşədən imiş.
Nə üçün incədi, safdı qəlbimiz,
O da tapdığımız peşədən imiş.
Süzülən, düzülən, yanan, yandıran,
Şeirin hər misrası ürəkdən keçir.
O qədər dərdi var elin-obanın,
Hər toyu, hər yası ürəkdən keçir,
Ürəyim ağrıyır, yaman ağrıyır!

Göydə havamızı zəhərlədilər,
Yerdə ruhumuzu qıt eylədilər.
Yalın düşüncələr, çılpaq ağıllar
Dolu ürəkləri lüt eylədilər.
Pişiyə döydürüb pələngi, şiri,
Çaqqal eylədilər, it eylədilər.
Bütlər həyalandı, geri çəkildi,
Alçağı qaldırıb büt eylədilər,
Ürəyim ağrıyır, yaman ağrıyır!

Dərinə gedənlər batır dərində,
Dərddən aralanıb dayaza çıxmır.
Ömrünün qışını sərt keçirənlər
Elə qışda qalır, heç yaza çıxmır.
Havadan, torpaqdan, yerdən gileyli,
Xeyirsiz xeyirdən, şərdən gileyli,
Ömürdən narazı, gündən narazı,
Tanrıdan küsülü, dindən narazı,
Silahdan, güllədən, oddan nigaran,
Yaxından yaralı, yaddan nigaran,
Torpağı davalı, yurddan narahat,
Quzudan narahat, qurddan narahat,
Hər yerdə, hər şeyin fərqinə varan,
Doğrunun uğrunda, haqqın yolunda,
Özünü öldürən, bağrını yaran,
Qəlbinə şübhələr daman ağrıyır.
Üzdən gedənlərin işi pis deyil,
Dərin fikirlərə cuman ağrıyır.
Ürək ağrımasın, ürək neyləsin,
Ürəyim ağrıyır, yaman ağrıyır!

## NƏ VAR DURULMAĞA, TƏZƏLƏNMƏYƏ

Elə ki söykəndin məğrur bir dağa,
Qoşuldun bulağın, çayın səsinə,
Bu səsdən götürüb öz ahəngini,
Dodaq ki başladı zümzüməsinə,
Baxdıqca doymadı gözlər, könüllər,
Sular göz yaşından duru göründü.
Kəklikli qayada, xınalı daşda,
Ana təbiətin nuru göründü.
Zərif duyğuların tutub yükünü,
Ürək ki başladı məzələnməyə,
Duyub bu dünyanın təravətini,
Nə var durulmağa, təzələnməyə!

Durasan yerindən dan sökülməmiş,
Oylağın çiçəkli ətəklər ola.
Boyun görünməyə güllər içində,
Ruhunu tərpədən küləklər ola.
Meh başa toxuna, şeh də ayağa,
Yerdən də, göydən də xoş üz görəsən,
Çəmən dalğalana bir dəniz kimi.
Gah dərə görəsən, gah düz görəsən,
Açıla, saçıla xoş düşüncələr.
Yumaqtək başlaya çözələnməyə,
Göldə güzgülənib, yeldə daranıb,
Nə var durulmağa, təzələnməyə!

Zirvələr qoynundan baxıb dünyaya,
Günəşə bir az da yaxın olanda,
Dəli sellər kimi coşub-çağlayıb,

Sözdən ürəyində axın olanda,
Qolların qucanda qoca dağları,
Xəyal qanadlanıb quşa dönəndə,
Həsrətin, kədərin əriyib gedib,
Sevincin gözündə yaşa dönəndə,
Sevgidən sinəndə ocaq çatılıb,
Başlasa dilindən söz ələnməyə,
Düşüb axarına kövrək hisslərin,
Nə var durulmağa, təzələnməyə!

Böyük məhəbbətin, böyük hisslərin,
Dilsiz qayaları dilləndirirsə,
Nurlu baxışların, odlu gözlərin,
Qara bir daşı da gülləndirirsə,
Yığılıb başına ellər, obalar,
"Şirin nəğmələrdən oxu" deyirsə,
"Ucalıq taxtına sözlə çıxmışam,
Sözdədir gücümün çoxu" deyirsə,
Duyğular sinəni deşib, dağıdıb,
Bir fürsət gəzirsə söz ələnməyə,
İlhamlı çağların oduna düşüb,
Nə var durulmağa, təzələnməyə!

## UŞAQ DOĞULASAN, UŞAQ ÖLƏSƏN

Uşaqlar oynayır evdə, eşikdə,
Körpələr uyuyur isti beşikdə.
Baxıram, baxışlar bal yuxuludur,
Görürəm dodaqlar süd qoxuludur.
Hər biri çəmənin mehinə bənzər,
Hər biri səhərin şehinə bənzər.
Fərəhdən açılır bir könül kimi,
Oynayır gül kimi, yatır gül kimi.
Uşağa dönürəm uşaq görəndə,
İnsanı qayğıdan uzaq görəndə.
Bilmirəm nədənsə, körpəliyimdən
Həmişə körpəlik vurğunuyam mən!

Böyük arzulardan doğula insan,
Duruşda, əməldə dağ ola insan.
Dəyişə boy-buxun, dəyişə qamət,
Uca boy, şax yeriş ola, qiyamət.
Bircə dəyişməyə qəlbin saflığı!
Qala ürəyində su şəffaflığı!
Bulaq duruluğu gözündə qala,
Həyat şirinliyi sözündə qala.
Vicdanda ləkədən payın olmaya
Saflıqda əvəzin, tayın olmaya.
Çökməyə ruhuna nə duman, nə çən,
Hiylədən, qeybətdən, həsəddən uzaq,
Uşaq doğulasan, uşaq öləsən!

İl üstə il gəlib yaş artanda da,
Qocalıq gözünü yaşardanda da,
Canın ağrılara tuş gələndə də,
Qarlı, qasırğalı qış gələndə də,
Ömrün hər anına gərək duyğular,

Gülün ləçəyindən kövrək duyğular,
Dönə, ürəyində dinən sim ola.
Dönə, dodağında təbəssüm ola.
İşığa çevrilə, nura çevrilə,
Ocağa bənzəyə, qora çevrilə,
Olsa da şöhrətin zirvələrlə tən,
Uşaq doğulasan, uşaq öləsən!

Haram tanımayan əl saxlayasan,
Yalan danışmayan dil saxlayasan.
Yanında, yörəndə əzizlər ola,
Yoldaşın həmişə təmizlər ola.
Ruhuna yad ola giley, şikayət,
Söhbətdə təzəlik, sözdə təravət,
Keçə iliyinə, hopa qanına,
Həzin layla kimi yata canına.
Küskünlük olmaya yaşdan, ömürdən,
Üzünə yaraşa saçındakı dən.
Sellər axarını bulandırmaya,
Uşaq doğulasan, uşaq öləsən!

Ürəklər almaya gündə bir zədə,
Böhtanlar həyatdan baş alıb gedə.
Tamahlar, iştahlar köçünü çəkə,
Nə haram əl qala, nə haram tikə.
Nə çətin dərd ola, nə ağır günah,
Xəcalət hissiylə çəkməyəsən ah.
Bu köhnə dünyanın dərib barını,
Təzə saxlayasan duyğularını.
Baxanda əlindən gedən ömrünə,
Peşman olmayasan gəldiyin günə.
Qocalıq gənclikdən geri qalmaya,
Uşaqlıq marağın heç azalmaya.
Gördüyün dünyadan gül ətri gələ,
Olmaya pambıqla bir də baş kəsən.
Alqışlar gorunu nurla doldura
Uşaq doğulasan, uşaq öləsən!

## KEŞİYİNDƏDİR

Qayanın altında yaşıl tülə bax,
Qayanın döşündə açan gülə bax!
Görüb bu istəyi, bu qohumluğu
Döyünən, çırpınan bir könülə bax!
Başında oynaşan borana baxmaz,
Kökünü tərpədən tufana baxmaz!
Qayalar həmişə sərt olur, könül,
Çiçək var yaşayır kəpənək ömrü,
Köntöy bir baxışdan pərt olur, könül.
Qaya ömrü hara, gül ömrü hara,
Bəs bu yaxınlığın mənası nədir?
Sevməyə çağırır təbiət bizi,
Oğullar qızları qoruyan kimi,
Sərtlik zərifliyin keşiyindədir!

## GÖRMƏYƏ

Əvvəlini görməmişəm dünyanın,
Gümanım yox axırını görməyə.
Qalayını görmüşəmsə bəsimdi,
Meylim yoxdu paxırını görməyə.

Söhbətiyəm pərdələrin, simlərin,
Sirdaşıyam ötüb-keçən dəmlərin.
Yaranmışam sevinclərin, qəmlərin,
Yüngülünü, ağırını görməyə.

Ürəyimdə bir dünyalıq məhəbbət,
Yormaz məni nə ayrılıq, nə həsrət.
Axtardığım həqiqətdir, həqiqət,
Can atıram axır onu görməyə.

## YAZIN BİR GÜNÜ

Arzularım, toxuma dön,
Torpağa düş, göyər bu gün!
Dilə gəlməz daşlar belə
Göy mamırı paltar bilib
Öz əyninə geyər bu gün!
Qızıl Günəş, təmiz hava
Öz sözünü deyər bu gün!
Bülbül bağda mənəm deyib,
Cəhcəhimlə şənəm deyib,
Nəğməsini öyər bu gün!
Yeri, göyü qucmağa da,
Qanad açıb uçmağa da,
Dəyər, könül, dəyər bu gün!
Arzularım, toxuma dön,
Torpağa düş,
Göyər,
        göyər,
                göyər bu gün!!!

## SƏSSİZ ÖTMƏ O QOCANIN YANINDAN

Səssiz ötmə o qocanın yanından,
Qəm karvanı ürəyindən yol çəkər.
Salam verib sevindirsən qəlbini,
Arı qonub sevincindən bal çəkər.
Doğmalardan biganəlik görəndə
Diri-diri dünyasından əl çəkər.
Ağrı qalxar ürəyindən, canından,
Səssiz ötmə o qocanın yanından.
Kim axtarsa yasda, toyda görərdi,
Ürəyini dağlar boyda görərdi.
Fil gücünü, el gücünə qatardı,
Damlasını sel gücünə qatardı.
Əridərdi gilə-gilə ömrünü,
Tükədərdi bilə-bilə ömrünü.
Oğlun, qızın, dostun, yadın yolunda,
Nur olardı istedadın yolunda.
Dara düşən, əli yanan görəndə,
Harda haqqı bir tapdanan görəndə
Qılınc kimi sıyrılardı qınından,
Səssiz ötmə o qocanın yanından!

Yeriyəndə yerişini ləngidir,
Bədənində yeddi yerdən yara var.
Hara belə havalanmış ötürsən,
Aranızda bircə addım ara var!
Atılanda alovlara, odlara,
Sinəsini sipər edib yadlara.
Yurdumuzu yandıranda yağılar,
Dilimizi göynədəndə ağılar,
İnam adlı Allahına güvəndi,
Vətən adlı pənahına güvəndi.

Ürəyini yanan çıraq eylədi,
Başı üstə haqqı bayraq eylədi.
Yara aldı, çöl qızardı qanından,
Səssiz ötmə o qocanın yanından!

Əsə-əsə təsbeh çəkən əlinə,
Əsasına, eynəyinə fikir ver.
Göylər kimi necə dolur, boşalır,
Ürəyinin göynəyinə fikir ver.
Bəlkə elə qasid gəlib əyləşib,
Dözməsə də səsə, küyə, yığnağa
Diqqətini, qeyrətini yoxlayıb,
Cavanları bir-bir çəkir sınağa.
Bəlkə elə qamətini əyən var,
Bəlkə elə ürəyinə dəyən var.
Bir xəbər tut ömrün kövrək anından,
Səssiz ötmə o qocanın yanından!

Səssiz keçsən, o qocanın yanından
Elə bilər adamlığın axırıdı,
Elə bilər insanlığın sonudu.
Elə bilər yazın ömrü tükənib,
Qarlı qışın şaxtasıdı, donudu.
Qayğıların bolluğunu görməsə,
Cavanların qulluğunu görməsə
Elə bilər gözdən düşüb qocalar.
Gözdən düşən çox çətin ki, ucalar.
Elə bilsə, dərdi üstə dərd gələr,
Çiynindəki dağlar boyda yük enməz.
"Gündən-günə işi düşər müşkülə",
Ağrıları, əzabları tükənməz.
Cavan oğlan, ixtiyarın önündə
Məhəbbətlə öz başını əyib keç.
Əllərini sıx əlinlə ürəkdən,
"Qoca baba, xoş görmüşük" deyib keç.
Baxışınla qoy nurlansın gözləri
İşıq alsın ömrün qızıl dadından,
Səssiz ötmə o qocanın yanından!

## MƏNİM DOSTUM

Sevincə etibar yoxdur,
Ömrü bir an qədər imiş.
Hər gülüşün, təbəssümün
Axırı bir xətər imiş.

Biz dördəlli tutduq onu,
Uddu yenə udduğunu.
Dünya tutur tutduğunu,
Sızıldamaq hədər imiş.

Həyat səssiz-küysüz ötməz,
Sirlərinlə xəyal yetməz.
Demək, yoxdur gələr, getməz,
Gələn bir gün gedər imiş.

Dərd dondurar, buz kimidir,
Yara üstdə duz kimidir.
Sevinc şıltaq qız kimidir,
Mənim dostum kədər imiş.

## DAĞDAN ENİB GƏLƏN OĞLAN

Eşqin sulardan durudu,
Nurun peyğəmbər nurudu,
Qürurun dağ qürurudu,
Dağdan enib gələn oğlan.

Unudulub ağrın, acın,
Sal qayalar taxtın, tacın.
Daş qardaşın, çiçək bacın,
Dağdan enib gələn oğlan.

Həmi zilsən, həmi pəssən,
Coşan nəğmə, daşan səssən.
Dağlar qədər yenilməzsən,
Dağdan enib gələn oğlan.

Qartal qıylı, tərlan səsli,
Yer havalı, yurd nəfəsli,
Təbiətin bahar fəsli,
Dağdan enib gələn oğlan.

Dolçası lilpardan olan,
Ağ papağı qardan olan,
Söz-söhbəti yardan olan
Dağdan enib gələn oğlan.

Sür ömrünü bu torpaqla,
Yüzü aşır, mini haqla.
Ucalığı uca saxla,
Dağdan enib gələn oğlan.

## MƏNİ

Deməsin dəlidi huşsuz görəndə,
Yersiz qınamasın baxanlar məni.
Qalarmı başımda ağlım, kamalım,
Azdımı yandırıb-yaxanlar məni.

Aşiqin istəyi, gözəlin nazı,
Gətirər hər ömrə baharı, yazı.
Bilər nə deməkdir aşığın sazı,
Duyar selə dönüb axanlar məni.

Ruhlar cərgəsində çəkər sanımı,
El deyər itirdim Zəlimxanımı.
Xalları, gülləri alıb canımı,
Ya saz öldürəcək, ya Xanlar məni!

## HAYIF, VAXTIMIZ AZDI

Həvəsi alov açıb, nəfəsi gül qoxuyan,
Bülbüldü, yoxsa insan belə qaynar oxuyan.
Bu nə gözəl nəğmədi, bu nə şirin avazdı,
Oxumaq istəyirik, hayıf, vaxtımız azdı!

Bu incə döndərmələr, zərif xallar kimindir,
Bu müqəddəs arzular, xoş xəyallar kimindir.
Könüllərə od vuran kimin çaldığı sazdı,
Dinləmək istəyirik, hayıf, vaxtımız azdı!

Güllərin insafı yox, çiçəklərin Allahı,
Ayrılıq vaxtı gəlsə bizə çəkdirər ahı.
Bu nə sehrli bahar, bu nə ətirli yazdı,
Qoxlamaq istəyirik, hayıf, vaxtımız azdı!

Gözəlliyi, gözəli gözümüzdən qoymuruq,
Ay Zəlimxan, dünyadan yorulmuruq, doymuruq.
Həyat da heç soruşmur kimin işi tarazdı,
Yaşamaq istəyirik, hayıf, vaxtımız azdı!

## NƏLƏR ÇƏKİB

Saçlarımın ağı bilər,
Ürəyimin dağı bilər,
Həsrət bilər, ağı bilər
Yanaq yaşdan nələr çəkib.

Bu dünya bir yanar ocaq,
Yanğısı var qucaq-qucaq.
Onu Fərhad bilər, ancaq
Külüng daşdan nələr çəkib.

Arzu, mətləb qalıb gendə,
Fikir, xəyal azıb çəndə.
Ağıl uçub, huş gedəndə
Ayaq başdan nələr çəkib.

Yuxla, ayıl, əlləş, vuruş,
Qazanc nədir? Qəpik, quruş.
Ötüb-keçən ildən soruş
Ömür yaşdan nələr çəkib.

## GÖRƏ BİLMƏDİM

Mən gülü tikansız görmək istədim,
Tikanı ziyansız görmək istədim,
Görə bilmədim.

Yalanı ayaqsız görmək istədim,
Həyatı boyaqsız görmək istədim,
Görə bilmədim.

Ürəyi kədərsiz görmək istədim,
Sevinci qədərsiz görmək istədim,
Görə bilmədim.

Zamanı silahsız görmək istədim,
İnsanı günahsız görmək istədim,
Görə bilmədim.

Dünyanı azarsız görmək istədim,
Torpağı məzarsız görmək istədim,
Görə bilmədim.

Həmişə göz yolda, qulaq səsdədir,
Bu niyə belədir, niyə, bilmirəm.
Mən görə bilmədim istədiyimi,
Görən olacaqmı?
Deyə bilmirəm!

## DAĞLAR

Günəş ucalardan uca dursa da,
Hər yerdə hökmünü yeridə bilmir.
Düzlərdə bir günə əriyən qarı,
Dağlarda bir ilə əridə bilmir.

Bükülmür biləyi, qatlanmır dizi,
Girir şimşəklərlə güləşə, dağlar!
Vüqarla doldurur ürəyimizi,
Haqqı var, naz satır Günəşə dağlar!

## GÖRƏRİK

Al havamı,
Sındır eşqimi,
Qır qanadımı!
Elə günə sal
İtirim özümü,
Unudum adımı!
Axmasın buz bulaq,
Yanmasın gur ocaq.
Görərik axırda
Kim itirəcək,
Kim qazanacaq!

## DAHA MƏNİM DUYĞULARIM ÜRƏYİMƏ SIĞIŞMAZ

Hər gözümün giləsindən yüz göz baxar dünyaya,
Bir baharı dəyişmərəm min bahara, min yaya,
Vurğunluğum, heyranlığım saymaqla gəlməz saya.
Nəğmə kimi dalğa-dalğa ürəyimə hopar yaz,
Daha mənim duyğularım ürəyimə sığışmaz.

Mən özüm də sığışmadım təbiətə, varlığa,
Heyran oldum genişliyə, üsyan etdim darlığa.
Lal qayalar dilə gəldi, son qoyuldu karlığa,
Çay kükrədi, bulaq coşdu, köynəyindən çıxdı saz,
Daha mənim duyğularım ürəyimə sığışmaz.

Könlüm deyir: hər ocaqda şadlıq görüm, toy görüm,
Gözüm deyir: az baxmışam, bu dünyanı qoy görüm.
Bacarırsan həyat adlı bir gözəldən doy görüm,
Vaxt amansız, yollar uzun, ömür qısa, azdan az,
Daha mənim duyğularım ürəyimə sığışmaz.

Düşüncələr dənizində qol ataram, üzərəm,
Axtarışda hər dalğanın zərbəsinə dözərəm,
Dərinlərdə inci tapıb söz yurdunu bəzərəm.
Bir dərinin hikmətinə qurban olsun yüz dayaz,
Daha mənim duyğularım ürəyimə sığışmaz!

## APARIRAM

Bu dağdan ürəyimdə,
Bir çəmən aparıram.
Bir az duman götürüb,
Bir az çən aparıram.

Ucaldım zirvələrtək,
Hər gün ucalmaq gərək.
Ürəyi dolu, kövrək,
Ruhu şən aparıram.

Özüməm çiçək dərən,
Özüməm çələng hörən.
Dağda nə qalır görən,
Dağı mən aparıram!

## TOXUMLAR,
## CÜCƏRTİLƏR

O adam ki, cılızdı,
O adam ki, xırdadı,
Başı göyə dəysə də,
Axırı axırdadı!

***

Budaq əyilirsə, yetişir barı,
İnsan əyilirsə, sınır vüqarı.

***

Dağa çıxdım, dəyə qurdum,
Xana qurdum, bəyə qurdum.
Belə ki, tez köçəsiydim,
Heç bilmədim nəyə qurdum.

***

Yoxdur döyünməyi, yoxdur duymağı,
Hicranın ürəyi daş yuvasıdır.
Sənsiz məhəbbətim çılpaq budaqda
Yellərə yem olan quş yuvasıdır!

***

Tayfalar, ay tayfalar,
Qardaş öz qardaşından
Əvəz çıxar, heyf alar!

***

Gözlədiyim fikir vardı,
Yavaş-yavaş gəldi çıxdı.
Sanki, qaya sinəsini
Çiçək kimi dəldi çıxdı!

***

Bizim dostluğumuz tutur, ey kədər,
"Dilqəmi" üstündə ötən sazıq biz.
Ömrümün, günümün sonuna qədər
Yağışla buludtək ayrılmazıq biz.

***

Əzizim arxasızdı,
Su gəldi arxa sızdı.
Təpə var arxalıdı,
Dağ gördüm arxasızdı!

***

Təzənəm var,
Sazım var, təzənəm var.
Kimin nəfəsi dəyib,
Üzündə təzə nəm var.

***

Çiçəklər telini darayıb, hörüb,
Yoluma nur saçıb hər səhər-axşam.
Gözüm ki bu qədər gözəllik görüb,
Yaxşı ki, heyrətdən lal olmamışam!

***

Quraq olsa itirər,
Yağar olsa bitirər.
Fəslin üzü güləndə
İlin bəxti gətirər.

***

Qonaq ol Xaçbulağa,
Baş götür qaç bulağa.
Elə ki, yandı qəlbin,
Dərdini aç bulağa!

***

Axşam düşür, gecə keçir,
Bu axarda, bu gedişdə
Tanrı bilir,
Kimin halı necə keçir.

***

Ömrə, günə balta çalar,
Sərt fikirlər, düşüncələr.
Dünya dərdi daşımaqdan
Dağ üzülər, daş incələr!

***

Bir nadan qəlbimə yaman toxunub,
Elə pərişanam, elə dalğınam,
Özüm də bilmirəm kiməm, nəyəm mən?
Çatın harayıma uca zirvələr,
Qırx arşın quyunun dibindəyəm mən!

***

Bu gün uzaq gəzir, kənar dolanır,
Dünən nəfəsimlə uyuyan gözəl.
Kimin ürəyini isidir görən,
Məndən yavaş-yavaş soyuyan gözəl.

***

Ayağımız da var, qanadımız da,
Sürünmək də olar, uçmaq da olar.
Bir nəslin gözünü bir bulaq kimi,
Bağlamaq da olar, açmaq da olar.

***

Bahar havasında, bahar çağında,
Cavan bir oğlanın vurğunluğu var.
Payız mövsümündə, payız dəmində
Qoca bir kişinin yorğunluğu var.

***

Əl yazır, ürək də gətirir yada,
Könül nəğmələrin bolluğundadı.
Dəftər də, qələm də, şam da, masa da,
Hamısı şairin qulluğundadı!

***

Daş üstə daş qoymasan,
Ad itər, san tapılmaz.
Xatirəsiz bir ömrü
Xatırlayan tapılmaz!

***

Bir əsgər ömrüdü ağsaqqal ömrü,
Hər ürək bu yükü daşıya bilməz.
Bir səngər ömrüdü ağsaqqal ömrü,
O səssiz-səmirsiz yaşaya bilməz.

***

Açılan sabahlar, gələn soraqlar,
Toya da çağırır, yasa da məni.
Ömrümün-günümün qürub çağında
Eynək də gözləyir, əsa da məni.

***

Kim gədədi, gədəsindən danışar,
Kim dədədi, dədəsindən danışar.
Nə dünəni, nə sabahı görməyən
Öz vaxtından, vədəsindən danışar.

## YAŞAMISAN

Dayan, hərdən arxaya bax,
Gələn insan, gedən qonaq.
Ya şam olub, ya da çıraq,
Əridinsə, yaşamısan!

Ömrü keçirməsən hədər,
Ölüm ölməzliyə dəyər.
Bu dünyadan dünya qədər
Yaradınsa, yaşamısan!

Od yollarda, su yollarda,
Günahın var, yu yollarda.
Sürünmədin bu yollarda,
Yeridinsə, yaşamısan!

Şər ilandı, şər əfidi,
Saflıq ömrün şərəfidi.
Qoru görüm şərəfi di,
Qorudunsa, yaşamısan!

## HƏYAT

Aşağı bir həyatdı,
Yuxarı bir həyatdı.
Suyun gözü bir həyat,
Axarı bir həyatdı.
Tərəqqi də həyatdı,
Tənəzzül də həyatdı.
Təzə açan çiçək də,
Solan gül də həyatdı.
Nəğməli beşik həyat,
Sükutlu məzar həyat.
Dağın zirvəsində də,
Dərənin dibində də,
Var yaşayış, var həyat.
Həmi şəkərdən şirin,
Həm də zəhərdən acı.
Şirini, acısıyla
Başımın qızıl tacı!
Bu ulu şirinliyə
Kim çatmaya, kim çata.
Günəşli gündüzləri
Qalsın hələ bir yana.
Nəmli zindanlarda da
Qurban olum həyata!!!

## YOXDU

*Allah sənə rəhmət eləsin, böyük Vaqif,*
*sən nədən şikayət edirdin, gör mən*
*nədən şikayət edirəm*

İlahi, nə yaman günlərə düşdük,
Dodaq söykəməyə duru su yoxdu.
Göylərə çəkildi saflıq, təmizlik,
Daha könüllərin durusu yoxdu.

Oxlar sinəsini dəldi dağların,
Başına gör nələr gəldi dağların.
Atası, anası öldü dağların,
İlxısı, naxırı, sürüsü yoxdu.

Kəsildi, doğrandı əli, ətəyi,
İncələr, zəriflər yedi kötəyi.
Daha sevgilərin balı, pətəyi,
Daha çiçəklərin arısı yoxdu.

Yüz dəfə möhkəm ol, min dəfə mətin,
Sular bulananda durulmaq çətin.
İblisi çox olan bir məmləkətin,
Zöhrəsi, hürüsü, pərisi yoxdu.

Bu dünya cavabsız sualdı daha,
Su qan qırmızıdı, su aldı daha.
Bütün yer üzünü su aldı daha,
Beş addım atmağa qurusu yoxdu.

Kəmfürsət heç baxmır enə, geriyə,
Bu başla işimiz çətin yeriyə.
Nə ölüyə baxır, nə də diriyə,
Elə bil ölüsü, dirisi yoxdu.

Yedilər, içdilər, doydular, babam,
Axır yaman günə qoydular, babam.
Bu xalqı o qədər soydular, babam,
Daha soyulmağa dərisi yoxdu.

## ACI ETİRAF

Mənə nələr vermədi əsrin axır illəri,
Gözümə yaşı verdi, saçıma qarı verdi.
Hər kəndə, hər şəhərə bir şəhid qəbristanı,
Hər evə, hər ocağa şəhid məzarı verdi.

Tarix mənə nə verdi, ağrı, işgəncə, əzab,
Qanım sellərə döndü, əldən Xocalı getdi.
Şuşa əldən çıxanda uzun dilim gödəldi,
Sözümün, söhbətimin şərbəti, balı getdi!

Tarix mənə nə verdi, əsir düşüb ağlamaq,
Od kimi tüstüləndim, ocaq kimi qalandım.
Boy çatmırdı boyuma, ucalar ucasıydım,
Kəlbəcər veriləndə xeyli balacalandım!

Nuhun tufanındadı bu gün Azərbaycanım,
Onu Ağrı dağına qaldıran bir gəmi yox.
İştahlarda yeyildi, tamahlarda daşındı,
Sağalmaz yarası var, sağaldan məlhəmi yox.

Gurultuyla inanıb, parıltıyla aldanıb,
Dilbilməz uşaq kimi özümü aldatmışam.
İsrafilin suru da ayılda bilməz məni,
Mən ki fil qulağında zaman-zaman yatmışam.

Yurdu qorumaq üçün, o dağların döşündə,
Palıd kimi kök atıb, qaya kimi bitmədim.
Min il kəsilməyəcək Laçının göynərtisi,
Çalbayır çağıranda harayına yetmədim!

Başımdakı dumanlar bir də çətin dağılar,
Lənətlə anılacaq sabah bəlkə də adım.
Babaların qəbrini dağıdanda yağılar,
Bir qəbir yeri boyda torpaq qoruyammadım!

Mən ki bu torpaq üçün canımdan keçəmmədim,
Ölsəm, məni qoynuna götürməyə haqqı yox!
Mənim duyğularımı gərəksiz toxum kimi,
Çürütməyə haqqı var, bitirməyə haqqı yox!

Qoy mənim başdaşımda bu tarix yazılmasın,
Yandırın cənazəmi, külüm sovrulsun göyə.
Bu illərdən göz yaşı, xəyanət gördüm deyə,
Torpağın heç yerində məzarım qazılmasın!!!

## BU XALQIN ÇÖRƏYİ

Gözümün yaşını elə yağdırıb,
Bu xalqın dizinə su birdən çıxıb.
Oğlunun, qızının səsi-sorağı,
Bakıdan batanda Sibirdən çıxıb.

Qanını soranlar zəliyə dönüb,
Ağıllı qorxudan dəliyə dönüb.
Dirisi sustalıb, ölüyə dönüb,
Ölüsü xortlayıb, qəbirdən çıxıb.

Haqq deyib, haqqını gəzib bu millət,
Əzəndə özünü əzib bu millət.
İlahi, nələrə dözüb bu millət,
Bu xalqın çörəyi səbirdən çıxıb.

# İNSAN

İnsan həkim olur,
Karın qulağını,
Korun gözünü,
Lalın dilini açanda!
Qəlbinin sevgisini xəstələr pay verib,
Gözünün işığını könüllərə saçanda!
İnsan şair olur,
Bir körpə təmizliyi,
Bir uşaq marağıyla,
Dünyaya vurulanda!
Bakirə duyğuları
Dağın çeşməsi kimi axanda, durulanda!
İnsan rəssam olur:
Dünyanın rənglərini duyğulara çevirib,
Qəlbindən keçirəndə!
Yeri, göyü, həyatı,
Hüdudsuz Kainatı
Təbiətdən götürüb kətana köçürəndə!
İnsan bəstəkar olur:
Yaratdığı nəğmələr
Haqqın sədası kimi ürəklərə hopanda!
İnsan peyğəmbər olur:
Yer üzündə nə varsa,
Hamısını düşünüb, hamısını ananda!
Allahla danışmağın
Yolunu öyrənəndə, haqqını qazananda!
Bəstəkar olanda, həkim olanda,
Peyğəmbər olanda, şair olanda,
Gözdə işıq, canda təpər, damarda qan olur.

İnsan qalxır insanlığın fövqünə,
Əsl insan olur!
İnsansız axşam düşüb,
İnsansız sabah olmur.
Deyirəm öz-özümə:
İnsanda ki bu güc var,
Nə yaxşı bu hünərlə çevrilib Allah olmur!!!

## ÖMÜR YOLU

Ömür boyu başdan-başa döyüşdü,
Dağdan-dağa, daşdan-daşa döyüşdü.
Yüz il yaşa, min il yaşa, döyüşdü,
Hünərin var, döyülməmiş ömr eylə!

Fil dayanır, ətrafında yüz it var,
Ala köpək, qara çaqqal, boz it var.
Hər imamın yanında bir yezid var,
Tanrım, mənim düşmənimi şümr eylə!

Dərd sinəndə körpü salar, yol eylər,
Ölənəcən həsrətini bol eylər.
Allah səni hər əmrinə qul eylər,
Hünərin var, sən Allaha əmr eylə!

## DURNALARA SÖZÜM

*Payız fəslinin kövrək çağları idi. Qədim Ağstafa qəbiristanlığında unudulmaz xalq şairimiz Hüseyn Arifin dəfn mərasimini keçirirdik. Xatirələrin, vida sözlərinin dilimizi yandırdığı bir vaxtda qaqqıldaşa-qaqqıldaşa başımızın üstündən bir dəstə durna keçdi. İstər-istəməz "amandı, durnaya güllə atmayın" harayı qulaqlarımda səsləndi. Kim bilir durnalar bəlkə də bu haray üçün şairə minnətdarlığını bildirməyə, son borclarını verməyə gəlmişdi. Bəlkə də Vaqifin, Vidadinin ruhu durnalara dönüb, xalqımıza başsağlığı gətirmişdi.*

Gedən durnam, Vidadiyə xəbər ver,
Nə durmusan, Hüseyn Arif öldü de!
Tamaşaya Bakı – Qazax yeridi,
Vaqif özü Qarabağdan gəldi, de!

Gözüm görər duman-çənin içində,
Canmı dözər ahın-ünün içində.
Zöhrə, Səhər bircə günün içində,
Çiçək kimi saraldı de, soldu de!

Bu itkidən donasıydı Məleykə,
Bu həsrətə yanasıydı Məleykə.
Arifimin anasıydı Məleykə,
Dözəmmədi, saçlarını yoldu de!

Əl-ayaqlı sevinc itdi, yox oldu,
Şair qəlbi qəm sarıdan tox oldu.
Arif dərdi pası getməz ox oldu,
Neçə-neçə sinələri dəldi de!

Siləmmədik bu həsrətin pasını,
El itirdi şairlərin xasını.
Dilqəm tutdu nəğməkarın yasını,
Aşıq Alı bu möhnəti bildi de!

Ayrı saldı ocağından, pirindən,
Vaxtsız ölüm dağ oynatdı yerindən.
Səməd Vurğun köks ötürdü dərindən,
Ala gözlər bulud kimi doldu de!

Gedən durna, bir pay endir lələkdən,
Şikayəti yazım qanlı fələkdən.
Şair ömrü tez ələndi ələkdən,
Güləndə də dərd içində güldü de!

Nə bəd xəbər gətirdiniz desələr,
Nə ağır yük gətirdiniz desələr,
Niyə vaxtsız itirdiniz desələr,
Bu da belə bir iş idi, oldu de!

Zaman tez-tez İsgəndərlə öc oldu,
Dərd çoxaldı, Zal qızına güc oldu.
Qaçaq Kərəm desə şair necoldu?
Son ayrılıq onu bizdən aldı de!

Aşıq Mirzə gəlsin qəbrin üstünə,
Saz götürsün, qələm alsın dəstinə.
Növbə çatdı aşıqların dostuna,
Ayrılığın havasını çaldı de!

Kimlər gəldi, kimlər getdi, göz yetir,
Gedəmməsən küləklərdən yaz yetir.
Bu xəbəri Təbrizimə tez yetir,
Qoşqar, Kəpəz xəyallara daldı de!

Daha gəzmə dağ-aranda Hüseyni,
Nə bürküdə, nə boranda Hüseyni.
Xaloğlu da axtaranda Hüseyni,
Şair ömrü yarıyolda qaldı de!

Ruhdan-ruha, candan-cana calandı,
Səsdən-səsə, süddən qana calandı.
Neçə-neçə Zəlimxana calandı,
Öz ömrünü ömürlərə böldü de!

***1992, 24 oktyabr***

## YOL AYRICINDA

Dünyada gün görüb, ömür sürməyi,
Hər ürək istəyir, hər can istəyir.
Kimi öz meylini yara bağlayır,
Kimi qızıl gəzir, mərcan istəyir.

Yollarda bir tabut keçsə yanımdan,
Bıçaq vur, damla da çıxmaz qanımdan.
Min dəfə şirindi canı canımdan,
Mən həyat deyirəm, yer can istəyir.

Axtarsa həyatda kim tapacaq, kim,
Yollar ayrıcında bilinməz yerim.
Zəlimxan, canımı mən kimə verim,
Əzrayıl can alır, yar can istəyir.

## ŞÜKÜR KƏRƏMİNƏ

Xatirələrim dünənin əlindədi,
Ümidlərim sabahın.
Ömrün keçmişinə baxıram –
Yarısı savabın içində əriyib,
Yarısı günahın.
Vaxtında bilmişəm
Hardadı qibləm,
Hardadı Məkkəm!
Yolunu çaşmamışam,
Haqq adlanan dərgahın.
Verdiyi ömrü pis yaşamadım,
Şükür qismətinə tanrının,
Şükür kərəminə Allahın!

**BABAM**

*Qalaaltıda müalicədə idim. Saatlı rayonundan gəlmiş 80 yaşlı Ağamirzə kişi ilə tanış olub doğmalaşdıq. Sinəsi incilər xəzinəsiydi. Heyranlığımı görüb məndən yadigar bir şeir istədi. Bu misralar onun eşqinə dünyaya gəldi.*

Tanış olduq Qalaaltıda,
Bu da bir qismətdi, babam!
Fikir verdim söhbətinə,
Gördüm ki, hikmətdi babam!

Aydın zəka, ağıllı baş,
Qoymaz insan qala çaşbaş.
Dolu sinə, iti yaddaş,
Xalqa bir sərvətdi babam!

Dilində şeirin təzəsi,
Canında eşqin məzəsi.
Adamların baməzəsi,
Məclisə zinətdi babam!

Daşa-daşa, dola-dola,
Səksən ili saldın yola.
Yüzə doğru uğur ola,
Ömür səyahətdi, babam!

Yaxşı dur, yaxşı yar saxla,
Dağsan, başında qar saxla,
Şairdən yadigar saxla,
Şeir bir nemətdi, babam!

Səninkiyəm, sənəm daha,
Sünbülündə dənəm daha,
Bir oğlun da mənəm daha,
Bu sənə şöhrətdi, babam!

Haqq yerini seçən zaman,
Yurddan-yurda köçən zaman,
Qıl körpüdən keçən zaman,
Məkanın cənnətdi, babam!

Hopdun qəlbə, yatdın qana,
Layla kimi axdın qana.
Baba oldun Zəlimxana,
Böyük cəsarətdi, babam!

## ŞAİR VAXTI

Vaxt olar, zəhmətin zay olar, heç olar,
Vaxt olar, qurbanın xınalı qoç olar.
Vaxt olar, qazancın vədəsiz köç olar,
Bu dünya bir dəniz, sən onun adası,
Bu, şair baxtıdı, darılma, qadası!

Çəkilməz ağrısı, daşınmaz yükü var,
Buludda budağı, torpaqda kökü var,
Şeşindən min dəfə çox gələn yeki var,
Dünyanın zəhrini şairlər dadası,
Bu, şair baxtıdı, darılma, qadası!

Söz olub dodaqdan-dodağa qonmaqdı,
Köz olub yandırmaq, od olub yanmaqdı,
Ayazda üşümək, şaxtada donmaqdı,
Axırda qismətin ya oddu, ya da su,
Bu, şair baxtıdı, darılma, qadası!

Ulu söz gözlərə işıqdı, çıraqdı,
Əllərdə silahdı, dillərdə yaraqdı.
Səninki dəftərdi, qələmdi, varaqdı,
Kiminin işi çox, kiminin ədası,
Bu, şair baxtıdı, darılma, qadası!

Vaxt olar, qoruyub üstündə əsəllər,
Vaxt olar, küsdürər, vaxt olar, küsəllər.
Dərini soyallar, başını kəsəllər,
Min ildən sonra da kəsilməz sədası,
Bu, şair baxtıdı, darılma, qadası!

Baxma ki, başında tufan var, şimşək var,
Bağında həmişə dərməyə çiçək var,
Allahın sənə ki verdiyi ürək var,
Hamının odudu, hamının odası,
Bu, şair baxtıdı, darılma, qadası!

## ƏHMƏD CAVAD

Əhməd Cavad hardan alıb bu şöhrəti,
Nə şah olub, nə bəy olub, nə xan olub.
Əqidələr döyüşündə əyilməyib,
Haqq yolunda qılınc olub, qalxan olub.

Sağ-solunda qəm əyləşib, dərd dayanıb,
Tufanlarda qaya kimi sərt dayanıb.
Hər sərtliyin qarşısında mərd dayanıb,
Qəzəbindən şimşək kimi çaxan olub.

Varlığında od dillənib, köz danışıb,
Dil susanda baxış dinib, göz danışıb.
Nə deyibsə doğru deyib, düz danışıb,
Öz əliylə öz evini yıxan olub.

Getdiyi yol ölməzliyin uzaq yolu,
Misraları sellər kimi dəli-dolu.
Taleyinə ələnib qar, yağıb dolu,
Çiçək kimi qar altından çıxan olub.

Sın! – deyiblər, saat-saat sındırıblar,
Don! – deyiblər, damar-damar dondurublar.
Yan! – deyiblər, yavaş –yavaş yandırıblar,
Düşmən gülüb, dost kənardan baxan olub.

Hər şirin söz bir qəzəbə, hirsə dönüb,
Allahsızlıq qanun olub, dərsə dönüb.
Bu dünyanın avand işi tərsə dönüb,
Zülmət gəlib aydınlığı boğan olub.

Qəlbi korlar görən gözün qənimiydi,
Yalan haqqın, əyri düzün qənimiydi,
Qızıl güllə qızıl sözün qənimiydi,
Şair qanı su yerinə axan olub.

Əhməd Cavad Göygöl kimi ləpələnib,
Şehə dönüb, duyğulara səpələnib.
Tikə-tikə parçalanıb, qəlpələnib,
Kükrəyəndə yağış kimi yağan olub.

Qoca Şəmşir ona layla çalanda da,
Qədim Gəncə öz qoynuna alanda da,
Qanlı cəllad onu gözdən salanda da,
Əhməd Cavad haqqa doğru baxan olub,
Əhməd Cavad haqq əlini sıxan olub.

Ömrü boyu dilində dərd, gözündə yaş,
Ömrü boyu canında od, yolunda daş,
Müşfiqimiz bu günləri görəydi kaş,
Cavidimiz bu günləri görəydi kaş,
Cavadımız bu günləri görəydi kaş,
Görəydi ki, nur zülməti boğan olub,
Görəydi ki, gün təzədən doğan olub!!!

## QOCASAN DEMƏ

Sevgilim, anama qocasan demə,
Gəl, onun eşqinə, gəl, işinə bax!
Kövrələn qəlbindən süzülüb gələn
Şirin nəğmələrin gəlişinə bax!

Uzansın daha da ömrünün yolu,
Demə ki, incəlib, üzülməsi var.
Sən xallı-xalçalı bir otaqdasan,
Onun hər naxışında yüz ilməsi var!

Gülsə, doxsan ilin dodağı qaçar,
Ağlasa, dünyanın çatılar qaşı.
Havalı gəzsən də, havasına yat,
Yanından keçəndə bir az yavaşı.

Sənə o qədər də asan gəlməsin,
Rənginin, saçının dümağ olması.
Burula-burula ipə dönənin,
Bükülə-bükülə yumaq olması!

O bütün güllərdən əzizdir mənə,
Ətri min çəmənin ətrinə dəyər.
Qara tellərinlə çox da öyünmə,
Ağaran tellərin xətrinə dəyər!

## AY BULAQ

Ay bulaq, mən sənə dayaz demərəm,
Səndə damlanın da dərinliyi var.
Dadsız da demərəm, nurlu gözündə
Ülvi bir məhəbbət şirinliyi var!

Əyilim, hörmətlə öpüm gözündən,
Mənə saflıq da ver, dərinlik də ver.
Belə ki, qaynarsan, qaynat könlümü,
Belə ki, sərinsən, sərinlik də ver.

Müqəddəs arzumdu sevmək, sevilmək,
Demirəm ya dəniz, ya da dağ olum.
Nemətdi duruluq, saflıq, təmizlik,
Bəsimdi, sənintək bir bulaq olum!

## QİSMƏT

Göyün bəxtinə ulduz,
Yerin bəxtinə çiçək,
Çiçəyin qismətinə
Şeh pay olub, nəm düşüb.

Min gözəlin içində,
Qəribin qismətinə
Gəlib Şahsənəm düşüb.
Leyli Məcnuna qismət,
Əsliyə Kərəm düşüb.

Hər kəs öz qismətinə,
Bir yerdən açıb qapı,
Nə zaman ki əlinə,
Fürsət keçib, çəm düşüb.

Tanrı, sənə çox şükür,
Bu həyatı duymağa,
Bu həyatdan yazmağa,
Nə yaxşı qismətimə
Dəftərlə qələm düşüb.

## ÖMRÜM BOYU

Ömrüm boyu yol yeriyəm, yol gedəm,
Arzularım dağdan-dağa boylana.
Axar çaya, gur bulağa baxanda,
Duyğularım dənizlənə, çaylana.

Ömrüm boyu qələm tutam, saz çalam,
Pərdələrdə barmaqlarım ballana.
Sazı duyan, sözü sevən kəslərin
Sevincindən yanaqları xallana.

Ömrüm boyu işıq verəm, nur yayam,
Baxışımdan barsız budaq barlana.
Nəfəsimdən daş üstündə gül bitə,
Quru səhra həyat tapa, varlana.

Ömrüm boyu körpü salam, yol çəkəm,
Əməllərim nəğmə kimi səslənə.
Hər yolçuya çıraq tuta əllərim,
Hər könüldə məhəbbətim bəslənə.

Ömrüm boyu çeşmə olam, çay olam,
Nəfəs verəm çəmənimə, çölümə.
Nə qədər ki dirilik var əlimdə,
Hazırlaşam bir şərəfli ölümə!

## TƏZƏLƏ RUHUMU

Qışından quşbaşı qar göndər mənə,
Yazından bir çəmən var göndər mənə.
Qızıl payızından bar göndər mənə,
Təzələ ruhumu, təzələ, dünya!

Hissimi səhərin mehinə döndər,
Duyğumu çəmənin şehinə döndər.
Qəlbimi sevginin şahına döndər,
Təzələ ruhumu, təzələ, dünya!

Açılsın üzümə bağlanan qapım,
Yol ver, istəyimi axtarım, tapım.
Köhlən ver səyirdim, meydan ver çapım,
Təzələ ruhumu, təzələ, dünya!

Bir az ürəyimə sərinlik gətir,
Bir az nəfəsimə dərinlik gətir,
Bir az taleyimə şirinlik gətir,
Təzələ ruhumu, təzələ, dünya!

Gec olur aşanda qismət bələni,
Gec olur basanda lələ şələni.
Diriltmək olarmı vaxtsız öləni,
Tez eylə, tez eylə, tez eylə, dünya,
Təzələ ruhumu, təzələ, dünya!

## BƏZƏNİN QIZLAR, BƏZƏNİN

Yenə toylar yaxınlaşır,
Bəzənin qızlar, bəzənin.
Bəzənmək sizə yaraşır,
Bəzənin, qızlar bəzənin.

Fəsillərin yaz vaxtı var,
Oğulların saz vaxtı var.
Gözəllərin qız vaxtı var,
Bəzənin, qızlar bəzənin.

Gül toxunsun yanaqlara,
Bal bələnsin dodaqlara.
Nur çilənsin otaqlara,
Bəzənin, qızlar bəzənin.

Daraq çəkin telinizə,
Kəmər vurun belinizə.
Xına yaxın əlinizə,
Bəzənin, qızlar bəzənin.

Göy çəməndə çiçəksiniz,
Gözəlsiniz, göyçəksiniz.
Yer üzünə bəzəksiniz,
Bəzənin, qızlar bəzənin.

## DİVANİ

Mən deyirəm bu məclisdə könül şad olmaq üçün,
Nahaq yerdən hiylə qurub, hay salan əyləşməsin.
Hər sözə yüz məna verən ariflərin yerində,
Şər danışıb, toy evinə vay salan əyləşməsin.

Hara getsə üz ağardan gəlsin başda otursun,
Gözüm üstə yeri vardı, çıxsın qaşda otursun.
Nanəcibə yer vermərəm, quru daşda otursun,
Qəm yükündən ortalığa tay salan əyləşməsin.

Elim qədim Borçalıdı, Zəlimxan adım mənim,
Doğru sözdü, sədaqətdi qolum-qanadım mənim.
Mehriban atalar olsun fəxri ustadım mənim,
Haramlıqla halal əldən pay alan əyləşməsin!

## NƏ XEYRİ

Yaxına gəl, nəfəsinlə qızınım,
Gen dolanıb, yan durmağın nə xeyri.
Mən ətəkdə, sən dağların başında,
Ulduzları andırmağın nə xeyri.

Bir yuvanın həsrətiylə quş olub,
Birdən-birə bir sevdaya tuş olub?
Od olanı, qar-boranlı qış olub,
Buz yerinə dondurmağın nə xeyri.

Dilsiz qalan duyğularla dil tapım,
İnci gəzim, gövhər tapım, ləl tapım.
Gecə yandır, qaranlığa yol tapım,
Şamı gündüz yandırmağın nə xeyri.

Qartalsanmı, zirvələrə qonasan,
Qayasanmı, dağ döşündə donasan.
Zalım, sən ki bir yaşılbaş sonasan,
Kövrək qəlbi sındırmağın nə xeyri.

Yad əlləri büksə məni yüz ağa,
Kar eyləməz ruhumdakı sazağa.
Nəfəsim ol, getmə məndən uzağa,
Nəfəs getsə, can durmağın nə xeyri.

Bir ömürdə bir həyat var, bir ölüm,
Sirr sevilmək, sirr yaşamaq, sirr ölüm.
Heç olmasa gəl yuxuma gir, ölüm,
Mən öləndə sən durmağın nə xeyri.

## SÖNMƏZİM

*Cənublu şair qardaşım Sönməzin*
*"Sənsizləmişəm" şeirinə cavab*

Məktubunu yana-yana oxuduq,
Dərdə qarşı yenməz olduq, Sönməzim!
Duyğuların qanadında ucaldıq,
Zirvələrdən enməz olduq, Sönməzim!

Yaranmadan qəmlər bizə tanışdı,
Zaman deyir öz dərdini danış, di.
Yadlar bizim yerimizə danışdı,
Nə zaman ki, dinməz olduq, Sönməzim!

Gör taleyi, gör qisməti, gör işi,
Qar-boranlı həsrətimi gör, üşü.
Dalğalardan istəyirik görüşü,
Araz üstə dönməz olduq, Sönməzim!

Sözlərinə şeirim, sözüm çapardı,
Sorağını eldən-elə apardı.
Bu ayrılıq çoxdan bizi çapardı,
Nə yaxşı ki, dönməz olduq, Sönməzim!

Əl çəkmədi bizdən qarayaxalar,
İstədilər bizə qara yaxalar.
Od vurdular, külümüzə baxalar,
Yana-yana sönməz olduq, Sönməzim!

## VƏTƏN, ƏYMƏ QƏDDİNİ

Qara əllər birləşib səni verdi tarana,
Köz qoyub göynətdilər, duz basdılar yarana.
Gözümüz baxa-baxa düşdün gülləborana,
Bu da bir cür imtahan, bu da bir cür sınaqdı,
Vətən, əymə qəddini, dar gündü, dar ayaqdı!

Həqiqət dinə bilmir, yazıq-yazıq kiriyir,
Şər-böhtan beş ildi ki, ayaq açıb yeriyir.
Daşın da, torpağın da od içində əriyir,
Səngərinə yaxşı yat, düşmən yatmır, oyaqdı,
Vətən, əymə qəddini, dar gündü, dar ayaqdı!

Dağdan dərəyə salır, dərədən dağa çəkir,
Ən ağır bir zamana, ən qəmli çağa çəkir.
Təbiət imtahana, tale sınağa çəkir,
Fitvalar başın üstə qan dolu bir çanaqdı,
Vətən, əymə qəddini, dar gündü, dar ayaqdı!

Can deyirsən, şəhidlər səndən ötrü can verir,
Qan deyirsən, igidlər damarından qan verir.
Qəhrəmanlıq duyğusu kişiyə meydan verir,
Millətin əqidəsi bu gün sənə dayaqdı,
Vətən, əymə qəddini, dar gündü, dar ayaqdı!

Kimi körpə, kimi ər, kimi qoca yaşında,
Boğuldu qan gölündə, gözümüzün yaşında.
Tanındı düşmənin də, dostun da, sirdaşın da,
Özün ayır, özün seç, kim haqdı, kim nahaqdı,
Vətən, əymə qəddini, dar gündü, dar ayaqdı!

Böhtan ilə gəlsə də qoy qamaşsın dərd, dayan,
Düşmənlərin olsa da min dəfə namərd, dayan.
Dağ kimi tərpənməz ol, qaya kimi sərt dayan,
Hər daşın gözümüzdə bir müqəddəs ocaqdı,
Vətən, əymə qəddini, dar gündü, dar ayaqdı!

Qanımızı qaynadan "Misri"n də, "Cəngi"n də var,
Ruhumuzu oynadan min bir nəhəngin də var.
Qəhrəman oğullara güldən çələngin də var,
Hay salan təbillərin, həyəcan zəngin də var,
Dastanını yazmağa sinəm varaq-varaqdı,
Vətən, əymə qəddini, dar gündü, dar ayaqdı!

And olsun qovğalarla ötüşən hər anına,
And olsun  bu torpağın şərəfinə, şanına,
And olsun şəhidlərin alınmamış qanına,
And olsun əsirlərin əldə qalan canına.
Nə qədər ki, qisası yağıdan almamışıq,
Düşmənin qollarını yanına salmamışıq,
Haqqımızı qazanıb qələbə çalmamışıq,
Eşqim, ruhum, mənliyim hərəsi bir yaraqdır!
Bu da bir cür imtahan, bu da bir cür sınaqdı!
Vətən, əymə qəddini, dar gündü, dar ayaqdı!!!

## ORDUM VARSA,
## YURDUM VAR

Mənə ordu gərəkdir, xəstəyə dərman kimi,
Mənə ordu gərəkdir, nəfəs kimi, can kimi.
Mənə ordu gərəkdir sarsılmaz cahan kimi,
Ordum varsa, yurdum var!
Ordum yoxsa, yurdum yox!

Düşmənin yuvasını əlimlə pozmalıyam,
Səngəri dırnağımla, dişimlə qazmalıyam.
Tarixi qələmlə yox, qanımla yazmalıyam,
Ordum varsa, yurdum var!
Ordum yoxsa, yurdum yox!

Gözlər od, əllər silah, canlar sipər olmalı,
Kirpiyimiz sıxlaşıb yurda çəpər olmalı.
Damarda qan coşmalı, canda təpər olmalı,
Ordum varsa, yurdum var!
Ordum yoxsa, yurdum yox!

Bizə od vuranları yandırıb-yaxan gərək,
Torpağa, gözümüztək qoruyub baxan gərək.
Qəzəb dolu tüfəngəm, çaxmağı çaxan gərək,
Ordum varsa, yurdum var!
Ordum yoxsa, yurdum yox!

Torpağa sahib olub yer üstə yerləşməsək,
Bir canda, bir ürəkdə, bir ruhda birləşməsək,
Millətin taleyini dürüst fikirləşməsək,
Özgələrdən bizlərə dırnaq qədər yardım yox,
Ordum varsa, yurdum var!
Ordum yoxsa, yurdum yox!

İnamsız bir qartalın qanadları gərilməz,
Döyüşsüz azadlığın meyvələri dərilməz.
Şəhidsiz bir millətin vətən ruhu dirilməz,
Oğullar ola-ola necə deyim mərdim yox,
Ordum varsa, yurdum var!
Ordum yoxsa, yurdum yox!

Nə Tanrıdan əl üzüb, nə haqdan küsmək gərək,
Qaniçən yağılarla hesabı kəsmək gərək.
Vətənin hər daşının üstündə əsmək gərək,
Bu gün desəm gec olar, bu an tələsmək gərək.
Bu gün mənim həyatda bundan böyük
dərdim yox,
Ordum varsa, yurdum var!
Ordum yoxsa, yurdum yox!

## AĞA LAÇINLIYA

*Bu şeir on il əvvəl yazılıb. Zəngilanı, Qubadlını gəzib Laçına gəlmişdim. Görüşlər, söhbətlər, məclislər ara vermirdi. Şair dostum Ağa Laçınlı yarızarafat, yarıciddi mənim gəlişim şərəfinə bədahətən belə bir şeir oxudu:*

*Gəldiyin yer Zəngilanla Qubatdı,*
*Bizim Laçın ondan bir az babatdı.*
*Bağışla ki, yollar səni yubatdı,*
*Xoş gəlibsən bu yerlərə, Zəlimxan!*

*Bəxtəvərli günlərimiz idi. Oğuldərəni, Şəlvə dərsini gəzə-gəzə yeni şeirlər yazmışdım. Onlardan biri də Ağa Laçınlıya həsr olunmuşdu. Laçının bugünkü günlərini gözümün qabağına gətirib o günləri xatırladım. Elə bil yarama duz basdılar. Laçının həsrətiylə alışıb-yanan Ağa Laçınlıya yazdığım şeiri bir təsəlli kimi kitaba daxil etməyi məsləhət bildim.*

Oğuldərə kəndi, Laçın oylağı,
Qaldırar Günəşə, Aya şairi!
Axar nəğmələri Həkəri kimi,
Oxşadar ilhamı çaya şairi!

Onda bir Çalbayır təbiəti var,
Döndərməz üzünü nə qış, nə bahar.
Çəkər imtahana şaxta, boran, qar,
Şimşəklər çağırar toya şairi!

Soruşar Yaxşını, yarı bulaqdan,
Götürər mayanı, varı bulaqdan.
İçər Sarı kimi Sarı bulaqdan,
O dağlar yetirər boya şairi!

Baxar bu dünyaya Qatar qayadan,
Küləklər qəmini atar qayadan.
Səsi zirvələrə çatar qayadan,
Olar dağ övladı, qaya şairi!

***1994***

# HARAY

Oyan, nə yatmısan Koroğlu babam,
Ustadım, sərkərim, ozanım, haray!
Tüfəng çıxan günü mərdlik gedəndə,
Düşdü bağçamıza xəzanım, haray!

Hanı Dəmirçioğlu, hanı Xan Eyvaz,
Dur, yeni tarixi öz əlinlə yaz.
Bir əlində qılınc, bir əlində saz,
Döyüş mahnıları yazanım, haray!

Göylərin günəşi saralan günü,
İgidin meydanı daralan günü,
Millətin yığvalı qaralan günü,
Köhnə dəmir kimi qızanım, haray!

Bu gün qan gölüdü hər tərəfimiz,
Bu gün qorxudadı şan-şərəfimiz.
Yuxuda gördüm ki, batır səfimiz,
Hardasan, yuxular yozanım, haray!

Qarış təpərimə, həyəcanıma,
Qorxunu, hürkünü qoyma yanıma.
Ana südü kimi keçib qanıma,
Qan kimi damara sızanım, haray!

Azaddı, məhkumdu, dardadı gəlsin,
Başı borandadı, qardadı, gəlsin.
Hardadı, hardadı, hardadı gəlsin,
Öz vaxtım, öz günüm, öz anım, haray!

## BÖYÜK QƏHRƏMANLIQ

Anam Azərbaycanım! Dayanma məzlum, fağır,
Məzlumların başına göydən od-alov yağır.
Bütün oğullarını səslə, döyüşə çağır,
Bir göz qırpımı belə, qiymətli an deməkdir,
Tökülən hər damla qan bir həyəcan deməkdir,
Bu gün döyüş meydanı Azərbaycan deməkdir.
Yaxşılara yaxşı ol, yaman ol yamanlığa,
Ana Vətən, hazır ol böyük qəhrəmanlığa!

Səni tora salmağa neçə tor hazırlanır,
Hazırlanır, özü də necə zor hazırlanır,
Neçə alçaq, başkəsən, gorbagor hazırlanır.
Bərədə pusqu quran ovçulara ov olma,
İştahlı gedənlərə yağlanan plov olma,
Özün öz əllərinlə özünə buxov olma,
Aydınlığa çıxanı çəkirlər qaranlığa,
Ana Vətən, hazırlaş böyük qəhrəmanlığa!

Yuxun gəlməmək üçün daşları balınc eylə,
İnadını itilə, kəskin bir qılınc eylə.
Sənə gülmək istəyən düşməni gülünc eylə,
Heç kəsə ümid olma, özün al qisasını,
Özün sevincə döndər könüllərin yasını,
Od vurub yandırdılar igidlərin xasını.
Kövşənin külə döndü, sünbülün samanlığa,
Ana Vətən, hazırlaş böyük qəhrəmanlığa!

Ağıl – düşmən qəlbinə sərrast dəyən güllədir,
Mərdlik – düşmən üzünə tərs açılan şillədir,
Milləti qaldırmağa hər tabut bir pillədir!
Sən baxma ki, bəxtinə şər dalınca şər çıxır,
Bir ölənin yerinə meydana min ər çıxır,
Böyük xalqın yoluna böyük ölümlər çıxır!
Bu ölməz həqiqəti düşün bircə anlığa,
Ana Vətən, hazırlaş böyük qəhrəmanlığa!!!

## GƏLƏCƏK NƏSİL

Gəl, sabahın gözüylə baxaq bu sərt günlərə,
Kim xalqa necə baxdı, bilər gələcək nəsil!
Yaxşı-yaman nə varsa, bir-bir seçər, ayırar,
Bizimlə hesabını bölər gələcək nəsil!

Əməli düz olanlar üz qoyar gül üstünə,
Ocağı söndürənin tökülər kül üstünə.
Daşları qoyulmasa sağlam özül üstünə,
Bu günə baxa bilməz, ölər gələcək nəsil!

Bayquşu buraxanda qartalın yuvasına,
Əl-qol açıb süzəndə yadların havasına,
Başımız qarışanda vəzifə davasına,
Gülməli günümüzə gülər gələcək nəsil!

Süfrəsində həmişə zəhərlənmiş aş görər,
Anaların gözündə can yandıran yaş görər,
Biz biqeyrət olanda arxasını boş görər,
Yetim quzular kimi mələr gələcək nəsil!

Dəniz kimi qabarar, dalğa kimi köpürər,
Alar süpürgəsini, zibil kimi süpürər,
Torpağı satanların sifətinə tüpürər,
İzini yer üzündən silər gələcək nəsil!

Qəlbi təmiz, eşqi saf, ağlı duru saxlasaq,
Xətainin gözündə yanan nuru saxlasaq,
Qarabağı, Göyçəni, Zəngəzuru saxlasaq,
Üz tutub bizə doğru gələr gələcək nəsil!

İliyimiz, qanımız tutsa halaldan maya,
İnadımız sədd olar bəndini qırmış çaya.
Əqidələr önündə nə daş dözər, nə qaya,
Yetmiş yeddi dağ olsa dələr gələcək nəsil!

## ALÇAĞA NƏSİHƏT

Şərik olma heç kəsin sevincinə, qəminə,
Getmə yaxının, yadın toyuna, matəminə.
Alçaqlıq eyləməkçün fürsət keçir çəminə,
Qəm üstünə qəm gətir, dərdi dərdə qalaq vur!

Bu qədər ki, hərissən sərvət üçün, zər üçün,
Xalqa zəhər verirsən, bir damla şəkər üçün.
Əsirgəmə ömrünü böhtan üçün, şər üçün,
Bəslə bəd əməlləri, bir-birinə calaq vur!

Qıfıl ol ağızlara, qandal ol həvəslərə,
Dodaq çevir, ağız büz ilahi nəfəslərə,
Həmfikir ol hər zaman haqqı danan kəslərə,
Haqq yolu gedənlərə gündə bir badalaq vur!

## ŞƏHİD RUHU

Ulu Tanrı! Bu qədər aman olmaz, ah olmaz,
Ulu Tanrı! Bu qədər dərd ürəkdə şah olmaz.
Allahsız insaf olmaz, insafsız Allah olmaz,
Yana-yana tükəndik piltənin yağı kimi!

Güllərin yanağına yaş yayılıb, nəm düşüb,
Ellərin ürəyinə dağlar boyda qəm düşüb.
Millətin qismətinə beş ildi matəm düşüb,
Bir-bir uralanırıq bostanın tağı kimi!

Çiçəyi bar tutmamış sökülən tağlar görüb,
Ən çətin imtahanlar, ən qəmli çağlar görüb.
Mənim xalqım nə qədər düyünlər, dağlar görüb,
Dağ yoxdu bu dünyaya sinəmin dağı kimi!

Əyir həsrətin yükü əyilməyən başları,
Fəryad külə döndərir qayaları, daşları.
Atasız körpələrin gözdən axan yaşları,
İçimizi göynədir içilən ağı kimi!

Ərtək meydana çıxmır, gizlənir, qaçaq gəlir,
Dırnağında avtomat, dişində bıçaq gəlir.
Torpağıma göz dikən nə qədər alçaq gəlir,
Şər yeriyir üstümə qaniçən yağı kimi!

Tapdananda mənliyim, dağım düzə çevrilir,
Alışanda varlığım, odum közə çevrilir.
Titrəyəndə ürəyim, dərdim sözə çevrilir,
Yandırır dodağımı bayatı, ağı kimi!

Kimlər yasa döndərib toyları, düyünləri,
Kimlərdi eşitməyən harayları, ünləri.
Şəhid ruhu! Özün yaz bu dəhşətli günləri,
Qəhrəman bir millətin oyanmış çağı kimi!

Namərd düşmən gülləsi keçsə də sağ-solundan,
Haqq yolunda vuruşan dönməz haqqın yolundan.
Şəhid ruhu! Özün tut yıxılanın qolundan,
Qaldır Azərbaycanın ən məğrur dağı kimi!

Şəhid ruhu! Sən bizi əsgər eylə, ər eylə,
Ovxarla duyğumuzu, təzə saxla, tər eylə.
Çağır müqəddəsiylə xalqı səfərbər eylə,
Dalğalan başım üstə haqqın bayrağı kimi!

# ŞƏHİDLƏRİN İLİ

Dünən bir ili də qoyduq arxada,
Dünən şəhidlərin iliydi, qardaş!
Göynəyən ananın qəlbi, ürəyi,
Sızlayan övladın diliydi, qardaş!

Öz qanı içində üzən kimiydi,
Əzilən bilirdi əzən kimiydi.
İnsafı, Allahı gəzən kimiydi,
Allah alçaqların feliydi, qardaş!

Heç nə yandırmazdı adamı belə,
Quruyan dənizmi, adamı belə?
Xalqın ən ağıllı adamı belə,
O gün havalıydı, dəliydi, qardaş!

Nə bayram, nə şadlıq gətirirdilər,
Qanlı bir "azadlıq" gətirirdilər.
Yoxsulluq, kasadlıq gətirirdilər,
İş görən düşmənin əliydi, qardaş!

O gün təbiətin rəngi sarıydı,
Güllələr zamanın yağan qarıydı.
Kəsilən millətin şah damarıydı,
Qırılan Vətənin beliydi, qardaş!

Oğul öldürənin oğlu yoxuydu,
Başsız bir başçının ağlı yoxuydu.
Bizimtək sinəsi dağlı yoxuydu,
Xəyanət qan soran zəliydi, qardaş!

Şəhidlər yay olub gərilmişdilər,
Döşənib torpağa sərilmişdilər.
Elə bil ölənlər dirilmişdilər,
Elə bil dirilər ölüydü, qardaş!
Kəsilən millətin şah damarıydı,
Qırılan Vətənin beliydi, qardaş!!!

## GÜLLƏ DƏYDİ

Allah! Sən özün yetiş hayıma, harayıma,
Mülkümə, sərvətimə, varıma güllə dəydi!
Haqqımı tələb edib birliyə can atanda,
Bütövüm paralandı, yarıma güllə dəydi!

Qanlı bir yuxu gördüm, yuxu yozanım, haray,
Ustad Dədə Qorqudum, ulu ozanım, haray,
Gəlsin Tüpdağıdanım, Halaypozanım, haray,
Qüdrətimə xal düşdü, arıma güllə dəydi!

Yollar qaldı uzaqda, əllər qaldı ətəkdə,
Düşmən hər gün oyunda, fırıldaqda, kələkdə.
Yana-yana kül oldu körpələrim bələkdə,
Qızıma, gəlinimə, qarıma güllə dəydi!

Bir düşmən gülləsindən neçə can yaralandı,
Seyid, Cabbar, Üzeyir, Zülfü, Xan yaralandı.
Ana tarın atası Sadıqcan yaralandı,
Muğamatım göynədi, tarıma güllə dəydi!

Qarabağın düzləri qızıl-ala qan oldu,
Mərdlərin yurduna bax, namərdə meydan oldu.
Gül kimi gözəllərin sinəsi şan-şan oldu,
Pətəyimə, balıma, arıma güllə dəydi!

Ürəyindən vuruldu igidlərin dəstəsi,
Bilinmədi öləni, yaralısı, xəstəsi.
Könüllərin yarıdı "Qarabağ şikəstəsi",
Mənim şikəstə adlı yarıma güllə dəydi!

Nəğmələrin başında Şuşa adlı tacıydım,
Yaraya məlhəmiydim, ağrıya möhtacıydım.
Qafqazın qucağında ən barlı ağacıydım,
Bağbanıma, bağıma, barıma güllə dəydi!

Güllə atan erməni, güllə satan rus oldu,
Şərəfli bir millətə şərəfsiz casus oldu.
Ayağa düşən papaq, tapdanan namus oldu,
Allahım göydə susdu, tanrıma güllə dəydi!

## AZƏRBAYCAN TÜRKÜNÜN QANI TÖKÜLÜR BU GÜN

Eşit məni Atilla, Alp Arslan, qalx məzardan,
Qurtar xalqı zülümdən, qurtar milləti dardan.
Ən qəmli bir səs gəlir ən qədim bir diyardan,
Anaların yuxusu ərşə çəkilir bu gün,
Azərbaycan türkünün qanı tökülür bu gün.

Hardasan türkmən, qazax, səsini qaldır, Krım,
Düşmən sinəmiz üstə gündə açır bir şırım.
Hər gün qopur qasırğa, hər gün çaxır ildırım,
Başını qaldıranın bağrı sökülür bu gün,
Azərbaycan türkünün qanı tökülür bu gün.

Beşiyi də kül olur, bələyi, qundağı da,
Uşağı da yandırır, vəhşilər uşağı da!
İnsafdan yuxarıda, Allahdan aşağıda,
Ulu bir məmləkətin qəddi bükülür bu gün,
Azərbaycan türkünün qanı tökülür bu gün.

Səpdiyimiz toxumlar sabah qəm bitirəcək,
Neçə taleyi küskün, bəxti kəm bitirəcək.
Hər gözdə, hər könüldə bir matəm bitirəcək,
Torpağa dən yerinə dərdim əkilir bu gün,
Azərbaycan türkünün qanı tökülür bu gün.

Olmasın heç kimsədən bir qorxum, hürküm, haray,
Qoy çəkilsin dumanım, dağılsın bürküm, haray.
Özün çat harayıma, qalx ATATÜRKÜM, haray!
Ümid deyib gözləri haqqa dikilir bu gün,
Azərbaycan türkünün qanı tökülür bu gün.

## ŞAİR, BU GÜN ŞEİRİNİ EVDƏ YOX, SƏNGƏRDƏ YAZ

Yapılan cinayətin çək üzünə şilləni,
Qurulan xəyanətin vur gözünə gülləni.
Şax yeri, inamla aş hər bələni, pilləni.
Sellər kimi üstünə axıb gələn dərdə yaz,
Şair, bu gün şeirini evdə yox, səngərdə yaz!

Ağlamaqdan kar aşmaz, sil gözlərin nəmini,
Döndər, sevincə öndər anaların qəmini.
İtilə qılıncını, ovxarla qələmini.
Hər kəsin öz payı var, namərdə yaz, mərdə yaz,
Şair, bu gün şeirini evdə yox, səngərdə yaz!

Vaxtında anlasaydıq nədir xeyir-şərimiz,
Yerin bir tərəfini əyərdi ləngərimiz.
Qoy qarışsın torpağa, axsın alın tərimiz.
Bacardığın nə varsa, xeyirdə yaz, şərdə yaz,
Şair, bu gün şeirini evdə yox, səngərdə yaz!

Dədəmiz Qorqud kimi el dərdinə ozan ol,
Bu günün kitabını öz əlinlə yazan ol.
Yorulan bir əsgərin səngərini qazan ol.
Həyəcanda, təlaşda, zəhmətdə yaz, tərdə yaz,
Şair, bu gün şeirini evdə yox, səngərdə yaz!

Nurlu dan yeri kimi nurlanan rəngin olsun,
Döyüşlər meydanında basılmaz cəngin olsun.
Sözün qoy uzaq  vuran topun, tüfəngin olsun,
Ən coşqun bir duyğuda, ən ağır ləngərdə yaz,
Şair, bu gün şeirini evdə yox, səngərdə yaz!

Yaraşdı yaraşmadı taleyinə, yaşına,
Allah, nələr gəlmədi bu millətin başına.
Bu tarixi həkk elə zamanın yaddaşına,
Hər sözü qızıla tut, hər misranı zərdə yaz,
Şair, bu gün şeirini evdə yox, səngərdə yaz!

## AĞSAQQAL SÖZÜ

Oğul, elə saxla qəlbi, ürəyi,
Göy kimi boşalıb-dolandan olsun.
Yazanda elə yaz kitabını sən,
Qalından olmasın, qalandan olsun!

## TALEYİMİZ

Əlimiz qısadı, dilimiz gödək,
Hanı tüfəngimiz, topumuz bizim.
Özümüz bir bələn aşa bilmədik,
Yeddi bələn aşdı gopumuz bizim.

Tufana yem olduq, yellər əsəndə,
Taqsırı səndədi, günahı məndə.
Dərdli başımızı balta kəsəndə,
Özümüzdən oldu sapımız bizim.

Öləni dirilməz, köçəni gəlməz,
İtəni tapılmaz, qaçanı gəlməz.
Qıfılı açılmaz, açanı gəlməz,
Tilsimlə bağlanıb qapımız bizim!

## MƏNİM YAZIQ QƏLƏMİM

Nə millət vəkiliydim, nə vəzifə sahibi,
Mən fikir əzabkeşi, mən qələm adamıyam.
Naşıların əlində oyuncağa çevrilən
Bəxtiqara millətin bəxti kəm adamıyam.

Sabahım dumanlıdı, bu günüm səksəkəli,
Boylandığım yollara çiskin enir, çən düşür.
Gələcəyin önündə gözlərimiz kölgəli,
Güvəndiyim qələmdi, o da gözümdən düşür!

Bu nə cür qələmdi ki, Laçın əldən gedəndə,
İldırıma çevrilib alışmadı, sönmədi.
Qırılanda Xocalı, veriləndə Kəlbəcər,
Yağıların başında şimşəklərə dönmədi!

Dəlidağ özü boyda qəmli heykələ döndü,
Dağ verdik, qaya verdik, tala verdik düşmənə.
Sümüyü sızıldadı məzarda Pənah xanın,
Şuşa kimi alınmaz qala verdik düşmənə.

Mərmilər şığıyanda, tanklar, toplar dinəndə,
Yandırır yeri-göyü, dağ bilmir, dərə bilmir.
Dağlar qana boyanıb, qayalar diksinəndə
Min qələm bir güllənin yerini verə bilmir.

Yalan sözdü qələmin süngüyə çevrilməsi,
Qələm ancaq qələmdi, süngü, avtomat deyil.
Çörəkdən çox millətə silah gərək olarmış,
Sözə arxayın olub yatmaq bir həyat deyil!

Sənə yazığım gəlir, mənim yazıq qələmim,
Söz yerinə torpağa silah əkə bilmədin.
Ələsgərin qəbrini dağıtdılar, ağladın,
Vaqifin məzarına keşik çəkə bilmədin.

İyirminci yüz ilin ağır gəldi axırı,
Şəhid qanına batmaq sənin payına düşdü.
Sənin vaxtına düşdü ağrıların ağırı,
Dərdi baş-başa çatmaq sənin payına düşdü.

Sənin payına düşdü qara bəxt, qara yazı,
Şəhidlərin məzarı qazıldıqca qazıldı.
Mürəkkəbin qurudu qızıl qanı görəndə,
Yazdıqların nə varsa, göz yaşıyla yazıldı.

Yaralı şairiyəm yaralanmış torpağın,
Sevincim – ömrü gödək, kədərim-qəmim yazıq.
Gülüş yoxsa gözündə bu gün Azərbaycanın,
Yazılan kitablarım, yazan qələmim yazıq!

## DƏRD

*Azərbaycan parlamentində, xalqımızın ali məclisində özünü apara bilməyən bəzi millət vəkillərinə*

Mən səni seçmişəm, səhv eyləmişəm,
Seçmişəm, özümü məhv eyləmişəm.

Mən səni seçəndə elə bilirdim,
İşində halalsan, sözündə haqsan.
Kürsüyə qalxanda özünlə birgə,
Millətin adını qaldıracaqsan!

Sən niyə bilmədin, xalqın taleyi
Gur oddan adlayır, gur sudan keçir.
Sən niyə bilmədin, xalqın taleyi
Sənin o tutduğun kürsüdən keçir.

Sal qaya sandığım quş ləleyiymiş,
Səndə bir ağırlıq, çəki yoxuymuş.
Qasırğa tanıdır, tufan göstərir,
Yıxılır hər kimin kökü yoxuymuş.

Tutdu gözlərini şöhrət havası,
Qarabağ diqqətdən qıraqda qaldı.
Bir kömək olmadı səndən bu xalqa,
Gözümüz yenə də uzaqda qaldı.

Xalqımın adıyla alver edənin,
Gah qəlbinə girdin, gah da cibinə.
Yenə ümidimiz, arzularımız,
Batdı gəmi kimi suyun dibinə.

Millətin adından danışan kəsin,
Dili uzun gərək, üzü ağ gərək.
Bizi özgələrə tanıtmaq azdı,
Bizi özümüzə tanıtmaq gərək.

Harda endiririk biz bu milləti?
Ali mətləbimiz adiləşəndə!
Harda qaldırırıq biz bu milləti?
Oğlu Sabirləşib, Hadiləşəndə!

Ağıl öyrətmirəm bu gün heç kəsə,
Onsuz da "ağıldan bəla" çəkmişik.
Bir-bir özgələri qabağa verib,
Hər gün özümüzü dala çəkmişik.

Sənə səs verəndə buydu niyyətim,
Dumanlı gözlərə çıraq olasan,
Silahsız əllərə yaraq olasan.
Məsləkə dönəsən ürəyimizdə,
Başımız üstündə bayraq olasan.
İnana bilməzdim, millət deyəsən,
Bu qədər millətdən uzaq olasan!

Ay məni birliyə çağıran adam,
Salıb boğazının yoğun yerinə.
Küsdürən, üstümə bağıran adam,
Unutma, bu xalqa gün ağlayanda
Heç vaxt çığırmadı Mirzə Cəlillər,
Heç vaxt çığırmadı Rəsulzadələr!
Can qoydu, iş gördü millət yolunda,
Kamalı böyüklər, qəlbi sadələr!

Xalqın özü kimi sevib seçdiyim,
Orda kişilər də, oğullar da var.
Söz var ürəyimdən tikan çıxartdı,
O sözə bərabər bir söz harda var.

Tərsinə çəkəni yola gətirib,
Küsənin boynuna qol salmalıydın.
İkitirəliyin üstündən keçib
Körpü qurmalıydın, yol salmalıydın.
Onsuz da bölünüb paralanmışıq,
Sən bizi yenidən ikiyə böldün.
Bir xalqı, bir yurdu, bir məmləkəti,
Bakıya, Şirvana, Şəkiyə böldün.
Çəkirik, yerini yaman çəkirik,
Qəlbi böyüklərin, sayı azların.
Siyasət bir dərin dəryadı, qardaş,
Vallah, yeri deyil bu dayazların!

O ali məclisdə, uca kürsüdə,
Ən yetkin oğullar danışmalıydı.
Ən sərt düşüncələr qanad açmalı,
Ən kəskin ağıllar danışmalıydı!

Yenə bəxtimizə günəş doğmadı,
Yenə üstümüzə düşmədi işıq.
Hərdənbir deyirlər millət ayılıb,
Vallah, biz yenə də ayılmamışıq!

Xalq yenə sözünü deyə bilmədi,
Xalqın əvəzinə xalqın dərdini
Döşəmələr dedi, təpiklər dedi.
Yaltaq çıxışlara, yaltaq sözlərə
Yenə öz sözünü çəpiklər dedi.
Orda çoxlarının kim olduğunu
Bağlı sandıqlarda səs-səsə verən,
Milyonlar, manatlar, qəpiklər dedi!

Bəlkə də yazmazdım bu sətirləri,
Millətin qəlbini sıxmasa bu dərd.
Qıracaq hamını bir nəfər kimi,
Xalqın ürəyindən çıxmasa bu dərd!

## GÖRÜNÜR

Yükü çəkə bilməyəndə,
Dərdin birə min görünür.
Əlin çatmır Allaha da,
Nə Tanrı, nə din görünür.

Yırtılır üzdəki pərdə,
Doy gələ bilmirik dərdə.
Gözümüzdə mələklər də,
Şeytan olur, cin görünür.

Duman bizi bürüyəndə,
Dağdan-dağa sürüyəndə,
İçərimiz çürüyəndə,
Çölümüz miskin görünür.

## ÖMRÜN SON GÜNÜ

Dünya məndən dönən günü,
Dünyadan əlim çıxacaq.

Nə deməyə söz qalacaq,
Nə onda dilim çıxacaq.

Həsrət elə qovuracaq,
Cızdağım, külüm, çıxacaq.

Əcəl girəndə bacadan,
Qapıdan ölüm çıxacaq!

## NƏ ZAMAN

Nə zaman xoşbəxt olur
görəsən insan oğlu?
Havalı duyğuların qanadında uçanda!
Yeri basıb bağrına,
göyü sıxıb köksünə,
İstəkli bala kimi
qollarıyla qucanda!
Nə zaman xoşbəxt olur
görəsən insan oğlu?
Əsən küləyə,
yağan yağışa,
doğan günəşə
Ürəyinin sirrini çəkinmədən açanda!
Nə zaman xoşbəxt olur
görəsən insan oğlu?
Göy başının üstündən göylərə çəkiləndə,
Ayağının altından
yer titrəyib qaçanda!
İnsanların içində
Özünü tək, kimsəsiz,
yalqız, yetim sayanda!
Körpənin gülüşünə,
baharın gəlişinə,
Yağışın yağmasına,
Günəşin doğmasına
Gözlərini yumanda,
qəlbini qapayanda!!!

## ETİRAF EYLƏ

*Bir akademikə tövsiyə*

İnanmıram, vicdan adlı silahın olub,
İnanmıram, başın üstə Allahın olub,
İnanıram, dağlar boyda günahın olub,
Çoxlarını sürümüsən belədən-belə,
Heç olmasa bircə dəfə etiraf eylə!

Dönə-dönə haqq yolunu azdığın yetər,
Dərin-dərin quyuları qazdığın yetər,
Düzü tərsə, xeyri şərə yazdığın yetər,
Qəzəb seli cəsədini atmamış çölə –
Heç olmasa bircə dəfə etiraf eylə!

Həqiqətin meyvələri dərilir indi,
Nə əməlin sahibisən, sorulur indi,
Öldürdüyün kimlərdirsə, dirilir indi,
Daha bəsdi yıxdığın ev, qurduğun tələ,
Heç olmasa bircə dəfə etiraf eylə!

Dünən asdın-kəsdin Rəsulzadəni,
Qəlbi böyük, ruhu incə, özü sadəni.
Bu gün onun şərəfinə vurdun badəni,
Necə verdin Müsavatı qırğına, selə –
Heç olmasa bircə dəfə etiraf eylə!

Çəkinmədin bu millətin bircə kəsindən,
Yurd dağıldı, ocaq söndü bayquş səsindən.
Qorx zamanın qəzəb adlı məhkəməsindən,
Nə qədər ki, nəfəsin var, gec deyil hələ,
Heç olmasa bircə dəfə etiraf eylə!

Sürgünləri, Sibirləri unutmaq olmur,
Sibirdəki qəbirləri unutmaq olmur,
Daşa dönmüş səbirləri unutmaq olmur,
Olanları olduğutək gətirib dilə –
Heç olmasa bircə dəfə etiraf eylə!

Alimliyin gələnləri öymək üçünmüş,
Arifliyin gedənləri söymək üçünmüş,
Yazdıqların yıxılanı döymək üçünmüş,
Bu danılmaz dəhşətləri sən bilə-bilə,
Heç olmasa bircə dəfə etiraf eylə!

Dağ çeşməsi duruluqdu, axar suya bax,
O hikmətə sevə-sevə, duya-duya bax,
Təmizlənmək! Təzələnmək! Bir arzuya bax,
Hissi duru, beyni təmiz, qəlbi saf eylə,
Heç olmasa bircə dəfə etiraf eylə!

Bircə dəfə yüngülləşən günahın olsun,
Bircə dəfə vicdan adlı silahın olsun,
Bircə dəfə başın üstə Allahın olsun,
İnsaf dinin yarısıdı, bir insaf eylə,
Heç olmasa bircə dəfə etiraf eylə!!!

## VƏZİFƏ

Çaqqalların vəzifəsi
gecə-gündüz ulamaqdı,
Tülkülərin vəzifəsi
quyruğunu bulamaqdı.
İlanların vəzifəsi
ölə-ölə sürünməkdi,
Qartalların vəzifəsi
zirvələrdə görünməkdi.
Bülbüllərin vəzifəsi
cəh-cəh vurub oxumaqdı,
Arıların vəzifəsi
baldan şanı toxumaqdı.
Şeytanların vəzifəsi
ona-buna şər atmaqdı,
İnsanların vəzifəsi
yaşatmaqdı, yaratmaqdı.
Əlli yaşa yetişməmiş
nələr gördü, gözüm nələr,
İnsanların arasında
tez-tez çaşbaş salınsa da,
Heyvanların arasında
çaşbaş düşmür vəzifələr!

## QALMAZ

Bu gün qara geymişəm, qara günümdür mənim,
Dünyanı silkələyən ahım, ünümdür mənim,
Şəhidlər xiyabanı qibləm, yönümdür mənim,
Öz dərdimi çəkməsəm, özgələr dərdə qalmaz!

Tale məni köklədi bir qəmli zaman üstə,
Yatan yatır məzarda, qalan qalıb can üstə.
Ağladaram dünyanı saz üstə, kaman üstə,
Bu gün əlim dəyməmiş sim qalmaz, pərdə qalmaz!

Çox uzaq gedə bilməz bu qurğular, hoqqalar,
Dönər Misri qılınca, yüz yalanı şaqqalar.
Lap dünya dağılsa da, öz yerini haqq alar,
Heç vaxt xeyrin qisası böhtanda, şərdə qalmaz!

Xəyanət küləkləri harın-harın əssə də,
Ölüm, həsrət, ayrılıq qapıları kəssə də,
Dərdli könül inciyib ruzigardan küssə də,
Mərdlər arxayın olsun, dünya namərdə qalmaz!

Vicdanın işığında həyat duru görünər,
Hər addımda dünyanın bir uğuru görünər.
Şəhidin torpağında haqqın nuru görünər,
Cəlladın sifətində ismətdən pərdə qalmaz!

Sınar dağların beli, bu qədər ah götürməz,
Adı insan olan kəs belə günah götürməz.
Yerdə bəndə götürsə, göydə Allah götürməz,
Qəm yemə, dəli könlüm, nahaq qan yerdə qalmaz!

## QARA BAYRAQ

Qara bayraq sancılıb gözümüzün yaşına,
Qara bayraq sancılıb bağrımızın başına,
Qara bayraq sancılıb qəbrimizin daşına,
Qara xətlə yazılmış varaqdı QARA BAYRAQ!

Qəlbimizdə sızıltı, dilimizdə ağrıdı,
Başımızın bəlası, sinəmizin dağıdı.
Bəxtimizin qarası, saçımızın ağıdı,
Ruhumuzu göynədən sazaqdı QARA BAYRAQ!

Yaşamaq üçün öldü, ölmək üçün doğuldu,
Dərd içində qaynadı, qan içində boğuldu.
Otuz yaşlı igiddi, on beş yaşlı oğuldu,
Yeddi yaşa çatmamış uşaqdı QARA BAYRAQ!

Yağış olub yağdılar, külək olub əsdilər,
Vurmağa, dağıtmağa, qırmağa tələsdilər.
Yamyaşıl ağacları doğradılar, kəsdilər,
Bar vaxtı baltalanmış budaqdı QARA BAYRAQ!

Yeri, göyü qaraldan buludun da rəngidi,
Dilləri dinməz edən sükutun da rəngidi,
Çiyinləri ağrıdan tabutun da rəngidi,
Gözü kömürə dönmüş ocaqdı QARA BAYRAQ!

Ananın ayrılığı, balanın həsrətidi,
Bu yükü çəkənlərin zülmüdü, zillətidi.
Axşamın qaranlığı, gecənin zülmətidi,
İşığı söndürülmüş çıraqdı QARA BAYRAQ!

Ölümüz var şəhiddi, dirimiz var, can verir,
Ahımız var yandırır, yaramız var, qan verir.
Xalqım səbrə, dözümə, dərdə imtahan verir,
Millətin dar günündə sınaqdı QARA BAYRAQ!

Mən meydan istəmişəm, meydanımı dar verib,
Mən Günəş istəmişəm, mənə boran, qar verib,
Mənə qara günləri "qızıl" bayraqlar verib,
Zamanı utandıran bayraqdı QARA BAYRAQ!

Bir vətəndi var-yoxu zaman-zaman talanmış,
Bir ölkədi qisməti ağzı üstə calanmış.
Min yerdən tikə-tikə bölünmüş, parçalanmış,
Qapqara şuma dönmüş torpaqdı QARA BAYRAQ!

Düşməni sevindirər kədərimiz, yasımız,
Qılınc qında durmasın, qoy tökülsün pasımız.
Aman ellər! Sabaha qalmasın qisasımız,
Bizi haqqa çağıran yaraqdı QARA BAYRAQ!

## MƏN HAQQIN KEŞİKÇİSİ...

Qoşuram öz səsimi haqq çağıran səslərə,
Qatıram nəfəsimi ən isti nəfəslərə.
Çatdırıram fikrimi ara yaxan kəslərə,
Təmiz eşqin, sevginin meyvəsiyəm, barıyam,
Mən haqqın keşikçisi, haqqın tərəfdarıyam!

Gözəlliyə göz yumub "qan-qan" deyən kimsələr,
Kimə şərəf gətirər, qan gölündə çimsələr?
Şər vurduğu ləkəni könüllərdən kim silər?
Əsmə, ölüm küləyi, keçmə, ocaq, sönmə, şam,
Mən haqqın keşikçisi, haqqın tərəfdarıyam!

Qırğına gedən yolun sonu dəhşət, uçurum,
Alovlar dalğa-dalğa, tüstülər burum-burum.
Mən gərək bu dünyada hələ dünyalar qurum,
Yolu Günəşə doğru, üzü Haqqa sarıyam,
Mən haqqın keşikçisi, haqqın tərəfdarıyam!

Nə qədər yer üzünün amansız silahı var,
O qədər anaların fəryadı var, ahı var.
Hər vurulan yarada şərin min günahı var,
Dünyanın yarasını gərək özüm sarıyam,
Mən haqqın keşikçisi, haqqın tərəfdarıyam!

Həyat Günəş çöhrəli, ölüm dəmir qəfəsli,
Yaranmışın hamısı, yaşamağa həvəsli.
Ömür bahar fəslidir, kim istəsə bu fəsli,
Ucalığın aşiqi, zirvələrin qarıyam,
Mən haqqın keşikçisi, haqqın tərəfdarıyam!

Kimdir bəşər qatili, kimdir ömrə yağılar?
Yurd-yuva dağıdanın öz yuvası dağılar!
Dərd yerin sinəsində bir sağalmaz dağ olar,
Yer mənimdi, mən yerin qeyrətiyəm, arıyam,
Mən haqqın keşikçisi, haqqın tərəfdarıyam!

Qoy nə gözdə intizar, nə yanaqda yaş olsun,
Xilaskarlıq duyğusu hər duyğudan baş olsun.
Gərək bu dünya Vətən, insan VƏTƏNDAŞ olsun,
İnsan kimi dünyanın sərvətiyəm, varıyam,
Mən haqqın keşikçisi, haqqın tərəfdarıyam!

Dönüb ağ göyərçinə hər gün çalaram qanad,
Ölümə təslim olub qoymaram sussun həyat!
Nəğməli, səsli dünya heç olmasın narahat,
Sədaqətin dostuyam, həqiqətin yarıyam,
Mən haqqın keşikçisi, haqqın tərəfdarıyam!

## YOXDUR

Yaman tutub, heç buraxmır yaxamı qəm,
Qəmdən ötrü axşam yoxdu, sabah yoxdu.
Qasırğalar qucağında tək gəmiyəm,
Arxa yoxdu, ümid yoxdu, pənah yoxdu.

Niyə məni gözü yesin, qaralasın,
Niyə məni şər gülləsi yaralasın?
Qoy haqqımı haqq nahaqdan aralasın,
Tanrı varsa, bilsin məndə günah yoxdu.

Düşmənə bax, xəzinəmə əl aparır,
Hər gün məni dolu döyür, sel aparır.
Gələn məndən qızıl çəkir, ləl aparır,
Vallah, məndə dırnaq boyda tamah yoxdu.

Çətinliyim, gərginliyim, əsəbim var,
Əsəbimi tarım çəkən əzabım var.
Niyə mənim dağlar boyda qəzəbim var,
Əllərimdə bir əl boyda silah yoxdu?!

Haqq almırsa əldə qabar, alında tər,
Xeyrin üstə qanadını gərirsə şər,
Demək, onda yer üzündə bir peyğəmbər,
Demək, onda göy üzündə Allah yoxdu!!!

## ŞƏHİDLƏRİM YATAN YERDƏ

*Sənə dar gəlməyəcək məqbəri kimlər qazsın,*
*Göməlim gəl səni tarixə desəm, sığmassın!*
**Məhmət Akif**

Burda ən çox işlənən söz – cəlladlara “nifrət” sözü,
Burda ən çox işlənən söz – ölüm sözü, həsrət sözü.
Ziyarətə gələnlərin dilindəki “rəhmət” sözü –
Yağış olub yağasıdır, Şəhidlərim yatan yerdə!

Dilimizdə diş göynədən yüz bayatı, yüz ağı var,
Canımızda qanlı qışın şaxtası var, sazağı var.
Dərdli olan darıxmasın, yaxını var, uzağı var,
Gün təzədən doğasıdır Şəhidlərim yatan yerdə!

Xain bəlli, tarix şahid, mətləb aydın, fikir qəti,
Zaman özü hakim olar, bağışlamaz xəyanəti.
Yüz pərdələ, yüz malala, örtmək olmaz cinayəti,
Haqq nahaqqın ağasıdır Şəhidlərim yatan yerdə!

Düşmən hər gün öz əyninə paltar kimi geyir şəri,
Yalan min qat çoxalsa da, haqqın gücü əyir şəri.
Alçaqların fəndi keçməz, düz əyrini, xeyir-şəri,
Nur zülməti boğasıdır, Şəhidlərim yatan yerdə!

Solan insan taleyidir məzar üstə sönən şam da,
Daşa dəydi, çilikləndi xoş arzu da, şirin kam da.
Dərdim böyük, qəlbim geniş, mən dünyaya sığmasam da,
Dünya mənə sığasıdır Şəhidlərim yatan yerdə!

## SUAL

Çox dolaşıq suallar var başımda,
Ağrı çəkən aləmdimi, mənəmmi?
Öz-özünə tüstülənən, alışan,
Ahımdımı, naləmdimi, mənəmmi?

Halalına haram əllər qatılan,
Parça-parça, pay-pay olan, satılan,
Cəhənnəmin qucağına atılan,
Həvvadımı, Adəmdimi, mənəmmi?

Duru gözlü çeşmələri bulanan,
Yaraları göz-göz olub, sulanan,
Yana-yana səhraları dolanan,
Məcnundumu, Kərəmdimi, mənəmmi?

Sərt tufanlar qamət bükən, bel əyən,
Bir budağam, külək qıran, yel əyən.
Görən bu gün bizdə şahlıq eyləyən
Şahlıqdımı, ələmdimi, mənəmmi?

Çoxdu başı buludlardan nəm çəkən,
Dünya qəmdi, kim çəkməyən, kim çəkən.
Dünya boyda dərd daşıyan, qəm çəkən,
Abbasdımı, Dilqəmdimi, mənəmmi?

Yarımasın bizi yoldan azdıran,
Addımbaşı ayaqaltı qazdıran,
Heç bilmirəm bu dərdləri yazdıran,
Varaqdımı, qələmdimi, mənəmmi?

## NİFRƏTİM

Nə zaman ki, haqq döyülür, nahaq döyür,
Nə zaman ki, şər qapına ayaq döyür,
Nə zaman ki, evdə səni qonaq döyür,
Tufan elə, külək kimi əs, nifrətim!

Günümüzü göy əsgiyə düyən olsa,
Haqqımızı zor gücünə yeyən olsa,
Ana yurdun sərhədinə dəyən olsa,
Şimşəyə dön, sal göylərə səs, nifrətim!

Bir daşına qıyan olsa min zilə çək,
Köhlənini yola çıxart, mənzilə çək.
Sınaq günü bəmdə durma, sən zilə çək,
Belə yerdə gərək deyil pəs, nifrətim!

Öz yerimə yağış olub yağmalıyam,
Öz yurduma Günəş olub doğmalıyam.
Xəyanəti beşiyində boğmalıyam,
Silah götür, daha bəsdir, bəs, nifrətim!

Bu torpağın taleyini qorumasa,
Kimə gərək quru torpaq, quru masa.
Azərbaycan arzuların yarımasa,
Qılınca dön, küt başları kəs, nifrətim!

## 20 YANVAR GÜNÜ

20 Yanvar günü –
Boran günü, qar günü!
Baxış – yağı baxışı,
Yağış – güllə yağışı.
Tökülən insan qanı,
Tökən əsrin insanı.
Coşan insan dənizi,
Solan insan bənizi.
Üzlərdə sonsuz kədər,
Gözlərdə qayğı, qəhər.
Çalxandıqca çalxanır,
Könüllər qəm içində.
Bakı yas içindədir,
Bakı matəm içində!

İyirmi yanvar günü –
Millətimin dar günü!
Anaların üzündə,
Qanla açılan şırım,
Ataların başında,
Çaxan şimşək, ildırım.
Bacıların qəlbində,
Sağalmaz qardaş dağı,
Qardaşların gözündə,
Qan odu, qan ocağı.
Ölüm dalınca ölüm,
Qandı çiçəyim, gülüm.
Qandı əllər, dodaqlar,
Qandı dişlər, dodaqlar,
Çatılan qaşlarda qan,
Yolunan saçlarda qan.
Ayaqda qan, başda qan,
Torpaqda qan, daşda qan.

Yanaqlardan yaş gedir,
Kirpiklər nəm içində.
Bakı dərd içindədir,
Bakı matəm içində!

İyirmi yanvar günü –
Xalqımızın başına,
Açılan oyunların,
Yenidən təkrar günü!
Ellərin ürəyindən,
Axıb qara qan gedir.
Azadlıq meydanından,
Dağüstü parka doğru,
Qara bir karvan gedir!
Bu karvanın yükü qəm,
Budağı qəm, kökü qəm.
Gedir çiyinlər üstə,
Şəhid cənazələri.
Bütün dünya eşidir,
Bu dəhşətli xəbəri.
Dinirik, susdururlar,
Əzirik, küsdürürlər.
Haqq çağıran dilləri,
Dibindən kəsdirirlər.
Bütün dünya eşidir,
Şəhid oğullar verən,
Torpağın harayını.
Dünya unudan deyil,
Qanlı yanvar ayını!
Tarix unuda bilməz,
Bu qanlı müsibəti,
Eşidənin, görənin,
Çıxmaz yadından qəti.
İki milyonluq şəhər,
Qalxır, yatır, vurnuxur,
Zülm, sitəm içində.
Bakı qan içindədir,
Bakı matəm içində!

## ALTINDA

Kim biganə baxa bilər bu doğranmış budaqlara,
Solub getmiş diləklər var solan yarpaqlar altında.
Ağızlara qıfıl vurdu qəfil qalxan qasırğalar,
Deyilməmiş sözlər yatır donmuş dodaqlar altında.

Qara geymiş bir xəyanət addım-addım gəzir bizi,
İntizarın gücünə bax, hey üzdükcə üzür bizi.
Başımızı qaldırantək sızır bizi, əzir bizi –
Yumruqlar başlar altında, tikan dırnaqlar altında!

Dosta aydın, yada bəlli yağıların qəsdi daha,
Birə dözdük, yüzə dözdük, minə dözmək nəsdi daha.
"Papaq altda oğullar var" – dediyimiz bəsdi daha,
Belə gündə oğul varsa, qalmaz papaqlar altında!

Qana batdı yaşıl çəmən, zərif çiçək güllələndi,
Neçə arzu, neçə ümid, neçə ürək güllələndi,
Əqidələr yaralandı, inam, məslək güllələndi,
Torpaq üstə can verənlər yatır torpaqlar altında!

Vətən, bir də başın üstə qara bayraq taxılmasın,
Dədəm Qorqud dayaq olsun, qara dağın yıxılmasın.
Şəhidləri verən xalqım, qoy ürəyin sıxılmasın,
Şəhidi olmayan torpaq qalar tapdaqlar altında!

## ÖMRÜN YOLLARI

Allah! Ömrün yolları nə daşlı-kəsəklidi,
Addımbaşı yolumda qar gördüm, şaxta gördüm.
Sinələrin altına diqqət ilə baxanda,
Çoxlarının qəlbini daş gördüm, taxta gördüm.

İnsan sınır, alçalır, sərt ehtiyac olanda,
Şah kimi fərman verir başında tac olanda.
Dünyanın zillətini lüt, yoxsul, ac olanda –
Dünyanın ləzzətini məzəsi toxda gördüm.

Od özümün olsa da, özgələr isindilər,
Həyalılar susdular, həyasızlar dindilər.
Yalançılar doğrunu heyvan kimi mindilər,
Haqqın belində palan, başında noxta gördüm.

Yasım yas üstə gəldi, toyumu çaldıranda,
Düşmən gəlib başımı ayağa saldıranda.
"Haqqımı verin deyib" səsimi qaldıranda
Yolların sinəsində qanımı laxta gördüm.

Hər adamın ürəyi el yolunda şam deyil,
Bütöv gördüklərim də bütöv deyil, tam deyil.
Dünyaya gələnlərin hamısı adam deyil,
İnsanın azını saf, çoxunu saxta gördüm!

## BARIŞMARAM

"Barış" – deyib gülümsəmə mənə sarı,
Mən başımı yaran daşla barışmaram!
Tanımışam mənə dağlar çəkənləri,
Him-cim ilə, göz-qaş ilə barışmaram!

Düşmən mənə zor göstərdi, zor elədi,
Ocağımı kül elədi, qor elədi.
Ağlamaqdan gözlərimi kor elədi,
Yanağımdan axan yaşla barışmaram!

Dağım vardı, izim orda itər daha,
Cığırlarda boz qanqallar bitər daha.
Aldanmışam, aldandığım yetər daha,
Qəlbi şikəst, ağlı çaşla barışmaram!

Zaman məndə bir amansız şərt bağladı,
Cəllad oldu, bağlaşmanı sərt bağladı.
Qollarımı qəm sarıdı, dərd bağladı,
Sinəm üstdən keçən xışla barışmaram!

Zülmətləri işıq boğsa sevinərdim,
Taleyimə günəş doğsa sevinərdim.
Yerə yağsa, yurda yağsa sevinərdim,
Qəlbimdəki qar-yağışla barışmaram!

İki yol var, bir zülmətdi, bir işıqdı,
Yollar, izlər, əqidələr qarışıqdı.
Hər savaşın sonu bir gün barışıqdı,
Tarix boyu bu savaşla barışmaram!

## SƏBR EYLƏMƏ

Düşün, qardaş, öyüd səni aldatmasın,
Düzün tərsə yozulanda səbr eyləmə!
Xəyanətə qurban gedən oğullar var,
Səflərimiz pozulanda səbr eyləmə!

Bu taledi... kim piyada, kimlər atlı,
Qana batdıq, gör bu daşı kimlər atdı.
Düşmən vurdu, yoxsa ağlı kəmlər atdı,
Barmağın da cızılanda səbr eyləmə!

Çəkməliyik, bizə dərdi zaman verib,
Alan deyil, verdiyini yaman verib.
Sənə güllə atanlara aman verib,
Qan yaradan sızılanda səbr eyləmə!

Qara yellər üstümüzdən əsə bilər,
Əyri əllər yolumuzu kəsə bilər.
Babaların ruhu bizdən küsə bilər,
Tarix saxta yazılanda səbr eyləmə!

Bir doğrunun ürəyindən gələn bir səs,
Min yalanın hökmü ilə bata bilməz!
Alçaqların qəbrini qaz, kökünü kəs,
Sənə qəbir qazılanda səbr eyləmə!

## QARA XƏBƏR

*Başkeçiddə maşın qəzasında*
*həlak olanların xatirəsinə*

Başkeçiddən Bakıya qara bir xəbər gəldi,
Qan üstünə qan düşdü, şər üstündən şər gəldi.
Hələ qaysaq tutmamış şəhidlərin yarası,
Yenidən parçalandı ürəyimin parası.
Min doqquz yüz doxsanın,
Qara gəldi əvvəli, qara gəldi axırı,
Təbiətin, insanın yaman çıxıb paxırı...
Niyə çıxa bilmirik biz bu yasdan, ay Allah!
Qara geyib analar,
Çıxart sən anaları bu libasdan, ay Allah!
Dözmək olmur insanın ahına, fəryadına,
Anasız qalanların özün yetiş dadına.
Bilirsən ki, tökülən bir də dolmaz, ay Allah!
Bir başa iki qapaz, belə olmaz, ay Allah!
Sızıltıdan, ağrıdan qurtarmamış ürəklər,
Yenə soldu çəmənlər, yenə soldu çiçəklər.

Başkeçid başdan ağlar,
Kirpikdən, qaşdan ağlar.
Gecə yuxu yatammaz,
Durar obaşdan ağlar.

Yurdunun, yuvasının başında tufan görən,
Yaralı qardaşının yarasında qan görən.
Evinin, uşağının qardaş payı kəsilən,
Döyünüb ağlamaqdan hay-harayı kəsilən,
Üz qanadan, saç yolan, nalə çəkən bacılar,
Mənim ağrılarımdı,
Çəkdiyimiz ağrılar, çəkdiyimiz acılar!

Bu qəmli vaxtınızda,
Qayğılı, düşüncəli,
Sitəmli vaxtınızda,
Qardaş məzarındakı torpaq bilin, daş bilin,
Məni də özünüzə doğmaca qardaş bilin!
Bəxti, payı, qisməti ağzı üstə calanan,
Taleyin zərbəsindən ürəyi parçalanan,
Dan yeri sökülməmiş ağrılara tuş gələn,
Evindən bihuş gedib, evinə bihuş gələn,
Hər dəfə sızlayanda əriyən şama dönən,
Çırağı vaxtsız sönən,
Daşıdığı qayğılar dağdan ağır görünən,
Həmi qəmli, həmi sərt, həmi fağır görünən,
Analar, ay analar!
Özüm gəlim səcdəyə, özüm durum qulluğa,
Oğlunuz olmasam da, götürün oğulluğa!
Mən sizə oğul olum!
Sevginizə qul olum!
Keçim köynəyinizdən doğmaca bala kimi,
Dərdinizə sədd olum, dayanım qala kimi!
Ürəyində döyüntü, damarında qan olum,
Dərdə düçar olanın dərdinə dərman olum.
Ocağında köz olum oda düşən kəslərin,
Evində oda dönüm soyuyan nəfəslərin!
Bəlkə bir az azala əzabımız, ağrımız,
Bəlkə bir az sərniyə közə dönən bağrımız.
Bəlkə bir az azala fəryadımız, ahımız,
Bəlkə bir az nurlana açılan sabahımız!
Eli dar gün görməsin, el sizi darda qoymaz,
Borana düşənləri boranda, qarda qoymaz.

Əzizinəm arxa var,
Beli götür, arxa var.
Qəm yemə dəli könlüm,
Ellər kimi arxa var.

Boşuna yaratmayıb ellər bu bayatını,
Qorumağa can atıb insanın həyatını.
Rüzgar yaman soyuqdu, hava yaman şaxtadı,
Qəlbiniz sızıltıda, ruhunuz sazaqdadı.
Qəfil zərbə dəyəndə ürəklər çat-çat olur,
Dərdin ağırlığından insan yeddi qat olur!
Qarlı bir dağ olsa da, qaya-qaya sökülür,
Məğrur saray olsa da, kərpic-kərpic tökülür.
Uçur, sınır, dağılır, qopur qamqalaq kimi,
Yaşayır yad ağaca vurulmuş calaq kimi!
Saraylar sökülsə də,
Kərpiclər tökülsə də,
Şax duran kişilərin,
Qaməti bükülsə də,
Eşqi böyük olanlar özündə inam tapır,
Gur çıraqlar sönəndə yandırmağa şam tapır.
O şamın işığında,
Əqidənin, məsləkin, inamın işığında,
İnsan kimi yaşadır kədərini, yasını,
Həm sevinc dünyasını, həm kədər dünyasını!
Vaxtsız ölən oğullar, qəbrinizə qurbanam!
Səbri böyük analar, səbrinizə qurbanam!
Qəfil qəza gəlsə də Başkeçidin başına,
Qanımız çilənsə də qayasına, daşına,
Qoca Şindi ağrıdan ikiqat bükülsə də,
Su yerinə çaylara göz yaşı tökülsə də,
Göybulaq halımıza dil açıb ağlasa da,
Leyləkuçan başına qaralar bağlasa da,
Başımızın üstündən acı yellər əssə də,
Tufan bizi dağıdıb, qırmağa tələssə də,
Hələ Günəş doğmamış ölənlərin eşqinə,
Ölənlərin yerinə gələnlərin eşqinə,
Daşların sinəsində axan qanın eşqinə,
Taledən zülüm görən hər insanın eşqinə,
Qızılkilsə kəndinin işığı yanmalıdı!
Oğullar torpaq üstə möhkəm dayanmalıdı!

Duymasaq bu hikməti bizdən qeyrət küsər,
ar küsər,
İyirmi ruh inciyər, iyirmi məzar küsər!
Nə olsun ki, qaçanlar min cür bəhanə tapdı,
Eldən ayrı düşənlər nə qazandı, nə tapdı?!
Ellərin dar günündə düşsək küyə, axına,
Babaların ruhu da bizi qoymaz yaxına!
Hər kim öz məzarının keşiyində durmasa,
Haqsız danışan kəsi haqq ilə susdurmasa,
Doğma ata yurdunu tərkedilməz sanmasa,
Sabahına inanıb, kökə arxalanmasa,
Ona qənim kəsilər,
Atasının çörəyi, anasının südü də,
Nənənin nəsihəti, babanın öyüdü də!
Ellər eşitsin məni, söz aydın, fikir qəti,
Mən buranı seçmişəm könlümün ziyarəti!
O yerdə ki bir anda iyirmi çıraq sönüb,
İyirmi ev dağılıb, iyirmi ocaq sönüb,
O yerdə ki yas tutub, dərə susub, dağ susub,
İyirmi dil bağlanıb, iyirmi dodaq susub,
Ey dünyadan köçənlər!!!
Bu xəbəri biləndən,
Ruhlarınız önündə hər gün səcdə qılmışam,
Sanıram hər qəbirdə özüm basdırılmışam!
Göz yaşı da mənimdi!
Başdaşı da mənimdi!
Mənim öz taleyim də sizin aranızdadı!
Mənim öz məzarım da sizin sıranızdadı!
Ey məni yurda çəkib kökümə qaytaranlar,
Gorunuz nurla dolsun!
Yer üstündən ayrılıb yer altına varanlar,
Gorunuz nurla dolsun!
Səhər tezdən əcəlin şərbətini içənlər,
Gorunuz nurla dolsun!
Başkeçiddə özünə əbədi yer seçənlər,
GORUNUZ NURLA DOLSUN!

## BACARDI

Mənim xalqım qan-yaş tökdü gözündən,
Göz yaşını silməyi də bacardı.
Ağlamağı öz yerində ağladı,
Vədəsində gülməyi də bacardı.

Ürəkləndi tanrısınnan, dilinnən,
Çörəkləndi sümbülünnən, dəninnən,
Şəhid verdi, qəzəbinnən, kininnən –
Düşmən bağrı dəlməyi də bacardı.

Arzuları toxum olub cücərən,
Öz yurdunda əkən, səpən, becərən,
Torpaq üstə yaşamağı bacaran,
Torpaq üstə ölməyi də bacardı!

## YIXDI BİZİ

Qarlı dağlar yıxılsa da, biz heç zaman yıxılmazdıq,
Acı sözlər, yaman gözlər, yaman dillər yıxdı bizi!
Dilimizdə dedi-qodu, gözümüzdə məkrin odu,
Didişmələr, deyişmələr, fitnə-fəsad yıxdı bizi!

Qanımıza susayanlar qan saldılar aramıza,
Sızlatdılar, göynətdilər, duz basdılar yaramıza.
Qaraniyyət olan kəslər danışdılar qaramıza,
Üstümüzdən acı-acı əsən yellər yıxdı bizi!

Tor qurdular, məni səndən, səni məndən eylədilər,
Özümüzü dərdə salıb, özgəni şən eylədilər.
Dərdimizi qaldırdılar, dağlara tən eylədilər,
Gözümüzdən könlümüzə axan sellər yıxdı bizi!

Özümüzü atdan salıb yadı ata mindirəndə,
Dostumuza əyri baxıb düşmən kimi dindirəndə,
Öz müqəddəs odumuzu öz əlimiz söndürəndə,
Göyə qalxıb gözümüzə dolan küllər yıxdı bizi!

Xəyanətin min üzü var, bir söz demək olmur ona,
Neçə-neçə şəhid ömrü bir gecədə çatdı sona.
Otuz yeddi hər il girdi başqa cildə, başqa dona,
Bir-birindən ağır gələn qanlı illər yıxdı bizi!

Şah babamız Xətainin zəhmətini zay eylədik,
Xırdalandıq, özümüzü təpələrə tay eylədik.
Heykəl kimi oğulları güllələrə pay eylədik,
Bu gün vurub-yıxdığımız boş heykəllər yıxdı bizi!

## İNANIRAM HƏQİQƏTİN TƏNTƏNƏSİNƏ

Bir məzara toxunarsan, ölü dillənər,
Bir adamı yandırarsan, külü dillənər,
Bir oğulu susdurarsan, eli dillənər,
İnanmıram bircə kəsdən qorxa, pəsinə,
İnanıram həqiqətin təntənəsinə!

Ordusunda alay-alay qoşun olsa da,
Qoşununda od yağdıran qurşun olsa da,
Hər qurşunu  bir alıcı quşun olsa da,
Şərin səsi çata bilməz haqqın səsinə,
İnanıram həqiqətin təntənəsinə!

Günahkara günahını tanıtmalıdır,
Kəsərini, silahını tanıtmalıdır,
Allahsıza Allahını tanıtmalıdır,
Diz çökdürüb dinsizləri gətirər dizə,
İnanıram həqiqətin təntənəsinə!

Günah cilov tutandadır, cilovda deyil,
Günah tilov tutandadır, tilovda deyil,
Günah alov vurandadır, alovda deyil,
Düşmən nöqtə qoymasa da nifrətə, kinə,
İnanıram həqiqətin təntənəsinə!

Ürəklərdə gah bəm dinər, gah zil oxuyar,
Baxışlarda dərd dil açar, nisgil oxuyar,
Nahaq qanın hər damlası bir dil oxuyar,
Tanrı onu bağışlamaz bircə kəsinə,
İnanıram həqiqətin təntənəsinə!

Mən sabahı dumanlı yox, təmiz görürəm,
Mən sevgimi bir damla yox, dəniz görürəm,
Mən xalqımı əzizlərdən əziz görürəm,
Coşur ürək, yaşayır göz, qabarır sinə,
İnanıram həqiqətin təntənəsinə!

## ŞƏHİD QANI

*Məyus olma, amandır,*
*Məyus olmaq yamandır.*
*Qorxaq diləksiz yaşar*
*Millətim qəhrəmandır!*
**M.Hadi**

Həyatımda ilk dəfə bu qədər qan görürdüm,
Qızıl qana bələnmiş sökülən dan görürdüm.
Qan içində çalxanan Azərbaycan görürdüm,
Yerdən, göydən, dənizdən axırdı şəhid qanı!

Əzizinəm, qan ağlar,
Könül ağlar, can ağlar,
Bu gün yaman günümdür,
Mərd yanar, meydan ağlar.

Həyatımda ilk dəfə bu qədər qan görürdüm,
Hər gülün arxasında sınan könül görürdüm.
Bütün Azərbaycanı məlul, müşkül görürdüm,
Dünyanı yandırırdı, yaxırdı, şəhid qanı!

Əzizim, nələr gördüm,
Dərd dağı dələr gördüm.
Min şəhidin yasında,
Bir xalqı mələr gördüm.

Həyatımda heç zaman belə dərd görməmişdim,
Dərdi belə amansız, belə sərt görməmişdim.
Mənim düşmənim qədər mən namərd
görməmişdim,
Namərdlərin başında çaxırdı şəhid qanı!

Əzizinəm, yas günü,
Yas – qara libas günü.
Qoymaram qiyamətə,
Qala bu qisas günü.

Bu yükü götürməyə hər çiyində tab olmaz,
Hər sözü, cümləsi qan, heç belə kitab olmaz.
Bir xalqın ürəyində bu qədər əzab olmaz,
Bir milləti yay kimi sıxırdı şəhid qanı!

Əzizim, sıxar məni,
Bir yana çıxar məni,
Bu qədər göz yaşları,
Dağ olsam, yıxar məni.

Yağış olub yağırdı, qar olub əriyirdi,
Dağ olub tərpənirdi, daş olub yeriyirdi.
Bizimlə ağlayırdı, bizimlə kiriyirdi,
Hamının gözlərindən baxırdı şəhid qanı!

Əzizim, qara qanlı,
Çək zülfün dara qanlı.
Cəllad, əlin qurusun,
Güllə sərt, yara qanlı.

Dost-düşməni seçirdi ayran ilə yağ kimi,
Tanıdırdı dünyaya şəhidləri sağ kimi.
Bir inamı yerindən qaldırırdı dağ kimi,
Bir inamı kökündən yıxırdı şəhid qanı.

Əzizim, başa çıxdı,
Yol gəldi daşa çıxdı,
Bir inama güvəndim,
Əllərim boşa çıxdı.

Xalqıma yamaq olan maymaqların, kütlərin,
Yalan üstə əyləşən allahların, bütlərin.
Boğazı yoğunların, qəlbi, beyni lütlərin,
Axır ki axırına çıxırdı şəhid qanı!

Əzizim, yalan olmaz,
Yad dərdə qalan olmaz.
Kişi satqın çıxmasa,
Torpağı talan olmaz.

Heç vaxt şərin atını uzağa sürmək olmaz,
Belə ağır günahın altına girmək olmaz.
Onu torpaqdan silib, yerdən götürmək olmaz,
Düşmən qoy yaxşı bilsin, ağırdı şəhid qanı.

Əzizim, keçər gedər,
Gələnlər köçər gedər.
Hər kəs öz əkdiyini,
Axırda biçər gedər.

Alçaqların başında qiyamətlər qoparan,
Vətənin dar günündə dəniz kimi qabaran,
Zaman-zaman bu xalqı haqqa doğru aparan,
Yoldu, izdi, naxışdı, cığırdı şəhid qanı!

Əzizim, ordu məni,
Qan tökdü, yordu məni.
Qoy bu dünya tanısın,
Şəhidlər yurdu məni!!!

**GÜLLƏ**

Bizi döydü, yaman döydü,
Qapımızı döyən güllə.
Qana saldı bu torpağı,
Qandan libas geyən güllə.

Bu xına ayrı xınadı,
Düşmən güldü, dost qınadı.
Gücünü bizdə sınadı,
Mənəm, mənəm deyən güllə.

Dünyanı qana buladı,
Vay saldı, meydan suladı,
Canavartək hey uladı
Haqqımızı yeyən güllə.

Biçir, sanki biçindədi,
Şəhidlərin köçündədi,
Qəlbimizin içindədi,
Qəddimizi əyən güllə.

Yağı kəsdi önümüzü,
Haqq, götürmə ünümüzü,
Bircə gündə günümüzü
Göy əsgiyə düyən güllə.

Bu nalələr susandımı?
Qan axıtmaq asandımı?
Vəhşidimi, insandımı?
Kimdi sənin yiyən, güllə?!

Neçə qəbri sıraladı,
Eldən, gündən araladı.
Yüz milləti yaraladı,
Bir millətə dəyən güllə.

## GÖRÜNMƏZ

*Abbas Abdullaya*

Borçalıdan boylanıram Göyçəyə,
Zirvələrim, ətəklərim görünməz.
Çeşmə başı çərşəmbəsiz keçinər,
Gözəllərim, göyçəklərim görünməz.

Neçə dərdin sirdaşıyam, yarıyam,
Çətin bir də arzulardan yarıyam.
Nə zamandı balsız qalan arıyam,
Qonmaq üçün çiçəklərim görünməz.

Hara gedək bu pislərin əlindən,
Bu pislərin, xəbislərin əlindən.
Göyə çıxdı iblislərin əlindən,
Yer üzündə mələklərim görünməz.

Bir murazı tez görməyə can atdım,
Çınqıllarla dizlərimi qanatdım.
Axşam oldu, gecə keçdi, dan atdı,
Gördüm yenə diləklərim görünməz.

Taleyimin üzü məndən boz oldu,
Ağzım ocaq, dilim yanar köz oldu.
Zəhmətimdən mənə qalan bez oldu,
Tirmələrim, ipəklərim görünməz.

Buz həsrətin üzü daşdan yamanmış,
Ayrılığın üzünə daş yamanmış.
Yurdum-yuvam başdan-başa dumanmış,
Qanad çalsam, lələklərim görünməz.

Yaxın açıb, yaylağıma yad gəlib,
Müxənnətin damağına dad gəlib.
Yağı yenə meydanıma şad gəlib,
Harda yatıb Babəklərim, görünməz.

Göyə baxdım, gözlərimə gəldi qan,
Yarımadım mən şahların şahından.
Çoxdan yanıb Füzulinin ahından,
Ha çağırsam fələklərim görünməz.

Ürəyimin fəryadına qulaq as,
Gör nə deyir yas dalınca gələn yas,
Allah məni çox ağladıb, ay Abbas,
Yaş içində bəbəklərim görünməz.

## ŞÜKRÜ QAYA QARABAĞLI

*Amerikada yaşayan azərbaycanlı*
*Şükrü Qaya Qarabağlı ilə sevimli müğənnimiz,*
*SSRİ xalq artisti Zeynəb Xanlarovanın*
*telegüzgüdə olan söhbətindən cücərən düşüncələr.*

Daşdan-daşa dəyən başın qurbanıyam,
Gözdən qəlbə axan yaşın qurbanıyam,
Vətən canlı Vətəndaşın qurbanıyam,
Qeyrətinə qurban olum, Şükrü Qaya!

Yad baxışlar mənliyini dara çəkib,
Qismət yazan ağ üstündən qara çəkib,
Tale səni gör bir hardan-hara çəkib,
Qismətinə qurban olum, Şükrü Qaya!

Qırx səkkiz il dilin dillər tamarzısı,
Qırx səkkiz il əlin əllər tamarzısı,
Qırx səkkiz il gözün yollar tamarzısı,
Möhnətinə qurban olum, Şükrü Qaya!

Qərib olan gözü yoldan yığan deyil,
Qərib dərdi yerə-göyə sığan deyil,
Qəriblərin bəxtinə gün doğan deyil,
Zillətinə qurban olum, Şükrü Qaya!

Qürbət çəkən hər saatla hesab çəkir,
Ürəyini şişə taxır, kabab çəkir,
Qürbət çəkən ömrü boyu əzab çəkir,
Qürbətinə qurban olum, Şükrü Qaya!

Üz tutqundu, göz yaşlıdı, kirpik nəmdi,
Daşıdığın dağdan ağır yükdü, qəmdi,
Sən Qəribsən, ana Vətən Şahsənəmdi,
Ülfətinə qurban olum, Şükrü Qaya!

Sən Vətəndə sevdiyinə "can-can" dedin,
Bir gözələ "ən vəfalı insan" dedin,
Ad çəkmədin, ona "İsmi-Pünhan" dedin,
Diqqətinə qurban olum, Şükrü Qaya!

Vətən – qardaş, Vətən – bacı, Vətən – ana,
Ətri, dadı keçər südə, hopar qana.
"Vətən!" dedin sən ürəkdən yana-yana,
Xiffətinə qurban olum, Şükrü Qaya!

Həsrət görmək – hər gün sınmaq, əyilməkdir,
Həsrət görmək – tənələrlə döyülməkdi.
Həsrət görmək – içəridən yeyilməkdi,
Həsrətinə qurban olum, Şükrü Qaya!

Ürəyimdi güllələnən, qəlpələnən,
Göz yaşımdı dəniz olub ləpələnən.
Zərrə-zərrə yer üzünə səpələnən,
Millətinə qurban olum, Şükrü Qaya!

# VERMƏDİ

Günümə bax, dövran mənə dərd verdi, dərman vermədi,
Al-qanımı tökən cəllad sağalmağa qan vermədi.
Bu tufanı görən xalqım dalğalandı dəniz kimi,
Vətən oğlu, vətən qızı əbəs yerə can vermədi.

Açılsın bağlı qapılar, bağlansın qapım, dedi,
Mərd oğullar aydınlığa gedən yolu tapım, dedi.
Arzuların arxasında köhlənimi çapım, dedi,
Ara vurdu, tələ qurdu, müxənnət meydan vermədi.

Neçə şəhid sinəsini tufanlara gərdi bu gün,
Heykəlləşdi qəlbimizdə elin neçə mərdi bu gün.
Varaq-varaq yazmalıyam ellər çəkən dərdi bu gün,
Bəlkə tale sabah mənə belə bir imkan vermədi!

## QƏBİRİSTANA GEDƏN YOLDA

Addımları ağır gördüm,
Adamları fağır gördüm,
Neçə nəmli cığır gördüm,
Qəbristana gedən yolda.

Gözümdə bulud apardım,
Könlümdə sükut apardım,
Çiynimdə tabut apardım,
Qəbristana gedən yolda.

Qəmsiz bircə baxış yoxdur,
Sevinc adlı naxış yoxdur,
Giriş varsa, çıxış yoxdur,
Qəbristana gedən yolda.

Ləngimək var, yorulmaq var,
Sökülmək var, qurulmaq var,
Təmizlənib durulmaq var,
Qəbristana gedən yolda.

Ah qalxır, aha qovuşur,
Ağı segaha qovuşur,
İnsan Allaha qovuşur,
Qəbristana gedən yolda.

## AT İLİ – MURAZ İLİ

Muraz ili murazıma baxdı kəm,
Çoxlarını tale qoydu can üstə.
Xəstə gördüm, sağalmazdı yarası,
Zaman-zaman qalasıdı yan üstə.

Bəd nəfəsdən zəhərləndi hava, su,
Baş apardı çox başların havası.
Dava gedir – millət, qeyrət davası,
Dava gedir – şöhrət üstə, şan üstə.

Hansı yağı qismətimi bölmədi?
Hansı yağı ürəyimi dəlmədi?
Mənim ilim at üstündə gəlmədi,
Gəldi, qardaş, qırğın üstə, qan üstə!

## SOYUTMA

Qardaş, qana tuş gəlsə də qışımız,
Ocağını oddan, közdən soyutma.
Əllərini üzmə vaxtın əlindən,
Ayağını yoldan, izdən soyutma.

Meydana gir, durub baxma qıraqdan,
Al gücünü Vətən adlı çıraqdan.
Qələmini ayrı salma varaqdan,
Şəkər dili şirin sözdən soyutma.

Yetim görsən, ona ürək-dirək ver,
Yoxsul görsən, aç süfrəni, çörək ver.
Sevgin varsa, gül bağışla, çiçək ver,
İstəyini ala gözdən soyutma.

Gözümüzdən tökmək üçün yaşı var,
Başımıza yağmaq üçün daşı var.
Bu həyatdı, baharı var, qışı var,
Səfərini dağdan, düzdən soyutma!

## VƏTƏN NƏ ÇƏKİB

Gəlsin şəhidlərin ziyarətinə,
Kimin ürəyində qəm varsa, gəlsin!
Qəmin zərbəsindən düşüb çətinə,
Qəlbində qırılan sim varsa, gəlsin!

Qoy burda tapınsın Tanrıya, dinə,
Çaşıb Allahını danan da gəlsin!
Son qoysun qəlbində nifrətə, kinə,
Xəbislik odunda yanan da gəlsin!

Qoy burda əyilsin dağların başı,
Ölməzlik qazanıb ölənlər üçün,
Məkkədi torpağı, Kəbədi daşı,
Başımın qədrini bilənlər üçün!

Saysız qəbirləri hey saya-saya,
Sıxılıb, çırpılıb, boğulmuşam mən.
Əzablar içində gəlib dünyaya,
Elə bil təzədən doğulmuşam mən.

Bir az asta yeri, bir az asta gəz,
Qardaş, müqəddəsdi burda duyğular.
Burda ayaq açıb yeriyə bilməz,
Cılız düşüncələr, xırda duyğular!

Burda ucalardan uca bir məkan,
Zirvənin Tanrıya baxan yeridir.
Ürəklərdə ağrı, baxışlarda qan,
Millətin sel olub axan yeridir.

Heç vaxt axarını dəyişməz bu sel,
Min illər boyunca axar, beləcə.
Solğun çiçəklərə daraq çəkər yel,
Gələnlər boylanıb baxar, beləcə!

Burda yatanların kim olduğunu,
Qasırğa qoynundan çıxanlar bilər.
Qəlbində fəryadı, dilində ahı,
Gözünün yaşını sıxanlar bilər.

İnsanı göynədən buz nə deməkdi,
Yaraya səpilən duz nə deməkdi,
Toyu yasa dönmüş qız nə deməkdi,
Başında ildırım çaxanlar bilər.

Saraylar uçanda himlər nə çəkdi,
Pərdələr sınanda simlər nə çəkdi,
Kimlər nə danışdı, kimlər nə çəkdi,
Millətin gözünə baxanlar bilər!

Gəlsin şəhidlərin ziyarətinə,
Qoca da, cavan da, uşaq da gəlsin.
Dönsün bu yerlərdə kədər şahına,
Ən uzaq ölkədən qonaq da gəlsin.

Nahaqdan inciyən, haqqa üz tutan,
Harda bir taleyi kəm varsa gəlsin!
Əli qələm tutan, dili söz tutan,
Ayağı yer tutan kim varsa gəlsin!

Qanlı tariximi heç unutmasın,
Qoy gələn görsün ki, gedən nə çəkib.
Heç kəs bu ağrını ucuz tutmasın,
Bilsin dar ayaqda Vətən nə çəkib!!!

# İÇƏRİMDƏ YATAN QÜVVƏT

İçərimdə yatan qüvvət, dayan, hələ baş qaldırma,
Dağ qaldıra bilmirsənsə, əbəs yerə daş qaldırma!
Dağdan ağır həsrətim var, güc gərəkdir qaldırmağa,
Yad dişində qismətim var, güc gərəkdir saldırmağa!
Səni silah edəsiyəm, pis gözlərə atmaq üçün,
Səni Allah edəsiyəm, ucalığa çatmaq üçün!
Xalqın ağır günlərində el sınağa çəkiləndə,
Əqidələr haçalanıb sola-sağa çəkiləndə,
Qeyrətsizlər küncə girib bir bucağa çəkiləndə,
Biri daşa daldalanıb, biri dağa çəkiləndə,
İçərimdə yatan qüvvət, sən imtahan verməlisən!
Gözsüzə göz, əlsizə əl, cansıza can verməlisən!
İçərimdə yatan qüvvət, yığıl, yığıl qollarıma,
Bir daş kimi yana tulla, dağ uçanda qollarıma!

## GƏLİR

Bu gün xəyalımdan gör nələr keçir,
Yadıma keçmişim, dünənim gəlir.
Elin bayramında, elin yasında
Kərəmtək alışıb sönənim gəlir.

Dilimin ləzzəti, sözümün tamı,
Ad verib, dad verib oxşar adamı.
Bağrıma basıram Qorqud atamı,
Qopuzla danışıb dinənim gəlir.

Odu Dəmirçioğlu, odu Xan Eyvaz,
Koroğlu dilində şirin bir avaz,
Bir əlində qılınc, bir əlində saz,
Yenilməz ordular yenənim gəlir.

Arxamda dayanıb min ər oğlu, ər,
Məni qorxudammaz nə böhtan, nə şər,
Çiynində Aynalı, yanında Həcər,
Bozatın yalına sinənim gəlir.

Elə ki, mizrabı çəkirəm simə,
Bir himə bənd olur, ellər bir himə.
Mənim köməyimə, mənim fikrimə,
Hər gün yeddi arxa dönənim gəlir!

## DEMƏRƏM

Yolum, məni çatdırmasan arzuma,
Uçurum billəm, yol demərəm mən sənə.
Telim, yurdun havasını çalmasan,
Taxta sannam, tel demərəm mən sənə.

Səpiləni vədəsində biçməsə,
Buğdasını samanından seçməsə,
Əlim, odun əldən-ələ keçməsə,
Buz deyərəm, əl demərəm mən sənə.

Ürəyimi baxışımdan duymasan,
Tanrı kimi məni uca saymasan,
Gülüm, ömrə gül ətrini yaymasan,
Tikan sannam, gül demərəm mən sənə.

Gözündədir neçə elin murazı,
Təbriz hələ taleyindən narazı.
Selim, qalxıb coşdurmasan Arazı,
Damla billəm, sel demərəm mən sənə.

"Yaddan çıxıb köhnəlibsən" – desələr,
Ölmək üçün bu söz mənə bəs eylər.
Dilim, dillər səni sıxıb yesələr,
Lal deyərəm, dil demərəm mən sənə.

Min illərin adətini itirsən,
Dil adlanan sərvətini itirsən,
Elim, çaşıb qeyrətini itirsən,
Öl deyərəm, el demərəm mən sənə!

## AND YERİMİZ

Vətən bizim qibləmiz,
Vətən eşqi şahımız.
Unutsaq bu hikməti,
Yuyulmaz günahımız.

Qar oldu, ayaz oldu,
Gah qış, gah da yaz oldu.
Qılınc oldu, saz oldu
Ən kəskin silahımız.

Getsin duman-çənimiz,
Sünbüllənsin dənimiz.
İtməsin dünənimiz,
Batmasın sabahımız.

Göydədi sönməz işıq,
Göydədi yar-yaraşıq.
Göylərə bağlanmışıq,
Yerdə qalmaz ahımız.

Bir arzunun şamıyıq,
Bir sevginin camıyıq.
Biz Allah adamıyıq,
Eşidər Allahımız.

Gəz, dolan, baxdıqca bax,
Nə çox dünyada torpaq.
Azərbaycandır ancaq,
Andımız, "vallah"ımız!

## HAZIRLAŞ

Elə ki, göylərin çatıldı qaşı,
Elə ki, buludun axdı göz yaşı,
Elə ki, baş yardı taleyin daşı,
Qar düşdü yaxında görünən dağa,
Hazırlaş kədərlə qabaqlaşmağa!

Göyə sovrulursa ocağın külü,
Qızınan qalırsa boynu bükülü,
Şaxta aparırsa qızıl bir gülü,
Sarılıq çökürsə bağçaya, bağa,
Hazırlaş kədərlə qabaqlaşmağa!

Bir dağın yerində qalar bir təpə,
Palıd cüssələri döndərər çöpə.
Daşı qum eyləyər, dalğanı ləpə,
Baxmır o gələndə xəstəyə, sağa,
Hazırlaş kədərlə qabaqlaşmağa!

Dəmirdən diz gərək, poladdan bilək,
Ağır zərbələrə dayansın ürək.
Çapanda atını qasırğa, külək,
Qoy səni döyüşdə saymasın çağa,
Hazırlaş kədərlə qabaqlaşmağa!

Sənin çiynindədir yük, insan oğlu,
Ömrün qayğısını çək, insan oğlu.
Qalsan bu meydanda tək, insan oğlu,
Bənzəmə torpaqda sürünən tağa!
Palıd ol, baş qaldır buluda doğru!
Hazırlaş kədərlə qabaqlaşmağa!

# GÖYNƏDİR

Gözdə qəhər olanda,
Göz adamı göynədir.
Dildə zəhər olanda,
Söz adamı göynədir.

Can sınıb sökülləndə,
Dərd göydən töküləndə,
Vədəsiz bükülləndə
Diz adamı göynədir.

Bəxt dönəndə qaraya,
Çatan olmur haraya.
Səpiləndə yaraya
Duz adamı göynədir.

Qəm nə pis vaxta gəldi,
Şah oldu, taxta gəldi.
Elə ki, şaxta gəldi,
Buz adamı göynədir.

Kədəri atmaq olmur,
Ömrü yaşatmaq olmur,
Əlliyə çatmaq olmur,
Yüz adamı göynədir.

## QƏMLİ ŞƏKİL

*Müşfiqin məhbəsdə çəkilən şəklinə baxarkən*

Əli necə gəlib şəkil çəkənin,
Belə bir şəklini çəkib Müşfiqin.
Lap qatı vaxtıymış dumanın, çənin,
Zülmət varlığına çöküb Müşfiqin.

Sevincin zərrəcə nişanı yoxdur,
Ancaq bu şəkildə kədər danışır.
Duruşu sinəmə sancılan oxdur,
Solğun baxışları nələr danışır.

Baxışlar deyir ki, haqqı tapdayan,
Başımın üstünü kəsən zalım var.
Baxışlar deyir ki, ey cəllad, dayan,
"Hələ bədr olmamış bir hilalım var"!

Cəllad heç baxmırdı o baxışlara,
Baxsa, inadından dönərdi, bəlkə
Bir gəncin eşqini çəkməzdi dara,
Qəlbində şər hissi sönərdi bəlkə.

Bayquş qənimiydi nəğmənin, səsin,
Duyan ürəkləri salırdı dərdə.
Görüşdə başına gül yağan kəsin,
Soldu gül həvəsi zirzəmilərdə!

Hardadı yatdığı, durduğu məhbəs,
Qanı hansı yerə dağılıb görən?
Onun ölümünə fərman verən kəs,
Ana bətnindənmi doğulub görən?

Yurdun sinəsinə kimlər çəkdi dağ,
Kimlər əl qaldırıb tətiyi çəkdi?
Xalqın şairini gülləyə tutmaq,
Bu xalqın özünü güllələməkdi!

## HESABLAŞMIR

Söz ürəyi yandıranda dil dodaqla hesablaşmır,
Sellər çəkəndə nərəni, çay yataqla hesablaşmır!

Qəzəb qılınc oynadanda səbir ilə hesablaşmır,
İnsan onda qorxu ilə, qəbir ilə hesablaşmır!

Dolu ürək, dolu könül boş həvəslə hesablaşmır,
Qartal üçün göylər gərək, dar qəfəslə hesablaşmır!

Sürgün ilə, həsrət ilə, hicran ilə hesablaşmır!
Əllər dönüb yumruq olur, zindan ilə hesablaşmır!

Arzu, dilək daş hasarla, dəmir sədlə hesablaşmır,
Nə tikanlı məftil ilə, nə sərhədlə hesablaşmır!

Hər xainlə, hər satqınla, hər alçaqla hesablaşmır,
Xalqın adı – haqqın adı, haqq nahaqla hesablaşmır!

**DAYANIR**

Şəhid qəbri, hüzurunda lal-kar kimi dayanmışam,
Nifrətimdən, qəzəbimdən damarımda qan dayanır.
Elə bil ki, daş asılıb burda vaxtın ayağından,
Dan sökülmür, Günəş doğmur, zaman durur, an dayanır.

Haqq bilir ki, sizdən ayrı heç ürəkdən şad olmadım,
Minbir dərdə tuş olsam da, bir sevincə tən olmadım.
Xəcalətəm, niyə sizin cərgənizdə mən olmadım,
Mənim kimi hər gün burda çoxları peşman dayanır.

Tarix sizi zaman-zaman hörmət ilə anar, qardaş,
Bu dağların qarşısında polad olsa sınar, qardaş.
Dəmir olsa külə dönər, qaya olsa yanar, qardaş,
Dəmir dözmür, polad dözmür, ürək dözmür, can dayanır.

Səkkiz yaşlı şəhid balam! De, günahın nəydi sənin,
Qızıl güllə oxa döndü, ürəyinə dəydi sənin.
Atan, anan innən belə bir yanıqlı neydi sənin,
Daş da olsa dayanmazdı, tək buna insan dayanır.

Gözümüzdə acı nisgil, başımızda duman, tüstü,
Ölən öldü, itən itdi, yanan yandı, küsən küsdü.
Dərd qəlbini göynədəndə səhər vaxtı, axşamüstü,
Dönür burda başdaşına, gəlir Zəlimxan dayanır!

## NAYMAN ANA

*Çingiz Aytmatovun "Əsrdən uzun gün" romanını oxudum. Bədbəxt ananın taleyi məni sarsıtdı.*

Düşünürəm, sənin dərdin
nə böyükmüş, Nayman ana!
Daşıdığın çətindən də
çətin yükmüş, Nayman ana!
Heç ağlına gələrdimi
oğlun dönə manqurt ola,
Öz elində tanıdığı
nə yer ola, nə yurd ola.
Sənin oğlun olan günü
südün qaymaq bağlamışdı,
Sənin oğlun itən günü
yaran qaysaq bağlamışdı.
O bədbəxtin sorağını
bir yolçudan alınca sən,
Küləklərdən qanad taxıb
qaçdın onun dalınca sən.
Dərd anlamaz bir səhranın
qucağında tapdın onu,
Çoban idi, bir sürünün
qırağında tapdın onu.
Tapılsa da, nə xeyri var,
oğlun səni tanımadı,
Ondan ötrü can çürüdüb
can verəni tanımadı.
Kim tanımır anasını –
Onu heç vaxt isti yuva,
doğma beşik bağışlamır.
Nə gəzdiyi həyət-baca,
nə ev-eşik bağışlamır.

O bu işdə günahkarmı,
tanımırsa anasını,
Görən onda günah varmı?
Dərk etməyi bacarmırsa
öz dərdini, öz yasını!
Gözdən gözün yaddaşını,
Əldən əlin yaddaşını,
Dildən dilin yaddaşını
silmişdilər, almışdılar,
Dəvələrə yoldaş edib
çöldən-çölə salmışdılar!

“Atan yoxdu!” – demişdilər,
“Anan yoxdu!” – demişdilər,
“Səndən ötrü fikir çəkən,
Yanan yoxdu!” – demişdilər,
inanmışdı!
“Əslin yoxdu!” – demişdilər,
“Dəvələri otarmaqda
Mislin yoxdu!” – demişdilər,
inanmışdı!
Qəddar düşmən, sərt intiqam,
Əməlindən alırdı kam!
İsti dəri, qırxılmış baş,
Gün altında quruduqca
Bir-birinə qaynaq olub
yapışırdı yavaş-yavaş.
Dönüb manqurt olan kəslər
itirirdi öz başını,
İtirirdi yaddaşını!
Görən kimi bu dəhşəti,
Bu dözülməz məşəqqəti,
Ahın göydə duman olub,
Yaşın yerdə ümman olub.
Səni belə günə salan,
Bir Allahsız düşmən olub,
Bir insafsız zaman olub.

Bu ağrının illətindən
bükülmüsən, Nayman ana!
Qala kimi kərpic-kərpic
sökülmüsən, Nayman ana!
Oğlun səni tanımadı!
Layla çaldın, tanımadı,
ağı dedin, tanımadı.

Ürəyimin, gözlərimin
yağı dedin, tanımadı!
Nayman ana, onda görmə,
onda görmə günahı sən,
Günahkar bil Allahı sən!
Günahkar bil yağını sən!
Daha sənə olan olub,
daşı oğul dağını sən!
Ağlı yoxdu, huşu yoxdu,
ondan sənə oğul olmaz,
Düşünməyə başı yoxdu,
ondan sənə oğul olmaz!
Söhbətinə qəbir qazıb susdurublar!
Yaddaşına qəbir qazıb basdırıblar!
Manqurt olmaq –
Diri gözlər baxa-baxa kor olmaqdı!
Manqurt olmaq –
Əl-ayağı ola-ola şil olmaqdı!
Baş salamat dura-dura
təpəsinə kül olmaqdı!
Yazıq insan – manqurt oldu,
nələr çəkdi,
Manqurt olmaq –
İnsanlıqdan heyvanlığa
dəyişməkdi, çevrilməkdi!
Öz ağlının gücü yoxdu,
Öz qəlbinin hökmü yoxdu.
Vur! – desələr, vurasıdı,
Dur! – desələr, durasıdı!

Öz əlilə öz başını,
Yar! – desələr, yarasıdı.
At! – dedilər,
Oğlun səni nişan aldı, Nayman ana!
Ağ dəvədən, ağ mayadan
yerə saldı, Nayman ana!
Oğul qəlbi alışmadı,
daşa döndü, Nayman ana!
Ana qəlbi göyə çıxdı,
quşa döndü, Nayman ana!
Quşa döndü, öz dərdini zaman-zaman
ötmək üçün,
Əli yerdən üzüləndə
Ulduzlardan kömək umdu,
Manqurtların köməyinə yetmək üçün.
Dünən manqurt olan kəslər
ayrı-ayrı adamlardı,
Bu gün ondan qorxuram ki,
millət ola, ölkə ola!
Bir millətin oğulları,
Başqasına nökər ola,
başqasına kölgə ola!
Görünməmiş bu xəyanət
İnsanlığın tarixində bir silinməz ləkə ola!
Qorxuram ki, yavaş-yavaş
manqurt ola millət, Vətən,
Öz kökünü tanımaya
nə göyərən, nə də bitən.
İnsanları təmiz saxla,
şərdən qoru, Nayman ana!
Göydən bizə bəla gəlməz,
Özün bizi yer üzündə
yerdən qoru, Nayman ana!
ŞƏRDƏN QORU,
ŞƏRDƏN QORU,
ŞƏRDƏN QORU, NAYMAN ANA!

## DÖZ ÜRƏYİM, DÖZ HƏLƏ

Az qalırsan sinəmi,
Yara-yara çıxasan.
Az qalırsan sinəmdə,
Şimşək olub çaxasan.
Az qalırsan dünyanı,
Yandırasan, yaxasan.
Yandırmasın qoy səni,
Ocaq hələ, köz hələ.
Çatmalı arzular var,
Döz, ürəyim, döz hələ!

Məni susdurma, bəsdir,
Yaşım qırxa çatmamış,
Ömrün, günün yolunda
Şax addımlar atmamış.
Həyatdan getmək olmaz,
Həyatı yaşatmamış.
Bizim nə vaxtımızdı,
Nə görmüşük biz hələ.
Ağrılara baş əymə,
Döz, ürəyim, döz hələ!

Qoy bir sərt imtahandan,
Ağır sınaqdan keçim,
Suallar yarışında
Sirdən-soraqdan keçim,
Min kitabdan ələnim
Minbir varaqdan keçim.
Neçə ki, iş olmayıb
Dediyimiz söz hələ.

Ellərə borcumuz var,
Döz, ürəyim, döz hələ!

Mən gərək innən belə,
Zəncan görüm, Xoy görüm.
Əhərdə, Ərdəbildə
Şadlıq görüm, toy görüm.
Oğulsan bu arzudan,
Bu istəkdən doy, görüm.
Yollardan çəkinməyib,
Duman hələ, toz hələ.
Təbrizi görməmişəm,
Döz, ürəyim, döz hələ!

Qonaqlar özlərini
Ev sahibi sandılar.
Varlığı şübhəlilər,
Mənliyimi dandılar.
Yağıların sözünə,
Naşılar inandılar.
Dağıma düz deyirlər,
İpəyimə bez, hələ.
Həqiqətin eşqinə,
Döz, ürəyim, döz hələ!

## AĞLAR GÖRDÜM BİR ANANI

*Teleekranda fələstinli bir ana saçlarını yolub ağlayırdı*

Zirvələr əysin başını,
Üfüqlər çatsın qaşını,
Bulud töksün göz yaşını,
Göy ağlasın, sən ağlama!

Tap oğlunu, tap yarını,
Ərit həsrətin qarını.
Qatillərin vüqarını
Əy, ağlasın, sən ağlama!

Qayğıları zaman çəksin,
Dağ daşısın, duman çəksin,
Naləsini kaman çəksin,
Ney ağlasın, sən ağlama!

Hanı oğulların, hanı,
Sellər kimi axdı qanı,
Tale döysün ağladanı,
Hey ağlasın, sən ağlama!

Haqqın səsi qoyma susa,
Qəm sevinci dardan asa,
Şərin toyu dönsün yasa,
Qoy ağlasın, sən ağlama!

## NƏ QALDI

Heç bilmirəm bu dünyanın üzündə,
Göz yaşımız çilənməmiş nə qaldı.
Talançılar talamamış, yıxmamış,
Dilənçilər dilənməmiş nə qaldı.

Gözümüzdən gecə-gündüz yaş yağdı,
Dayanmadı, yaz kükrədi, qış yağdı.
Dolu yağdı, qaya yağdı, daş yağdı,
Başımıza ələnməmiş nə qaldı.

Yerin, göyün altı qandı, üstü qan,
Bulud qandı, duman qandı, tüstü qan.
İnsan oğlu küsdürdü qan, küsdü qan,
Qızıl qana bələnməmiş nə qaldı.

## SƏNİ HAQQA ÇAĞIRIRAM

*Səmtini, qibləsini itirmiş bir nəfərə*

Qayıt bulağın gözünə,
Qayıt tanrının sözünə,
Qayıt özgədən özünə,
Səni haqqa çağırıram!

Əfilər var, ilanlar var,
Səni səndən alanlar var,
Ortalıqda yalanlar var,
Səni haqqa çağırıram!

Boşboğazlar bağırdılar,
Ağlı sazlar çığırdılar,
Səni şərə çağırdılar,
Səni haqqa çağırıram!

Yad tənəsi yemək olmaz,
Yaddan bizə kömək olmaz,
Düşmənə dost demək olmaz,
Səni haqqa çağırıram!

Tel mən olum, pərdə sən ol,
Göy mən olum, yer də sən ol,
Ziyarət də, pir də sən ol,
Səni haqqa çağırıram!

Qazan qazdı, eşən eşdi,
Vuran vurdu, deşən deşdi,
Yıxan yıxdı, düşən düşdü,
Səni haqqa çağırıram!

Gəl eyləmə yük bu daşı,
Daşı, yoldan çək bu daşı,
Ətəyindən tök bu daşı,
Səni haqqa çağırıram!

Tuş gəlsən də silahlara,
Batma bir də günahlara,
Üz tutmuşam sabahlara,
Səni haqqa çağırıram!

Aləm bu sirdən agahdı,
Həqiqət həmişə şahdı,
Yanılmayan bir Allahdı,
Səni haqqa çağırıram!

## GƏLƏ

Bir qaydadı, qış dalınca yaz gələr,
Vay o gündən, qış dalında qış gələ.
Bir sevincin ləzzətini dadmamış,
Ömrün, günün min əzaba tuş gələ.

Addım-addım səni çəkə şər sola,
Təmiz itə, təzə bata, tər sola.
Vay o gündən, avand işin tərs ola,
Gözlərindən qan qarışıq yaş gələ.

Xoş olmazmı göyərəsən, bitəsən,
Hər arzuya, hər mətləbə yetəsən.
Vay o gündən, tapılmamış itəsən,
Dərdin arta, birin üstə beş gələ!

## GEDƏR

Zaman-zaman dünya durar yerində,
Ömrümüzdən ömür gedər, gün gedər.
Tapılanlar itənləri ödəməz,
Bir taparıq, əlimizdən min gedər.

Bəxti yatar zirvələrdən enənin,
Qəlbi gülməz haqdan üzü dönənin.
Od-ocağı qaralanın, sönənin,
Qəbrə kimi ürəyində kin gedər.

Saç ağarar dərdli başın əlindən,
Zülüm çəkər gözlər yaşın əlindən.
Vətən getsə Vətəndaşın əlindən,
İnsaf gedər, iman gedər, din gedər.

## YETİMİN AĞISI

Göz yaşımdan zaman-zaman üzüm nəm çəkdi, nəm çəkdi,
Başım daşdan-daşa dəydi, ürək qəm çəkdi, qəm çəkdi.

Nə olsun ki, kül olmadım ömrün-günün yollarında,
Mən çəkəni nə bir aşiq, nə də yazıq Kərəm çəkdi.

Dünya məndən nə qazandı, mən bilmirəm, ondan soruş,
Ruhum ancaq bu dünyadan zülüm gördü, sitəm çəkdi.

Ulu Tanrı ucalardan endi məni görən kimi,
Taleyimin üzərində qara xətlə qələm çəkdi.

## QALDI

Qarlı bir qış günündə
tufan qopdu, nə qopdu,
Dağlar uçdu, yerində
dərin bir dərə qaldı.
Ağız açdıq Allaha,
bir yana çıxmaq üçün,
Ümid nə bir ocağa,
nə də bir pirə qaldı.
Bizi ayrı saldılar
öz doğma yuvamızdan,
Ayrılığın, həsrətin
dişində şirə qaldı.
Cəmiyyət nə amansız,
təbiət nə soyuqmuş,
Şirin günlərimizdən
acı xatirə qaldı!

## ONUN RUHUNA SÖYKƏN

Səni yasdan çıxardaq, anam Azərbaycanım,
Sil gözlərin yaşını, qaralara bürünmə, gəl!
Sənin qara geyməyin sevindirər düşməni,
Yağıların önündə dumanlı görünmə, gəl!

Qoy səni düşmən kimi dindirənlər utansın,
Qoy səni ocaq kimi söndürənlər utansın.
Qoy səni ucalardan endirənlər utansın,
Dağ kimi möhkəm dayan, qar kimi kürünmə, gəl!

Qəmlər çoxdu dünyada, qəm yoxdu qəmin kimi,
Oğulların qırılıb, biçilmiş zəmin kimi.
Qara dağın yıxılıb, MƏHƏMMƏD ƏMİN kimi,
Onun ruhuna söykən, ətəkdə sürünmə, gəl.

**BU TORPAQ**

Adına dedilər odlar torpağı,
Saldı şöhrətini dilə bu torpaq.
Qorqud qopuz kimi köklədi, çaldı,
Çəkdi nəğməsini zilə bu torpaq.

Yurdam, el-obayam, evəm-eşiyəm,
Çalınan laylayam, isti beşiyəm.
Borana düşsəm də qoymaz üşüyəm,
Oldu Kərəmlərə Lələ bu torpaq.

Nə oğlu acizdi, nə qızı fağır,
Üzündən gözündən dəyanət yağır.
Göylərdən genişdi, dağlardan ağır,
Olmaz kürəklərdə şələ bu torpaq.

Koroğlu şöhrətli barata dönər,
Araz bir qılınca, Kür ata dönər.
Yad gəlsə Qırata, Dürata dönər,
Verməz cilovunu ələ bu torpaq.

Göstərər düşmənə olmaz oyunu,
Dosta ana kimi açar qoynunu.
Dünya dağılsa da, əyməz boynunu
"Səksən min kotanlı kələ" bu torpaq.

Gah yaşılı geyər, gah da sarını,
Bitirər, yetirər bağça-barını.
Qəlbinin ən həzin duyğularını,
Döndərər çiçəyə, gülə bu torpaq.

Barlı budaqları üzümdən öpər,
Gözümə nur verər, könlümə təpər,
Ayağım şumlayar, əllərim səpər,
Çevrilər qızıla, lələ bu torpaq.

Qarğa dərəsində, qartal dağında,
Qanqal səhrasında, çiçək bağında,
Pisə də yer verər öz qucağında,
Salmaz namusunu çölə bu torpaq.

Qoynunda nənələr, babalar yatıb,
Ömrünü torpağın ömrünə qatıb.
Qəlbimdə müqəddəs bir ocaq çatıb,
Döndərməz eşqimi külə bu torpaq!

## İÇİMDƏ SIZLAYAN ARI

Doğradılar pətəyini,
Soldurdular çiçəyini,
Sındırdılar ürəyini,
İçimdə sızlayan arı.

Daha sənin balın olmaz,
Bal süzməyə halın olmaz,
Uçmaq üçün yolun olmaz,
İçimdə sızlayan arı.

Qədər gözlə, yazı gözlə,
Gözlə, ərki, nazı gölə,
Hələ qışdı, yazı gözlə,
İçimdə sızlayan arı.

## QALDI

Uddu oğulları qanlı davalar,
Analar boylana-boylana qaldı.
Şaxta sızıldatdı, ayaz apardı,
Yaralar hoylana-hoylana qaldı.

Nə dəftər götürər, nə qələm yazar,
Hələ də itkindir nə qədər məzar.
O qədər ürəyi üzdü intizar,
Bağrımız teylənə-teylənə qaldı.

Zəhər dişlərində, ağı dilində,
Yağılar danışdı yağı dilində.
Bayatı köküdə, ağı dilində,
Dərdimiz söylənə-söylənə qaldı.

## SEVİRƏM

Dünya, səni sevirəm,
Sevgini nifrətə döndərmə!
Həyat, səni sevirəm,
İşığı zülmətə döndərmə!
Tale, səni sevirəm,
Vüsalı həsrətə döndərmə!
İnsan, səni sevirəm,
Vətəni qürbətə döndərmə!
Zaman, mən səni sevirəm,
Sərvəti rüşvətə döndərmə!
Tanrı, mən səni sevirəm,
Şadlığı zillətə döndərmə!
Çəkilməz zülümü, amansız ölümü,
Şərəfsiz həyatı,
Bəd gələn saatı
Heç kəsin bəxtinə,
Heç kəsin evinə
Göndərmə!
Göndərmə!
Göndərmə!

## YOLÇUSUYAM YOLLARIN

Yolçusuyam yolların, yormaz yoxuşlar məni,
Ruhumda yaz fəslidir, qar deyil, sazaq deyil.
Niyyətin haradırsa, mənzilin də oradır,
Bu sınanmış həqiqət boş deyil, nahaq deyil.

Yolu uzaq olanlar gecələr yata bilməz,
Yata-yata gəzənlər mənzilə çata bilməz.
Haqqa qovuşmaq üçün bir addım ata bilməz,
Hər kimin başı üstə məsləki bayraq deyil!

Vətənin göylərindən bulud keçir, çən keçir,
Axşamlarım kədərli, sabahlarım şən keçir,
Yurdumun hər çırağı mənim qəlbimdən keçir,
Nursuz qalsın o göz ki, yurd ona çıraq deyil!

Yolçusuyam yolların, hava yolu, su yolu,
Başlamışam, sonacan getməliyəm bu yolu.
Mənimçün şeirin yolu – müqəddəs arzu yolu,
Qırılsın o qələm ki, sirdaşı torpaq deyil!

Şirin-şirin ötən saz, dinən taram dünyada,
Nəğməmlə, nəfəsimlə hələ varam dünyada,
Baş qaldırıb bircə gün yaşamaram dünyada,
Desələr mayası xalq, dayağı torpaq deyil!

Könül, yaxına qoyma nə yamanı, nə bədi,
Olsun sevən ürəklər sevənlərin məbədi.
Torpağa sevgisiylə əbədidir, əbədi,
Zəlimxan bu dünyada beşgünlük qonaq deyil.

## GÖSTƏR

Qardaş, yeriyəndə əymə qəddini,
Boylar sırasında boyunu göstər.
"Ürək genişliyi nədir?" – desələr,
Bu yurdun yerini, göyünü göstər.

Bu xalqın zilini endirmə pəsə,
Səs ver Xətaidən gələn bir səsə.
Kim səni arxadan vurmaq istəsə,
Sən ona əlinin suyunu göstər.

Onsuz da içimdə bir həsrət mələr,
Dərdim dilə gəlsə, dağları dələr.
"Nisgilin, hicranın varmı?" – desələr,
Araztək açılmaz düyünü göstər.

Odlar torpağında sönməsin işıq,
Odsuz bir diyarda qarlı bir qışıq.
Kənarda dayanıb çox aldanmışıq,
Meydanda kökünü, soyunu göstər.

## MƏNƏ SEVDİKLƏRİM QALAR

Ömür yolu – sevgi yolu,
Mənə sevdiklərim qalar.
Sevgilərlə qəlbim dolu,
Mənə sevdiklərim qalar.

Ələnib keçər ələkdən,
Təmizlənər un kəpəkdən.
Balı süzəllər pətəkdən,
Mənə sevdiklərim qalar.

Kimdi ölü, kimdi diri,
Kimdi bu ocağın piri.
Seçərəm çaqqalı, şiri,
Mənə sevdiklərim qalar.

Solar yanaq, çatılar qaş,
Düşünməkdən yorular baş.
Zaman keçər yavaş-yavaş,
Mənə sevdiklərim qalar.

İz var itər, daşda qalmaz,
Söz var gedər, huşda qalmaz,
Yaddan çıxan başda qalmaz,
Mənə sevdiklərim qalar.

Dağım deyil, çənim deyil,
Tarlam deyil, dənim deyil,
Sevmədiyim mənim deyil,
Mənə sevdiklərim qalar.

Yaşıldı, aldı, bilmərəm,
Tirmədi, şaldı, bilmərəm.
Kimə nə qaldı bilmərəm,
Mənə sevdiklərim qalar.

## ÖLLƏM

Aran da, yaylaq da doğmadır mənə,
Qəlbimi dağlara verməsəm, ölləm.
Yazda çiyələyi, yayda yarpızı,
Payızda moruğu dərməsəm, ölləm.

Hər kimin qar düşsə yayda yadına,
Vüqarlı zirvələr çatar dadına.
Bizim o dağların ölməz adına,
Şeirdən bir çələng hörməsəm, ölləm.

Könül oylağından qalsa uzaqda,
Donar nəğmələrim dildə, dodaqda,
Lökün dərəsində, Ballı bulaqda,
Vaxtında bir süfrə sərməsəm, ölləm.

Barmağı pərdədə, mizrabı teldə,
Turacı meşədə, sonası göldə,
Kəkliyi qayada, ceyranı çöldə,
Qartalı zirvədə görməsəm, ölləm.

## QƏRİBLƏR

*Bizə ayrı düşmək haqdan əmirdi,*
*Yeddi il dediyin xeyli ömürdü.*
*Məgər mənim canım daşdı, dəmirdi,*
*Ana mən Qəribəm, Qəribəm, Qərib.*
***"Aşıq Qərib" dastanından***

Sən şükürlüsənmiş, ay Aşıq Qərib,
Sənin qəribliyin yeddi il çəkib.
Tale qəriblərə zülüm göndərib,
Hərəsi bir ağrı, bir nisgil çəkib.

Şahsənəm eşqinə düşüb yollara,
Dərdini deməyə saz götürübsən.
Vaxtında yetişib vəfalı yara,
Həsrətin yükünü az götürübsən.

Daşımaq çətindi əzabı, dərdi,
Bəxtin qarası var, işin bədi var.
Sənin Şahvələdin bircə nəfərdi,
İndinin min cürə Şahvələdi var.

Min yol çağırsaq da, gözə görünməz,
Səni göy atına mindirən kişi.
Hamıya görünər, bizə görünməz,
Qəribi qürbətdə dindirən kişi.

Hələbdən Tiflisə, Sənan dağına,
Mavi qanadların üstündə gəldin.
Ana istəyinə, yar sorağına,
Üçaylıq yolları üç gündə gəldin.

Bu gün qəriblər var, birgünlük yola,
Qırx ildi əlləşir, yetişə bilmir.
Dolanır gözünə yaş dola-dola,
Naləsiz, fəryadsız ötüşə bilmir.

Dözə bilmədinsə yeddicə ilə,
Yetmiş il qürbətdə qalan neyləsin?
Əridib ömrünü hey gilə-gilə,
Tufandan-tufana salan neyləsin?

Yuxularda görüb Azərbaycanı,
Xəyalı min yerə dağılan da var.
Üzülüb ürəyi, əzilib canı,
Göz yaşı içində boğulan da var.

Qürbətin hər günü qəlbin yasıdı,
Hər könül bir odlu ahdan ağrıyar.
O ki qəm oylağı, dərd yuvasıdı,
Gahdan sakit olar, gahdan ağrıyar.

Sönən şama dönər, əriyən yağa,
Onun yarasına məlhəm tapılmaz.
Elə ki, can atar məktub yazmağa,
Varaq tapılsa da, qələm tapılmaz.

Qəriblər qəfləti ölmür, işə bax,
Susmaq ağır olur, can vermək çətin.
Görür sifətini ölümdən qabaq,
Yadlaşan sevginin, buz məhəbbətin.

Elə ki, göz yumur Tanrıya bəndə,
Onda yavaş-yavaş bədən soyuyur.
Qəribin ürəyi buza dönəndə,
Buzun arasında Vətən soyuyur.

Qərib var, Vətəndən yarpaq arzular,
Vətənin üzütək öpülmək üçün.
Qərib var, Vətəndən torpaq arzular,
Öləndə qəbrinə səpilmək üçün.

Gözünün başında boğulan, axan,
Eldən aralanıb gedən yazıqdı.
Gözləri həmişə qürbətə baxan,
Qəribi çox olan Vətən yazıqdı.

Görüb təbiətin sərt ayazını,
Dərdini obaya, elə söyləyər.
Qəmli aşıq kimi çalıb sazını,
Qəriblər fikrini belə söyləyər:

Ağlamaqdan,
Əzizim, ağlamaqdan.
Bağda yarpaq qalmadı
Yaramı bağlamaqdan.

Vallah, şükürlüsən, ay Aşıq Qərib,
Sənin qəribliyin yeddi il çəkib,
Tale qəriblərə zülüm göndərib,
Hərəsi min ağrı, min nisgil çəkib.

## OLMUR

Dostum, gileylənmə yaddan, yaxından,
Əzəldən belədir, hamı bir olmur.
Həyatda hər kəsin öz qibləsi var,
Çırağı bir olmur, şamı bir olmur.

Həyat dövr eləyir hər axşam, səhər,
Bir günü bal olur, bir günü zəhər.
Birində sevinc var, birində qəhər,
Hər günün ləzzəti, tamı bir olmur.

Zəlimxan söyləsin duy, yavaş-yavaş,
Bir yerdə olarmı ayaq ilə baş.
Birində nəm hava, birində daş-qaş,
Həyatın, sarayla damı bir olmur.

## ÖMÜR VƏFA EYLƏSƏ

Qüvvət alıb Tanrıdan,
Bir dəlisov köhlənin,
Yalmanına yataram.
Arzuların dalınca,
Çapıb-çapıb çataram.
Qanad ollam, səs ollam,
Eldən gələn hər səsə,
Ömür vəfa eyləsə!

Bu qadalı dünyanın,
Qadasını alaram.
Könül adlı sazımı,
İstəyimcə çalaram.
Enmərəm zildən pəsə,
Ömür vəfa eyləsə!

Köhnə ildən nə qaldı,
Təzə ilə keçəsi?
Bu şirin dünyamızdan,
Nakam getdi neçəsi.
Zaman axıra qədər,
Gün ağlamır bir kəsə.
Könüllər güldürərdim,
Ömür vəfa eyləsə!

Yol yarıya çatmamış,
Atlını salır atdan.
Tale ayırır bizi,
Yaşamaqdan, həyatdan.
Deyin heç insafdımı,

Baş titrəyə, əl əsə,
Neçə dərdin, azarın,
Dərmanını tapardım,
Ömür vəfa eyləsə!

Günahımı dərk edib,
Səhvimi anlamışam.
Eylədiyim səhvləri,
Bir-bir yadıma salıb,
Özümü danlamışam.
Mətləb aydın, söz kəsə,
Bircə ömrün içində,
Minbir ömür yaşardım,
Ömür vəfa eyləsə!

## BİLMƏK OLMUR HƏYATI

Ömür keçir, gün keçir
Düşüncələr içində.
Bəzən sevinc içində,
Bəzən kədər içində.
Vaxtın keçmişi bəlli,
Sabah necə gələcək,
Dəqiqəsi, saatı,
Bilmək olmur həyatı.

Dolaşan cəmiyyətdi,
Dolaşdıran zamandı.
Kim ayrılıq içində,
Kimi başdan-ayağa
Qatı çəndi, dumandı.
Kimin günəşi doğur,
Kimin günəşi batır,
Bilmək olmur həyatı.

Doğmanı ögey sanıb,
Dostla ara vurmağa,
Dili zəhərli gəzib,
Xalqa yara vurmağa,
Kimi qızıl ilandı,
Kimi də ala çatı,
Bilmək olmur həyatı.

Biri enir taxtından,
O biri taxta çıxır.
Birinin dedikləri

O birinin dilində,
Puç olur, saxta çıxır.
Bilinmir kim bütövdür,
Kimin qırıqdır zatı,
Bilmək olmur həyatı.

Birdən düşür vəlvələ,
Birdən qopur zəlzələ,
Min cürə sərvətindən,
Biri də gəlmir ələ.
Birdən-birə görürsən,
Yerin üstə çevrilir,
Yerin ən dərin qatı,
Bilmək olmur həyatı.

Ürək səsdə, təlaşda,
Baş fikirlər içində.
İnsan çox düşünsə də,
Qalır sirlər içində.
Hər gün çıxır cıdıra,
Hər gün büdrəyir atı.
Kimdi çıxan qabağa,
Kimdi qalan arxada,
Bilmək olmur zamanı,
Bilmək olmur həyatı!

## MƏNƏM

Dinlə, ey qoca dünya,
Bu gün mənim səsimi.
Xəbər bilmək istəsən,
Ən güclü xəbər mənəm!
Az deyil yer üzündə,
Haqqına can atanlar,
Ən dalğalı izdiham,
Ən ağır ləngər mənəm!

Heç kəs oynamasın qoy,
Qəzəbim, nifrətimlə,
Tarixlərdə bəlliyəm,
Bəşərə hörmətimlə.
Qanlı silahımla yox,
Namusum, qeyrətimlə,
Təpədən dırnağadək,
Silahlı əsgər mənəm!

Döyüşlər meydanına,
İndi qoy Həzi gəlsin.
Yurdun qarlı Qoşqarı,
Qarlı Kəpəzi gəlsin,
Babəkin özü gəlsin.
Xeyir-dua verməyə,
Haqqımı qaytarmağa,
Bu gün səfərbər mənəm!

Səksəkələr içində,
Sökülən bir danım var.
Qayğılar dəryasında,
Bir narahat canım var.
Bu gecə yatmaq olmaz,

Sabah imtahanım var,
Bu gün oxunan kitab,
Yazılan dəftər mənəm!

Sifətini görmüşəm,
Düşmənin min rəngi var.
Düşmən də cürbəcürdü,
Xırdası, nəhəngi var.
İçimdəki tufanın,
Min şiri, pələngi var.
Daşqın Araz, Dəli Kür,
Dalğalı Xəzər mənəm!

Yersiz yerlilər gəlib,
Haqsız hay-haray olsa,
Bircə gilə zəhməti,
Hədər gedib zay olsa,
Xalqımın bircə tükü,
Qara yelə pay olsa,
Elə billəm dünyada,
Ən böyük kədər mənəm!

Qarışaram bu yurdun,
Ocağına, qoruna,
Aldanmaram düşmənin,
Hiyləsinə, toruna.
And içirəm müqəddəs babaların goruna,
Səbir, dözüm, dəyanət,
Qeyrət mən, təpər mənəm!

Şuşa yaxşı tanıyır,
Doğmasını, yadını.
Topumda, Topxanamda,
Düşmən görüb dadını.
Kim nə zaman çəkəndə
Qarabağın adını,
Göydən ulduzlar sanı,
Yağan nəğmələr mənəm!

Vaxtım yox gecikməyə,
Haqqım yox tələsməyə.
Qoy xainlər başlasın,
Titrəməyə, əsməyə.
Xəyanətin kökünü,
Yer üzündən kəsməyə,
Ən kəskin qılınc mənəm,
Ən iti xəncər mənəm!

Həqiqətə güvənib,
Haqqa tərəf dayanıb,
Azərbaycan elləri,
Bu gün səf-səf dayanıb.
Ön cərgədə birinci,
Məslək, şərəf dayanıb.
Ən qüdrətli bir ordu,
Ən odlu səngər mənəm!

Torpağın hər zərrəsi,
Məndən ötrü müqəddəs.
Yüz il yükünü çəksəm,
Deməreəm ki, bəsdi, bəs.
Gör nə deyir gəncliyin,
Ürəyindən gələn səs:
Xalq mənim rəhbərimdi,
Bu xalqa rəhbər mənəm!

Bu gün mənim ürəyim,
Yurdum, sənə döyündü.
Bu gün sənin ürəyin,
Yurdum, sənə döyündü.
Elə ki, milyon ürək,
Bir bədəndə döyündü,
Ən uğurlu qələbə,
Ən böyük zəfər mənəm!

***1988, 27 noyabr***

## İNANIRAM QƏLƏMƏ

Qələm silah, masa səngər, mən əsgər,
İnanmışam, inanıram qələmə.
Əsgər olan məsləkinə and içər,
İnanmışam, inanıram qələmə.

Başımdakı fikir onun, çən onun,
Saçımdakı təzə düşən dən onun,
Ömrüm boyu o mənimdir, mən onun,
İnanmışam, inanıram qələmə.

Dosta məktub, yara yazı – taleyim,
Ağ kağızda qara yazı – taleyim.
Bu yolların qar-ayazı – taleyim,
İnanmışam, inanıram qələmə.

Əkinçiyəm, əllərimi öpər o,
Toxumunu varaqlara səpər o,
Güvəndiyim qüvvət odur, təpər o,
İnanmışam, inanıram qələmə.

Xəbər verər aqilindən, pirindən,
Yazar xalqın taleyini dərindən,
Xətaini qaldıracaq yerindən,
İnanmışam, inanıram qələmə.

Çox suala ləngiyibdi cavabım,
Tarix ilə çoxdu haqqım, hesabım.
Yazılacaq neçə-neçə kitabım,
İnanmışam, inanıram qələmə.

O halaldı, haramlığı götürməz,
Şah budaqdı, cır meyvələr gətirməz.
Ölənədək zəhmətimi itirməz,
İnanmışam, inanıram qələmə.

## PİS QONŞUYA

Biz ki bir ürəkdə bir can kimiydik,
Lap elə dərd ilə dərman kimiydik.
Düşəndə tarixin sınaqlarına,
Yara sən olanda məlhəm mən idim.
Dərdi bir divana yetirmək üçün,
Varaq sən olanda qələm mən idim.
İllərlə bir eşqin dalınca düşdük,
Əsli sən olanda Kərəm mən idim.
Bir gün kəsilməzdi gediş-gəlişlər,
Cığır sən olardın, yol mən olardım.
Dərdli könülləri ovundurmağa,
Mizrab sən olardın, tel mən olardım.
Daha dostluğumuz, məhəbbətimiz,
Qırılan kamandı, sındırılan saz,
Yer göyə qovuşsa biz qovuşmarıq,
Yox daha səninlə mənimki tutmaz!
Mən sənə yer verdim, torpağın olsun,
Mən sənə neft verdim, çırağın olsun.
Odlar diyarından od bağışladım,
Qışda qızınmağa ocağın olsun.
Ürəkdən, yaddaşdan silinən deyil,
Mənim yaxşılığım, sənin pisliyin.
Nə yerə yerləşər, nə göyə sığar,
Adını nə qoyaq bu xəbisliyin.
Bax, öz keçmişinə, öz dünəninə,
Mənim kimliyimi bilərsən onda.
Qəlbindən ləkəni, dilindən şəri,
Gözündən dumanı silərsən onda.
Yatmış vicdanını çağır köməyə,
Tarix kitabını get təzədən yaz,

Nə yazdın, yazmadın özün bilərsən,
Yox daha səninlə mənimki tutmaz!
Dilimi pis sözə öyrətməmişəm,
Səni lənətləmək mənə ar gəlir.
Məndə yaxşılığın sərhədi yoxdur,
Səndən qan qoxulu sədalar gəlir.
Namusum, şərəfim hər şeydən baha,
Mən onu qoymaram ucuzlaşmağa.
Mənim öz həddimi gözləməyim var,
Sənsə öyrənmisən həddi aşmağa!
Ağıl kəsə-kəsə, göz görə-görə,
Mənim varlığıma yiyə çıxırsan.
Kimdir güvəndiyin, arxalandığın,
Bu qədər özündən niyə çıxırsan?!
Dilin tikanlıdı, dişin zəhərli,
Nəfəsin toxunsa qışa dönər yaz.
Mən od qaymağıyam, sən buz parçası,
Yox, daha səninlə mənimki tutmaz!

## EYLƏDİ

Sevda adlı yola çıxdım,
Məni qana tuş eylədi.
Qanadına güllə dəymiş,
Bir yaralı quş eylədi.

Ağrı gəldi, yaman gəldi,
Gözlərimə duman gəldi.
Bir qarışıq zaman gəldi,
Gör nə zalım iş eylədi.

Öldürdü, elə bilmədim,
Bu sirri bilə bilmədim.
Mən dərdə gülə bilmədim,
Dərd məni bihuş eylədi.

## TƏBİƏTLƏ ÜZ-ÜZƏ

Yenə təbiətlə üz-üzəyəm mən,
Təpədən dırnağa möcüzəyəm mən.
Meşəyəm, ormanam, bulağam, çayam,
Dünyaya sığmayan sirli dünyayam.

Elə süzülürəm, elə axıram,
Bu gün axa bilməz su mənim kimi,
Bu gün ötə bilməz, oxuya bilməz,
Qumru mənim kimi, qu mənim kimi.

Yüz il ömr eləsəm bu dağ başında,
Demərəm dünyada qocalıq mənəm.
Elə bilirəm ki, bu saat, bu an,
Dünyada ən hündür ucalıq mənəm.

## MÜNDƏRİCAT


Ürəyimdə ....................5
Ana torpaq....................6
Daşaltı ....................7
Üçtelli durna ....................8
Palıdlar olur....................11
Ocaq ....................12
Səndə varmı?....................13
Ad....................14
Düşübdü ....................15
Vurğunum ....................16
Nənə ....................17
Görüm ....................18
Sən şeir oxuyanda ....................19
Xeyri nədir? ....................21
Qarayazım ....................22
Var ....................24
Bakı haqqında düşüncələr....................25
Səadətim....................27
Yaşayır ....................28
Sevgim ....................29
Dodaqdəyməz təcnis ....................30
Olur ....................31
Baba həsrəti....................32
Meylimiz ....................33
Əllərin nəğməsi....................34
Bir içim dedi ....................35
Var ....................36
Saxlayar ....................37
Hələ bu harasıdır....................38

Vətən ....................................................................................40
Olmaz ...................................................................................42
Üzümüzü ağ eylədin, qara torpaq ......................................43
Olan yerdə ...........................................................................45
Əlim qələm tanımazdı.........................................................46
Qarabağ şikəstəsi ................................................................47
Dönəsiyəm ...........................................................................49
İki sözün düşməni ...............................................................50
Ucalıq heykəli .....................................................................52
Onda ölmüş bil məni ...........................................................53
Əsgər qardaşım ....................................................................54
İstək......................................................................................56
Səs .......................................................................................57
Dördlüklər ...........................................................................59
Qar yağa-yağa ......................................................................64
Quzukənd .............................................................................65
Yaraşsın ...............................................................................66
Marxalı gördüm ...................................................................67
Yaşayır ................................................................................68
Gözəldi ................................................................................69
Yetirməsiyəm ......................................................................70
Eləmişdi ..............................................................................71
Ayrı .....................................................................................72
Gördüm ...............................................................................73
Könlümü ..............................................................................74
Nağıl....................................................................................75
Qalıbdı .................................................................................76
Ucalmasaydı.........................................................................77
Çıxar....................................................................................78
Dost .....................................................................................79
Gözümün üstə .....................................................................80
Natəvan ...............................................................................81
O da bir gün idi... ................................................................82

Hər üçümüz.......................................................................84
Bircə dəfə baxsana...............................................................85
Ola.....................................................................................87
Xatırlayarsan.......................................................................88
Yaxına gəl, yaxına...............................................................89
Əzizlənə..............................................................................90
Bir kəlmə.............................................................................91
Dodaqdəyməz .....................................................................92
Təcnis.................................................................................92
Yazılsın...............................................................................93
Görüş..................................................................................94
Var......................................................................................95
Nə yaxşı ki..........................................................................96
Heyrət.................................................................................97
Yaşayır................................................................................99
Ağsaqqal deyir....................................................................100
Çətindir..............................................................................101
Bulağına.............................................................................103
Təbiətin dili.........................................................................104
O qanlı illərin hayı, harayı...................................................106
Danışır şəhid məzarı............................................................108
Qırılan meşələr.....................................................................111
Dağın dərdi..........................................................................112
Sığışmaz.............................................................................114
Təmizlər..............................................................................115
Bu kişi nə gözəl qocalıb, Allah!............................................116
İnsan öldü............................................................................118
Bilmək olmur.......................................................................119
Gec olur onda......................................................................120
Nə deyim.............................................................................121
Ömür...................................................................................122
Dünyadı...............................................................................123
Qəm məni arabir üstələyəndə...............................................125

Natəvana ....................................................................126
Böyük şairlər.............................................................127
Ölmək şair üçün qorxulu deyil......................................128
Nolaydı, sən məni başa düşəydin...................................129
Deyimlər ....................................................................131
Bayatılar.....................................................................132
Ağılar ........................................................................134
İlhamın .......................................................................135
Bu xalqın.....................................................................136
Xalqim, səni uca gördüm .............................................138
Füzuli – Sabir...............................................................139
Mənim dərdim..............................................................140
Yaşamışam .................................................................142
Babalar .......................................................................143
Kərəm çırağı ...............................................................144
Meydan həqiqətindir ....................................................146
Mənə ümid kimi bax ....................................................148
Azərbaycan torpağıyam ...............................................149
Sığınnam ....................................................................150
Bu torpaqda izim qala .................................................151
Şuşada oxunan şeir......................................................152
Bağışlamaz..................................................................153
Aman, Allah ................................................................154
Öyünməsin ..................................................................155
Torpaq ........................................................................156
Gözəldir .....................................................................157
Çəkər...........................................................................158
Bilsəydim... ................................................................159
Tüstü ..........................................................................161
Ləyaqət.......................................................................162
Sandal ........................................................................164
Gəmiyə döndü.............................................................164
Qoruyun insanları .......................................................166

Ağrı ........................................................ 167
Sual-cavab ........................................................ 168
Yaşamaq ........................................................ 171
Oyatdın ........................................................ 172
Müqəddəs yollar ........................................................ 174
Köç ........................................................ 175
Torpaq məni yaman çəkir özünə ........................................................ 176
Etiraf ........................................................ 177
Araz kənarında ........................................................ 178
Məndə deyil ........................................................ 179
Qardaşım ........................................................ 180
Araz üstə ........................................................ 181
Kimdi ........................................................ 182

DEYİŞMƏLƏR
Osman Sarıvəlli ilə ........................................................ 183
Aşıq Şəmşirlə ........................................................ 184
Azaflı Mikayılla ........................................................ 186
Aşıq Kamandarla ........................................................ 187
Təbrizli qardaşım Sönməzlə ........................................................ 189

Ölməz ustad ........................................................ 191
Ulu ozan ........................................................ 194

ATALI, ATASIZ GÜNLƏRİN ŞEİRLƏRİ
1. “Dünən od yağardı baxışlarından” ........................................................ 196
2. Xatirəyə dönən atam ........................................................ 198
3. Açmaz ........................................................ 198
4. Apardı ........................................................ 199
Çəkər ........................................................ 200
Həkim ........................................................ 201
Yollar məni ellərin ürəyinə qaytarır ........................................................ 203
Gözəl dünya, gözəllərin var olsun ........................................................ 204

Qalardım ........................................................................................205
Toy günündür ...................................................................................206
Sonradan... .......................................................................................207
Bacarmadı ........................................................................................208
Təzə gəlinə .......................................................................................209
Qoşma ..............................................................................................210
Oyat məni .........................................................................................211
Keçə .................................................................................................212
Qurban olum .....................................................................................213
Nə diş bilsin, nə dodaq .....................................................................214
Gözəllər ............................................................................................215
Kimi .................................................................................................216
Qocalma ...........................................................................................217
Xəbərim olmadı ................................................................................218
Döndü daha əfsanəyə, nağıla ...........................................................219
Yaxşı gün – yaman gün .....................................................................220
Xəcalət çəkir .....................................................................................222
Vay o gündən ....................................................................................223
Qoca babam belə dedi ......................................................................224
Düşünürəm .......................................................................................226
Analar bilir .......................................................................................227
Nahaq güldün ...................................................................................229
Xəzan vaxtıdır ..................................................................................230
Heyif gözəlliyə, heyif gözələ ...........................................................231
Faciəsidi ...........................................................................................232
Yox, sən o yerlərdə doğulmamısan ..................................................233
Olmaz ...............................................................................................235
Ürəyim ağrıyır, yaman ağrıyır .........................................................236
Nə var durulmağa, təzələnməyə .......................................................238
Uşaq doğulasan, uşaq öləsən ............................................................240
Keşiyindədir .....................................................................................242
Görməyə ...........................................................................................243
Yazın birıgünü ..................................................................................244

Səssiz ötmə o qocanın yanından ....245
Mənim dostum ....247
Dağdan enib gələn oğlan ....248
Məni ....249
Hayıf, vaxtımız azdı ....250
Nələr çəkib ....251
Görə bilmədim ....252
Dağlar ....253
Görərik ....254
Daha mənim duyğularım üəyimə sığışmaz ....255
Aparıram ....256
Toxumlar, cücərtilər ....257
Yaşamısan ....262
Həyat ....263
Yoxdu ....264
Acı etiraf ....266
Bu xalqın çörəyi ....268
İnsan ....269
Ömür yolu ....271
Durnalara sözüm ....272
Yol ayrıcında ....275
Şükür kərəminə ....276
Babam ....277
Şair vaxtı ....279
Əhməd Cavad ....280
Qocasan demə ....282
Ay bulaq ....283
Qismət ....284
Ömrüm boyu ....285
Təzələ ruhumu ....286
Bəzənin qizlar, bəzənin ....287
Divani ....288
Nə xeyri ....289

Sönməzim ....................................................................................290
Vətən, əymə qəddini ........................................................................291
Ordum varsa, yurdum var .................................................................293
Ağa Laçınlıya.....................................................................................295
Böyük qəhrəmanlıq..........................................................................297
Gələcək nəsil.......................................................................................298
Alçağa nəsihət.....................................................................................299
Şəhid ruhu ..........................................................................................300
Şəhidlərin ili........................................................................................302
Güllə dəydi..........................................................................................304
Azərbaycan türkünün qanı tökülür bu gün ...................................306
Şair, bu gün şeirini evdə yox, səngərdə yaz....................................307
Ağsaqqal sözü ....................................................................................308
Taleyimiz.............................................................................................309
Mənim yazıq qələmim .....................................................................310
Dərd ....................................................................................................312
Görünür ..............................................................................................315
Ömrün son günü................................................................................316
Nə zaman ...........................................................................................317
Etiraf elə..............................................................................................318
Vəzifə...................................................................................................320
Qalmaz ................................................................................................321
Qara bayraq........................................................................................322
Mən haqqın keşikçisi.. .......................................................................324
Yoxdur.................................................................................................326
Şəhidlərim yatan yerdə .....................................................................327
Sual .....................................................................................................328
Nifrətim...............................................................................................329
20 yanvar günü...................................................................................330
Altında ................................................................................................332
Ömrün yolları......................................................................................333
Barışmaram.........................................................................................334
Səbr eləmə...........................................................................................335

Qara xəbər....................................................................................336
Bacardı.......................................................................................340
Yıxdı bizi ....................................................................................341
İnanıram həqiqətin təntənəsinə ................................................342
Şəhid qanı ..................................................................................343
Güllə...........................................................................................346
Görünməz...................................................................................347
Şükrü Qaya Qarabağlı................................................................349
Vermədi.......................................................................................351
Qəbiristana gedən yolda.............................................................352
At ili – muraz ili..........................................................................353
Soyutma .....................................................................................354
Vətən nə çəkib ...........................................................................355
İçərimdə yatan qüvvət.................................................................357
Gəlir ...........................................................................................358
Demərəm.....................................................................................359
And yerimiz ...............................................................................360
Hazırlaş ......................................................................................361
Göynədir ....................................................................................362
Qəmlı şəkil.................................................................................363
Hesablaşmır ...............................................................................364
Dayanır.......................................................................................365
Nayman ana ...............................................................................366
Döz ürəyim, döz hələ..................................................................370
Ağlar gördüm bir ananı..............................................................372
Nə qaldı......................................................................................373
Səni haqqa  çağırıram ................................................................374
Gələ............................................................................................376
Gedər..........................................................................................377
Yetimin ağısı ..............................................................................378
Qaldı...........................................................................................379
Onun ruhuna söykən ..................................................................380
Bu torpaq....................................................................................381

İçimdə sızlayan arı ........................................................................383
Qaldı.........................................................................................................384
Sevirəm .....................................................................................................385
Yolçusuyam ..............................................................................................386
Yolların......................................................................................................386
Göstər........................................................................................................387
Mənə sevdiklərım qalar ..........................................................................388
Ölləm ........................................................................................................389
Qəriblər .....................................................................................................390
Olmur.........................................................................................................393
Ömür vəfa eyləsə .....................................................................................394
Bilmək olmur həyatı ................................................................................396
Mənəm ......................................................................................................398
İnanıram qələmə .....................................................................................401
Pis qonşuya ..............................................................................................402
Eylədi........................................................................................................404
Təbiətlə üz-üzə.........................................................................................405

Şərq Qərb
1986-cı ildən

"Şərq-Qərb" Nəşriyyat evində çapa hazırlanmışdır

Buraxılışa məsul: ***Rasim Müzəffərli***

Texniki redaktor: ***Rövşən Ağayev***

Üz qabığının dizaynı: ***Elşən Qurbanov***

Kompyuter səhifələnməsi: ***Xəqani Fərzalıyev***

Korrektorlar: ***Pərinaz Səmədova***
***Elşad Çobanlı***

Çapa imzalanmışdır 26.07.2011
Formatı 60×90 1/16. Fiziki çap vərəqi 26.
Sifariş N220. Tiraj 500

"Şərq-Qərb" Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur
AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 83 43
Faks: (+99412) 370 68 03; 370 18 49
www.eastwest.az